**Hacı Nərimanoğlu**

# TURAN Aşiqləri

## Müəllifdən:

## 2011-ci il

**ÜmumTürk Tarixinə Şərəfli Səhifələr Yazmış;**

**I. Türkiyə Cümhuriyyətinin qurucusu, adı bəşər tarixinin yetirdiyi ən böyük siyasət, dövlət və hərb adamları sırasında öncül yerdə dayanan, YUNESKO tərəfindən XX əsrin bir nömrəli şəxsiyyəti elan edilmiş**

**Qazi Mustafa Kamal Paşa Atatürkün 130,**

**II. Ulu Öndər Atatürkün "Ətimin və sümüyümün atası Əli Rza əfəndidirsə, fikrimin atası Ziya Göyalpdır"-dediyi, "Vətən nə Türkiyədir türklərə, nə Türküstan, Vətən böyük və müəbbət bir ölkədir: Turan" amalı ilə yaşayıb mücadilə aparmış böyük mütəfəkkir**

**Ziya Göyalpın 135,**

**III. Osmanlı İmperatorluğunun sonuncu Hərbi naziri, Ümumtürk birliyi, Turan idealı uğrunda mücahid və şəhid olan**

**Ənvər Paşanın 130,**

**IV. 93 il əvvəl Azərbaycanın rus-ingilis-erməni işğalından qurtuluşunu gerçəkləşdirən qəhrəman sərkərdə, Qafqaz İslam Ordusu Komandanı**

**Nuru Paşanın 122-ci**

**Doğum İlidir.**

**Azərbaycanın coğrafi-siyasi subyekt, müstəqil dövlət olaraq bu gün müasir dünya xəritəsində öz yerini tutmasında hər 3 paşanın və onların fikir, məfkurə babasının böyük xidmətləri olmuşdur.**
**Onların şəxsi həyatı, amalı həm də tariximizin bütün çətin dövrlərində Azərbaycana yeganə etibarlı arxa, dayaq, qardaş olmuş, bunu fikirdə, sözdə, əməldə sübuta yetirmiş Osmanlı-Türkiyə dövlətinin Azərbaycana əsil qardaşlıq münasibətinin inikasıdır. Mustafa Kamal Paşa, Ənvər Paşa, Nuru Paşa, Ziya Göyalp adları Azərbaycan var olduqca hörmət, məhəbbətlə anılacaqdır, onlar xalqımızın qəlbində, yaddaşında özlərinə əbədi sevgi yuvası qurmuşlar. Azərbaycan xalqının, dövlətinin hər guşəsi şəhid qanı ilə suvarılmış Anadolu torpağına, Türk insanına, bu şəxsiyyətlərə əbədi bir vəfa borcu var.**
**Türkiyə Cümhuriyyəti Quruluşunun 88-ci və Azərbaycanın Dövlət Müstəqilliyinin bərpasının 20-ci ildönümündə həyatları Türkiyə və Azərbaycanın, Türk ulusunun azadlığı, istiqlalı uğrunda çarpışmalarda keçən insanların mübarizə dolu ömür yollarına kitab həsr edilməsi bu mənada tamamilə təbiidir, xalqımızın Anadolu torpağına sevgisinin ifadəsidir.**
**Türkiyə və Azərbaycan oxucuları üçün nəzərdə tutulan, həm Anadolu, həm Qafqaz türkcəsində materialların yer aldığı bu kitab həmin mənəvi borc düşüncəsi ilə, birlik və bərabərliyimizi bu günkündən daha yaxın görmək arzusu ilə yazılıb.**

**Bakı-2011**



**ATATÜRK:**

Ben herşeyden evvel bir Türk milliyetçisiyim. **TÜRK BİRLİGİNİN** birgün hakikat olacağına inancım vardır. Ben görmesem bile, gözlerimi dünyaya onun rüyaları içinde kapayacağım. **TÜRK BİRLİGİNE** inanıyorum, onu görüyorum. Yarının tarihi, yeni fasıllarını **TÜRK BİRLİGİYLE** açacaqdır. Dünya sükununu bu fasıllar içinde bulacakdır. **TÜRK**" ün varlığı bu köhne aleme yeni ufuklar açacaq, Güneş ne demek, ufuk ne demek, o zaman görülecek.

Azeri Turklerinin dertleri kendi dertlerimiz ve sevincleri kendi sevinclerimiz olduğu icin onların muratlarına nail olmaları, hür ve mustakil olarak yaşamaları bizi pek ziyade sevindirir. Sovyetler Birligi bugun dostumuzdur, müttefikimizdir. Onun bu dostluguna bugün ihtiyacımız vardır. Ama bir gun Sovyetler Birligi de Osmanlı gibi Avusturya-Macarıstan İmparatorlugu gibi parcalanacaktır. Sovyetler Birligi icinden dini bir, dili bir, tarihi bir olan Kardeslerimiz vardır. Biz, o günlere hazır olmalıyız! Hazır olmak oturup beklemek degildir. Onlar bize gelemezler, biz onlara gitmeliyiz. Köprüler kurmak gerekir. Dil bir köprudur, inanc bir köprüdür, kültür bir köprüdür.

***



## HEYDƏR ƏLİYEV ATATÜRK HAQQINDA:

**ANKARADAKI "ANITKABIR" MƏQBƏRƏSİNDƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BANİSİ MUSTAFA KAMAL ATATÜRKÜN MƏZARINI ZİYARƏT ETDİKDƏN SONRA XATİRƏ KİTABINA YAZDIĞI ÜRƏK SÖZLƏRİ:**

"Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər, dahi Mustafa Kamal Atatürkün məzarı önündə, onun ruhu qarşısında hörmətlə baş əyirəm, ona Azərbaycan xalqının hədsiz məhəbbət və ehtiramını ifadə edirəm. Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan dostluğunun və qardaşlığının gələcək yoluna parlaq işıq saçır."  8 fevral 1994-cü il

---

"Türkiyə cümhuriyyətinin böyük tarixi var. Böyük öndər, dahi Mustafa Kamal Atatürk 70 il bundan öncə indiki böyük, demokratik Türkiyənin əəsasını qoymuş, böyük dövlət yaratmışdır. Sonra gələn nəsillər onun işini davam etdirərək Türkiyəni bütün dünyada nüfuzlu, əzəmətli bir dövlətə çevirmişlər."

*8 fevral 1994-cü il, Ankarada "Çankaya" köşkündə şərəfinə ziyafətdə nitqindən*

"Dahi insan, böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə cühuriyəti 71 il ərzində türkün, türk dünyasının, türk xalqının nəyə qadir olduğunu bütün dünyaya əyani şəkildə nümayiş etdirmişdir. ...Azərbaycan xalqı öz milli azadlığı uğrunda mübarizə apararkən, milli istiqlaliyyətinə nail olmağa, milli dövlətçiliyini yaratmağa çalışarkən daim Türkiyə xalqının dəstəyinə, dayağına arxalanmış, Mustafa Kamal Atatürkün qoyduğu yolla gedən Türkiyə cümhuriyyətinin təcrübəsindən bəhrələnmişdir"

*1 noyabr 1994-cü il, Bilkənd Universitetində Məhəmməd Füzulinin 500 illiyinə həsr olunmuş təntənəli açılışda çıxışından*
"Böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə erməni millətçilərinin, daşnaklarının azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Azərbaycanda nə qırğınlar etmişdilər, yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-1920-ci illərdə Türkiyənin Qafqaz Ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq.

...Məni sevindirən bir də odur ki, bu mükafat məhz Türkiyə cümhuriyyətinin mükafatıdır. Bu, böyük öndər Mustafa Kamal Atatürkün ölkəsinin, onun yaratdığı cümhuriyyətin mükafatıdır. Mustafa Kamal Atatürk sizin üçün nə qədər əziz və hörmətli olubsa, o qədər də Azərbaycanlılar üçün belədir. Ona görə də Türkiyə, demokratik, Atatürk Türkiyə cümhuriyyəti bizim üçün doğma bir ölkədir. Biz buranı öz diyarımız, məmləkətimiz hesab edirik."

*13 aprel 1999-cu il, Türkiyənin ən nüfuzlu mükafatı olan "Atatürk Beynəlxalq Sülh Mükafatı"nın təqdimatında çıxışından*

“Türkiyədə türk dilinin inkişaf etdirilməsi böyük Atatürkün adı ilə bağlıdır. Bugünkü türk dilinin yaranması böyük Atatürkün xidmətləridir. Mən Azərbaycanda Atatürk Mərkəzi Yaratmışam. Çünki Atatürk təkcə Anadolu türklərinin deyil, o bizim hamımızındır. Mən Anadolu türk dilinin nə qədər ağır vəziyyətdə olduğunu bilirdim. Əgər Atatürk dil haqqında qərar qəbul etməsəydi bu gün belə gözəl Anadolu türkcəsi olmazdı. Ona görə dil, dil, bir də dil.”

*6 fevral 2003-cü il, “Türksoy”un XIX toplantısında çıxışından*

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

«Azərbaycanda Atatürk Mərkəzinin yaradılması haqqında»

Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alaraq, Atatürk irsinin, ümumiyyətlə türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədilə qərara alıram:

1. Azərbaycanda Atatürk Mərkəzi yaradılsın.
2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Prezidenti Atatürk Mərkəzinin fəxri sədridir.
3. ...

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, " 9 " mart 2001-ci il

# AZƏRBAYCANDA



# ATATÜRK MƏRKƏZİ





**Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda Atatürk Mərkəzinin açılış mərasimində çıxışından:**

...Mustafa Kamal Atatürk dünyanın ən görkəmli şəxsiyyətlərindən biridir. Böyük dövlət xadimi, siyasi xadimdir. Onun Türkiyə qarşısında, bütün türk dünyası qarşısında misilsiz xidmətləri olmuşdur. Ən böyük xidməti isə Türkiyə Cümhuriyyətini yaratmasıdır. Müasir Türkiyə Mustafa Kamal

Atatürkün əsəridir. Necə ki, müasir Azərbaycan Heydər Əliyevin əsəridir. Atatürkdən sonra 65 il yaşayan Türkiyənin bütün uğurlarının təməli məhz 1923-cü ildən qoyulmuşdur. Bu, düzgün, sağlam təməl üzərində qurulmuş müasir dövlət inkişaf etmiş, güclənmişdir və bu gün Türkiyə dünyada böyük siyasi çəkiyə malik olan bir ölkədir. Türkiyənin dünya birliyində çox önəmli yeri vardır. Bu, bizim hamımızı - bütün türk dünyasını sevindirir.
Mustafa Kamal Paşanın ən böyük xidmətlərindən biri də odur ki, onun tərəfindən, bilavasitə onun rəhbərliyi və iştirakı ilə türk ordusu yaranmışdır. Bu ordu bu gün güclənmiş və deyə bilərəm ki, bölgədə, regionda sülhün, təhlükəsizliyin keşiyində duran bir ordudur. Türkiyə Cümhuriyyətinin, bütün türk dünyasının rahat, təhlükəsiz şəraitdə yaşamasında mühüm rol oynayan bir amildir. Biz, türk dünyası haqlı olaraq bundan qürur hissi duyuruq.
Mustafa Kamal Atatürk təkcə Türkiyə haqqında deyil, bütün türk dünyası haqqında daim düşünmüşdür. O cümlədən Azərbaycanda yaşanan olaylar da onu hər zaman narahat edirdi, düşündürürdü və azərbaycanlı qardaşlarına olan məhəbbəti, hörməti, sevgisi bizim hamımıza bəllidir.

10 aprel 2004-cü il

## Bakıda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsi açılmışdır







17 may 2010-cu il. Bakının Nəsimi rayonunda, Səməd Vurğun və Bakıxanov küçələrinin kəsişməsindəki parkda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsi açılmışdır. Açılış mərasimində Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan

və xanımı Əminə Ərdoğan iştirak etmişlər.
Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş parkda bu əlamətdar hadisə münasibətilə fəxri qarovul dəstəsi düzülmüşdü.
Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm adamları, ictimaiyyətin nümayəndələri Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı qarşıladılar.
Prezident İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan mərasimdə nitq söylədilər.

**FETHULLAH GÜLENİN ATATÜRK HAQQINDA DÜŞÜNCƏLƏRİ:**



“Atatürk, askeri ve idari bir dahiydi!
Atatürk müsellem bir dahidir. İnsanüstü bir zekaya sahiptir!

...O'nun çok önemli bir dönemde bir istiklal mücadelesi vermesi, onun bayraktarlığını yapması ve o gün bize musallat olan bir dönemin batı zalimleri onlara karşı bir istiklal mücadelesi verip bize bir istiklal kazandırması bizim bu günlere ulaşmamıza vesile olması bakımından çok önemli bir hadisedir. Bunu görmezlikten gelemeyiz. Bediüzzaman bu meseleyi ifade ederken der ki, onlar zaten o zalimler değil mi bazılarını bize musallat ettiler. O bakımdan Türkiye'nin bir istiklali, bugünlere gelmesi bundan sonra büyüklüğe oynaması için öyle bir mücadele çok önemliydi, çok hayatiydi Atatürk bu hayati meseleyi başarmıştır. Atatürk'e Türkiye'de düşmanlık yapan insanlar, onu dinin karşısında olmayacak bir şekilde göstererek düşmanlık yapmışlardır. Aslında o akılla dini mezc eden çok ender yetişmiş insanlardan birisidir. Bazılarını bunları belki ben vesikalarıyla ifade edemem ama çok inandığım birisi Şemseddin Günaltay merhumdan naklettiği bir husus vardı. Bir gün yanına gittim bana demişti ki Falih Rıfkı şu mevzuda şöyle düşünüyor. Sen şu hususta ne diyorsun diye dine karşı. Ben yanlarına gittiğimde İsmet Paşayla bir haritanın başındaydılar. Ve ben ne yapıyorlar diye dikkatle baktım haritanın başında. Bana döndü dedi ki Hz. Muhammed'in harp stratejilerini görüşüyoruz burada. Atatürk, İsmet paşaya döndü dedi ki, sen olsaydın bu şartlar altında nasıl hareket ederdin? Aynen böyle hareket ederdim diyor. Bu değişik zamanlarda tekrar ettiğimde benim gözlerimi yaşartmıştır. Bir insan kendi toplumunca zannediyorum yanlış biliniyor ve

yanlış takdim ediliyor. Çok manasız bir takdim etme meselesidir bu. Atatürk'ün nutkunu dikkatli okuyanlar onun dinine apaçık sahip çıktığını görürler. Bizim dinimiz akıl ve mantık dini dediği değişik hutbelerinde çok açıktır.
Onun milliyetçiliği de o ölçüde derindir. Müspet manada milliyetçilik ırkçılık değil. Deme damara bağlı bir milliyetçilik değil ama Asya hakkında o da belki bir vesika ortaya konamaz ama şimdilerde çok tekerrür ediyor. Bir gün Rusya İmparatorluğu dağılacaktır. Türkiye devleti bu mevzuda hazır olmalıdır.

Türkiye Cumhuriyeti Devleti belki yüz defa söylemişimdir, Türk milleti için bence Allah'ın büyük bir lütfudur. Türk milleti büyümek istiyorsa ancak bu müsait zeminde büyüyebilir. Diyanetine bağlı olan insanlar da ancak bu zeminde dinlerini diyanetlerini yaşayabilirler. Cumhuriyet bir fazilet rejimidir, bunu Mustafa Kemal Atatürk de söylemiştir.
Türkiye'nin içinde dışında öyle diyorlar 500'e yakın böyle müesseseler var ve hepsi bizim kriterlerimize göre bizim saygı duyduğumuz şeylere göre Atatürk köşesi de var, İstiklal marşı da var, Türk büyükleri de var.

Bunca zaman komünizmin baskısı altında kalmış bu ülkelerde bir Atatürk köşesi yapmak, onun kitaplarını bir yere koymak, kendi bayrağımızı asmak, istiklal marşımızı söylemek, Türk büyüklerinden bahsetmek, oturup düşünülmesi gereken şeylerdir....Hatta yabancı bir ülkede aleyhinde konuşulduğundan dolayı ben şimdiye kadar olmuş değildi cami kürsüsünde protesto ettim. Bunlar meselenin bilinen yanları.

Mustafa Kemal Atatürk'ün askeri bir dahi olduğunu, idare bir dahi olduğunu, istiklal mücadelesi ile ezilmiş bir milleti yeniden istiklalinin kazandırma suretiyle, ona hürriyeti tattırdığını, ve her şey olmaya müsait hale getirdiğini defaatle arz ettim. …Atatürk ismini, hem soy ismini, hem de Türk milletinin içinden gelerek verdiği o ismi her zaman kullanıyorum. Birilerinin onu bir taraflara çekip, dinin karşısındaymış gibi göstermelerine karşılık, hatta orada uzun boylu olarak onun çok iyi bir dindar olduğunu, Şemsettin Günaltay ile olan bir mülakatı ifade etmek suretiyle, onun başka tarafı çekilmeye müsait olmadığını ısrarla ifade ettim. O bu milletin içinden çıkmıştır, bu milletin evladıdır, bu millet için yüreği çarpmıştır, bizim mukaddes bildiğimiz, saygı duyduğumuz her meseleye saygı duymuş ve millet nezdinde, kalbinde saygın bir yeri olan bir insandır. Atatürk …bir cumhuriyet kurmuş ve arkasında bir enkaz değil, bir ülke, bir sistem bırakmıştır.

www.tr.fgulen.com

***Dünya liderlerinin Atatürk hakkında söyledikleri***

Atatürk bu yüzyılın büyük insanlarından birinin tarihi başarılarını, Türk

halkına ilham veren liderliğini, modern dünyanın ileri görüşlü anlayışını ve bir askeri lider olarak kudret ve yüksek cesaretini hatırlatmaktadır... Çöküntü halinde bulunan bir imparatorluktan özgür Türkiye'nin doğması yeni Türkiye'nin özgürlük ve bağımsızlığını şerefli bir şekilde ilan ve o zamandan beri ********ası, Atatürk'ün Türk halkının işidir. Şüphesiz ki, Türkiye'de giriştiği derin ve geniş inkılaplar kadar bir kitlenin kendisine olan güvenini daha basarı ile gösteren bir örnek yoktur.
John F.KENNEDY
(A.B.D.Başkanı, 10 Kasım 1963)

Benim üzüntüm, bu adamla tanışmak hususundaki şiddetli arzumun gerçekleşmesine artık imkan kalmamış olmasıdır.
Franklin ROOSEVELT
(A.B.D.Başkanı, 10 Kasim 1963)

Asker-devlet adamı, çağımızın en büyük liderlerinden biri idi. Kendisi, Türkiye'nin, dünyanın en ileri memleketleri arasında hak ettiği yeri almasını sağlamıştır. Keza O, Türklere, bir milletin büyüklüğünün temel taşını teşkil eden, kendine güvenme ve dayanma duygusunu vermiştir.
General Mc ARTHUR

Sovyet Rusya Hariciye Nazırı Litvinof ile görüşürken kendisine onun fikrince bütün Avrupa'nın en kıymetli ve en ziyade dikkate değer devlet adamının kim olduğunu sordum. Bana Avrupa'nın en kıymetli devlet adamının Türkiye Cumhurbaşkanı Mustafa Kemal olduğunu söyledi.
Roozwelt (Franklen D.) 1928
Birleşik Amerika Cumhurbaşkanı

Dünya sahnesinden tarihin en dikkatli, çekici adamlarından biri geçti.
Chicago Tribune

Savaş sonrası döneminin en yetenekli liderlerinden biri.
New York Times

İnsanı teslim alıcı fevkalade önderlik kuvveti vardır. O, tetiktir, hazır cevaptır, dikkati çekecek kadar zekidir.
Gladys Baker(Gazeteci)

Mustafa Kemal hakkındaki bilgiyi O'nu çok iyi tanıyan birisinden edindim. Sovyet Sosyalist Cumhuriyetleri Birliği'nin Dışişleri Bakanı Litvinof ile görüşürken, onun fikrince bütün Avrupa'nın en değerli ve ilgi çekici devlet

adamının bugün Avrupa'da yaşamadığını, Boğazların gerisinde, Ankara'da yaşadığını, bunun Türkiye Cumhuriyeti Cumhurbaşkanı Gazi Mustafa Kemal Atatürk olduğunu söyledi.
Franklin D. Roosevelt (ABD Başkanı) (Üç Adam: Kemal Atatürk - Roosevelt - Mussolini, 1937)

O'nun yaratıcı ruhunun ve ateşli yurtseverliğinin harekete geçmemiş olduğu hiçbir alan yoktur...
Gazeta Polska

Atatürk, tarihte teşkilatçı bir dahi, bir milletin harikalar yaratan yöneticisi ve memleketinin kurtarıcısı olarak kalacaktır.
Independance Romaine Gazetesi(12 Kasım 1938)

Bir milleti, uçurumun kenarından sarsılmaz azmiyle kurtaran, kuvvetlendiren, yükselten yöneticiler arasında Atatürk, en birincisidir.
Timpul Gazetesi(12 Kasım 1938)

Şöhreti bütün cihana yayılmış olan tecrübeli başkanın yönetimi herkesin sevgi ve saygısını çeken büyük Türk Milleti'nin milli bağımsızlığını devamlı bir başarı ile kuvvetlendirmiş ve yeni milli yapısını yaratmıştır.
Sovyet Başbakanı Kalinin

Vatanını muhakkak bir parçalanmaktan kurtararak devlet gemisini güvenilir bir limana götürdükten sonra milletinden bir taht istemedi. O, kelimesinin bütün anlamıyla bir insan, eşsiz bir dahi, kahraman bir asker ve siyaset adamı idi...
Elifba Gazetesi

Atatürk'ün başardığı işler mucize ve harika kabilindedir. Birkaç yıl içinde memleketinde yaptığı inkılaplar, birkaç yüzyılda gerçekleştirilmeyecek işlerdir.
El Tekaddum Gazetesi

Atatürk'ün dehası, tarihte Türk Milleti'nin taşıdığı ruhun faziletine en yüksek örneklerinden birini teşkil edecektir.
Branko Aczemovic (Elçi)

Tarih, silinmez harflerle bu devlet adamının ismini hak edecektir. Atatürk bir halk adamıdır. Kırılmaz azmi, keskin zekası ve kudreti kendisini yendiği alın yazısının önüne getirmiş, böylece yeni Türkiye'nin yaratıcısı olmuştur.

Politika Gazetesi

Türkiye, dost ve düşmanlarının hayran olduğu bir deha adama, malik bulunmak bahtiyarlığına erişmiştir.
Katimerini

**Anıtkabir'i ziyaret eden ABD Başkanı Barak Obama**

Şeref Defteri'ne şunları yazdı: "Vizyonu, kararlılığı ve cesaretiyle Türkiye Cumhuriyeti'ni demokrasiye yönelten ve mirası tüm dünyaya kuşaklar boyunca ilham vermeye devam eden Mustafa Kemal Atatürk'e saygılarımı sunmak, benim için bir onurdur.
ABD'nin 44. Başkanı olarak, Türk-Amerikan ilişkilerini güçlendirmeyi, Atatürk'ün, halkına umut veren modern ve müreffeh bir demokrasi olarak Türkiye vizyonunu desteklemeyi ve 'Yurtta barış, dünyada barış' ilkesini gerçekleştirmeyi sabırsızlıkla bekliyorum."   06.04.2009, Ankara



**Ömür yolu**



Mustafa
Kamal
Paşa
Qazi
Atatürk

Mustafa Kamal Atatürk 1881-ci ildə Selanikdə Qocaqasım Məhəlləsi İslahhanə Caddəsindəki üç qatlı çəhrayı-pəmbə evdə doğuldu. Babası Ali Rıza Əfəndi, anası Zübeydə xanımdır. Baba tərəfindən dədəsi Hafız Əhməd Əfəndi XIV-XV yüzillərdə Konya və Aydından Makedoniyaya yerləşdirilmiş Kocacık köçərilərindəndir. Anası Zübeydə xanım isə Selanik yaxınlarındakı Langaza qəsəbəsinə yerləşmiş əski bir Türk ailəsinin qızıdır. Milis zabiti, evkaf (vəqf evləri idarəsi) katibliyi və taxta-şalban ticarəti ilə məşğul olan Ali Rıza Əfəndi 1871-ci ildə Zübeydə xanımla evləndi. Atatürkün beş qardaşından dördü kiçik yaşlarında öldü, sadəcə bacısı Makbulə (atadan bir) 1956-cı ilə qədər yaşadı.

Kiçik Mustafa məktəb yaşına gəlincə Hafiz Mehmet Əfəndinin məhəllə məktəbində təhsilə başladı, sonra babasının istəyi ilə Şəmsi Əfəndi Məktəbinə keçdi. Bu sırada atasını itirdi (1888). Bir sürə Rapla ferma-ciftliyində dayısının yanında qaldıqdan sonra Selanikə dönüb məktəbi bitirdi. Selanik Mülkiyə Rüştiyəsinə qəbul oldu. Qısa bir sürə sonra 1893-cü ildə Əsgəri Rüştiyəyə girdi. Burada riyaziyyat müəllimi Mustafa bəy ağıl, dərrakə, tərbiyəsinə görə onun adına “Kamal”ı əlavə etdi. 1896-1899-cu illərdə Manastır Əsgəri İdadisini bitirib İstanbulda Hərbi məktəbdə oxumağa başladı.

1902-ci ildə teğmen-leytenant rütbəsiylə məzun oldu. Hərbi Akademiyada təhsilinə davam etdi. 11 yanvar 1905-ci ildə yüzbaşı rütbəsiylə Akademiyanı tamamladı. 1905-1907-ci illər arasında Şamda 5-ci Ordu əmrində vəzifə-görev aldı. 1907-də yüzbaşı oldu. Manastıra III Orduya dəyişdirildi. 19 aprel 1909-cu ildə İstanbula girən Hərəkat Ordusunda Kurmay Başqanı olaraq görev aldı. 1910-da Fransaya göndərildi. Picardiyə Manevralarına qatıldı. 1911-də İstanbulda Genel Kurmay Başqanlığı (Baş Qərargah Rəisi) əmrində çalışmağa başladı.

1911-də İtalyanların Trablusgarpa (Liviya, Trablis-qərb) hücumu ilə başlayan savaşda Mustafa Kamal bir qrup dostu ilə birlikdə Ənvər Paşanın qurduğu ilk türk gizli servisi olan “Teşkilat-ı Mahsusa” tərəfindən düzəldilən saxta kimlik, pasportlarla ərəb taciri və müxbir sifətində Liviyaya keçib Tobruk və Dərnə bölgəsində görev aldılar. 22 dekabr 1911-də İtalyanlara qarşı qızğın döyüşlərdən sonra Tobruk Savaşını qazandılar. Mustafa Kamal 6 mart 1912-də Dərnə Komandanlığına gətirildi.

Noyabr 1912-də Balkan Savaşı başlayınca Mustafa Kamal Gəlibolu və Bolayırdakı birliklərlə savaşa qatıldı. Dimətoka və Ədirnənin geri alınmasında böyük xidmətlər göstərdi. 1913-də Sofya Ataşeliyinə dəyişdirildi. Bu görevdə ikən 1914-da podpolkovnik-yarbaylığa yüksəldi. Ataşelik görevi dekabr 1915-də sona yetdi. Bu sırada I Dünya Savaşı başlamış, Osmanlı İmperatorluğu savaşa girmək zorunda qalmışdı. Mustafa Kamal 19-cu Tüməni qurmaq üçün Təkirdağa göndərildi.

1914-cü ildə başlayan I Dünya Savaşında Mustafa Kamal Çanaqqalada bir qəhrəmanlıq dastanı yazıb Antanta (İtilaf) Dövlətlərinə “Çanaqqala keçilməz! ” dedirtdi. 18 mart 1915-də Çanaqqala Boğazını keçməyə qalxan İngilis və Fransız donanması ağır itkilər verincə Gelibolu yarımadasına əsgər çıxarmağa qərar verdilər. 25 aprel 1915-də Arıburnuna çıxan düşmən qüvvələrini Mustafa Kamalın komandiri olduğu 19-cu tümən Conkbayırında durdurdu. Mustafa Kamal bu başarı üzərinə polkovnik-albaylığa yüksəldi. İngilislər 6-7 avqust 1915-də Arıburnunda təkrar hücuma keçdi. Xüsusi təyinatlı, ən döyüşkən Anafartalar Qrubu Komandanı Mustafa Kamal 9-10 avqustda Anafartalar (çətin keçilən yer adıdır) Zəfərini qazandı. Bu zəfəri 17 avqustda Kirəçtəpə, 21 avqustda II Anafartalar zəfərləri ilə davam etdirdi. Çanaqqala Savaşlarında təqribən 253.000 şəhid verən Türk milləti qürurunu, mətanətini Qərb dövlətlərinə tanıtdı. Mustafa Kamalın əsgərlərinə: “Mən sizə hücum əmri vermirəm, ölməyi əmr edirəm!” əmri cəbhənin qədərini dəyişdirmiş oldu.

Mustafa Kamal Çanaqqala Savaşlarından sonra 1916-da Ədirnə və Diyarbəkirdə görev aldı. 1 aprel 1916-da general leytenant-tümgenerallığa yüksəldi. Rus qüvvələriylə savaşaraq Muş və Bitlisin geri alınmasını təmin etdi. Şam və Hələbdəki qısa sürəli görevlərindən sonra 1917-də İstanbula

gəldi. Vəlihat Vahidəttin Əfəndiylə Almaniyaya gedərək cəbhədə araşdırmalar apardı. Bu səyahətdən sonra xəstələndi. Vyana və Karisbada gedərək müalicə aldı. 15 avqust 1918-də Hələbə 7-ci Ordu Komandanı olaraq döndü. Bu cəbhədə İngilis qüvvələrinə qarşı başarılı müdafiə savaşları apardı. “Mondros Mütarəkəsi”nin imzalanmasından bir gün sonra 31 oktyabr 1918-də “Yıldırım Orduları Grubu Komutanlığı”na gətirildi. Bu ordunun ləğvindən sonra 13 noyabr 1918-də İstanbula gəlib Hərbi Nəzarət Nazirliyində görevin icrasına başladı.

“Mondros Mütarəkəsi”ndən sonra Antanta Dövlətlərinin Osmanlı torpaqlarını işğala başlamaları ilə Mustafa Kamal 9-cu Ordu Müfəttişi olaraq 19 may 1919-da Samsuna çıxdı. 22 iyun 1919-da Amasyada yayımladığı bildirişdə “Millətin istiklalını yenə millətin əzm və qərarının qurtaracağını ” elan edib Sivas Konqresini toplantıya çağırdı. 23 iyul – 7 avqust 1919-cu il tarixləri arasında Ərzurum, 4 – 11 sentyabr 1919 tarixləri arasında da Sivas Konqresini toplayaraq vətənin qurtuluşu üçün izlənəcək yolu göstərdi. 27 dekabr 1919-ci ildə Ankarada coşqu ilə qarşılandı. 23 aprel 1920-ci ildə Türkiyə Böyük Millət Məclisinin açılmasıyla Türkiyə Cümhuriyyətinin qurulması yolunda önəmli bir addım atılmış oldu. Məclis və Hökumət Başqanlığına Mustafa Kamal seçildi. Türkiyə Böyük Millət Məclisi Qurtuluş Savaşının başarıyla sonuclanması üçün gərəkli qərarları qəbul edib həyata keçirməyə başladı.

Türk Qurtuluş Savaşı 15 may 1919-da yunanlıların İzmiri işğalı sırasında düşmənə ilk qurşunun atılmasıyla başladı. 10 avqust 1920-də Sevr Andlaşmasını imzalayaraq aralarında Osmanlı İmperatorluğunu paylaşan I Dünya Savaşının qalib dövlətlərinə qarşı öncə “Kuvâ-yi Milliye” adı verilən milis qüvvəleriylə savaşıldı. Türkiyə Böyük Millət Məclisinin qərarı ilə nizami ordu quruldu, “Kuvâ-yi Milliye” – ordu bütünləşməsini təmin edərək savaşı zəfərlə sona çatdırdı.

Mustafa Kamal komandanlığında Türk Qurtuluş Savaşının önəmli mərhələləri bunlardır:
Sarıkamış (20 sentyabr 1920), Qars (30 oktyabr 1920) və Gümrünün (7 noyabr 1920) azad edilməsi.
Çukurova, Gazi Antəp, Kahraman Maraş, Şanlı Urfanın müdafiəsi (1919-1921)
I İnönü Zəfəri (6 -10 yanvar 1921)
II İnönü Zəfəri (23 mart-1 aprel 1921)
Sakarya Zəfəri (23 avqust-13 sentyabr 1921)
Böyük Hücum (Taarruz), Başkomutan Meydan Müharibəsi və Böyük Zəfər (26 avqust- 9 sentyabr 1922)

Sakarya Zəfərindən sonra 19 sentyabr 1921-də Türkiyə Böyük Millət Məclisi Mustafa Kamala Marşal rütbəsi və Qazi adı verdi. Qurtuluş Savaşı 24

iyul 1923-də imzalanan Lozan Andlaşmasıyla sonuçlandı. Beləcə Sevr Andlaşmasıyla paramparça edilən Türklərə 5-6 vilayət böyüklüyündə vətən buraxıldı. Türkiyə torpaqları üzərində beynəlxalq-ulusal birliyə dayalı yeni Türk dövlətinin qurulması üçün heç bir əngəl qalmadı.

23 aprel 1920-də Ankarada TBMM-nin açılmasıyla Türkiyə Cümhuriyyətinin quruluşu müjdələndi. Məclisin Türk Qurtuluş Savaşını başarıyla yönətməsi yeni Türk dövlətinin quruluşunu sürətləndirdi. 1 noyabr 1922-də xilafət və səltənət bir-birindən ayrıldı, səltənət qaldırıldı. Beləcə Osmanlı İmperatorluğuyla idarəçilik bağları qoparıldı. 29 oktyabr 1923-də Cümhuriyyət idarəsi qəbul edildi, Atatürk bir səslə ilk Cümhurbaşqanı seçildi. 1923-cü il 30 oktyabr günü İsmət İnönü tərəfindən Cümhuriyyətin ilk hökuməti quruldu. Türkiyə Cümhuriyyəti, "Hegemonluq qeyd şərtsiz millətindir" və "Yurdda barış, cahanda barış" təməlləri üzərində yüksəlməyə başladı.

Atatürk Türkiyəni çağdaş tərəqqi yoluna, dövrünə çıxarmaq üçün gərəkən bütün sahələrdə inqilabi reformaların həyata keçirilməsinə başladı. Bu inqilabi dəyişimləri-devrimləri beş başlıq altında toplaya bilərik:

1. Siyasi devrimlər:

· Səltənətin qaldırılması (1 noyabr 1922)



· Cümhuriyyətin elanı (29 oktyabr 1923)

· Xəlifəliyin qaldırılması (3 mart 1924)

2. İctimai-toplumsal devrimlər:

· Qadınlara kişilərə bərabər haqlar verilməsi (1926-1934)

· Şapka və qiyafət dəyişimi (25 noyabr 1925)
· Təkyə bucaq (tekke zaviyə) və türbələrin qapadılması (30 noyabr 1925)
· Soyadı qanunu ( 21 aprel 1934)
· Ləqəb və ünvanların qaldırılması (26 noyabr 1934)
· Uluslararası saat, təqvim və uzunluq ölçülərinin qəbulu (1925-1931)

3. Hüquq devrimi :

· Məcəllənin qaldırılması (1924-1937)
· Türk Mədəni Qanunu və digər qanunların çıxarılaraq dünyəvi hüquq nizamına keçilməsi (1924-1937)

4. Təhsil və kültür sahələrində devrimlər:

· Tədrisin-Öğretimin birləşdirilməsi (3 mart 1924)
· Yeni Türk hərflərinin qəbulu (1 noyabr 1928)
· Türk Dil və Tarix Qurumlarının qurulması (1931-1932)
· Üniversitetdə tədris düzənləməsi (31 Mayıs 1933)
· Gözəl sənətlərdə yeniliklər

5. Ekonomi-iqtisadi sahədə devrimlər:

· Aşarın qaldırılması
· Çiftçinin həvəsləndirilməsi-özənlənməsi
· Örnək çiftliklərin qurulması
· Sənayeni Təşviq Qanununun qəbulu, sənaye quruluşlarının yaradılması
· I və II İnkişaf-Kalkınma Planlarının (1933-1937) təsdiqi, yurdun hər tərəfinə yeni yolların çəkilməsi

Atatürk dönəmində Türkiyə Cümhuriyyətinin dış siyasətinin bütün mahiyyəti Atatürkün “*Yurtta Barış, Dünyada Barış”* sözü ilə müəyyən olunmuş, uluslararası əlaqələrdə dövlətin rəsmi siyasəti olaraq bütün dünyaya elan edilmişdir.

Soyadı Qanunu gərəyincə 24 noyabr 1934-də TBMM Mustafa Kamala "Türklerin Atası" anlamına gələn “Atatürk” soyadı verdi (2587 sayılı qanun).

Atatürk 24 aprel 1920 və 13 avqust 1923 tarixlərində TBMM Başqanlığına seçildi. Bu başqanlıq görevi Dövlət-Hökumət Başqanlığı səlahiyyətini özündə birləşdirirdi. 29 oktyabr 1923-cü ildə Cümhuriyyət elan edildi və Atatürk ilk Cümhurbaşqanı seçildi. Anayasaya görə dörd ildə bir cümhurbaşqanlığı seçimləri yenilənməliydi. 1927, 1931, 1935-ci illərdə TBMM Atatürkü yenidən Cümhurbaşqanı seçdi.

Atatürk sıx- sıx yurd gəzintilərinə çıxaraq dövlət çalışmalarını yerində yoxladı. Geri qalan sahələrlə bağlı bilgilər alıb qərarlar verdi. Cümhurbaşqanı sifəti ilə Türkiyəni ziyarət edən yabançı ölkə dövlət başqanlarını, başbakanlarını, bakanlarını, komandanlarını qəbul etdi.

15-20 oktyabr 1927 tarixdə Qurtuluş Savaşını və Cümhuriyyətin quruluşunu anladan böyük nitqini, 29 oktyabr 1933-cü ildə 10-cu İl Nitqini oxudu.

Atatürk özəl yaşamında sadəlik içində yaşadı. 29 yanvar 1923-də Lətifə xanımla evləndi. Bir çox yurd gəzisinə birlikdə çıxdılar. Bu evlilik 5 avqust 1925-ci ilədək sürdü. Çocukları çox sevən Atatürk Afət (İnan), Sabiha (Gökçən), Fikriyə, Ülkü, Nəbilə, Rukiyə, Zəhra adlı qızları və Mustafa adlı çobanı mənəvi övlad götürdü. Abdurrahim və İhsan adlı çocukları himayəsinə aldı. Onlara doğma ata kimi yaxşı bir gələcəyə hazırladı.

1937-ci ildə çiftliklərini-fermalarını, təsərrüfatlarını xəzinəyə, bir qisim daşınmaz əmlaklarını da Ankara və Bursa bələdiyyələrinə bağışladı. Mirasından bacısına, mənəvi övladlarına, Türk Dil və Tarix Qurumlarına pay ayırdı.

Atatürk kitab oxumağı, musiqi dinləməyi, rəqs etməyi, ata minməyi və üzməyi çox sevərdi. Zeybək oyunlarına, güləşə, Rumeli türkülərinə çox sevgisi vardı. Nərd və bilyard oynamaqdan böyük zövq alırdı. Sakarya adlı atına, köpəyi Foksa çox dəyər verir, vaxt ayırırdı. Zəngin bir kitabxanası vardı. Axşam yeməklərinə dövlət və elm adamlarını, sənətçiləri dəvət edər, ölkənin sorunlarını onlarla müzakirə edər, bilgilər alardı. Təmiz və səliqəli geyinməyə diqqət göstərirdi. Dovğanı çox sevərdi. Sıx-sıx Atatürk Orman Çiftliyinə gedər, çalışmalara özü də qatılardı. Fransızca və almanca bilirdi.

## ATATÜRKÜN XƏSTƏLƏNMƏYİ, VƏFATI, DƏFNİ

***"Benim naçiz vücudum, Elbet bir gün toprak olacaqdır.***
***Fakat Türkiye Cümhuriyyeti, İlelebet payidar kalacaktır".***
***Mustafa Kamal Atatürk.***

Atatürkün xəstəliyi haqqında ilk bilgi 1937-ci ildə ortaya çıxdı. 1938-in əvvəlində Yalovada olan zaman ciddi olaraq xəstələndiyi üzə çıxdı. Buradakı müalicə əhəmiyyətli nəticə verdi. Fəqət tamamən sağalmadan Ankaraya dönməsi, burada sıx proqramlı gərgin işləri xəstəliyinin artmasına səbəb oldu. Bu tarixlərdə Hatay sorununun gündəmdə olması da onu yormaqdaydı. Xəstə olmasına rəğmən, Mərsin və Adanaya gəzintiyə çıxdı. Qızğın günəş altında əsgəri birlikləri təftiş edib təlimlər keçirən Atatürk çox yorğun düşdü. Fəaliyyəti sırasında şəxsi sağlamlığını arxa plana keçirdi, günəş altında çox qalması da xəstəliyinin artmasına səbəb oldu. 26 mayda Ankaraya döndükdən sonra müalicə və istirahət üçün İstanbula getdi. Doktorlar tərəfindən "siroz" xəstəliyi diaqnozu qoyuldu. Dəniz havası xeyirli

olduğu üçün Savarona Yatında bir sürə dincəldi. Bu durumda belə ölkə sorunlarıyla ardıcıl maraqlanmaqda davam etdi. İstanbula gələn Rumıniya kralı ilə görüşdü. Nazirlər Kabinetinin toplantısını keçirdi, 4 iyul 1938-ci ildə Hatay Andlaşmasının qüvvəyə minməsi Atatürkü çox sevindirib əhvalını qaldırdı. İyulun sonlarına qədər Savaronada qalan Atatürkün xəstəliyi ağırlaşınca Dolmabağça Sarayında müalicəyə alındı. Fəqət xəstəliyi durmadan irəliləyirdi. Onun xəstələndiyini duyan Türk xalqı sağlığıyla ilgili xəbərləri həyəcanla izləyir, bütün qəlbi ilə yaxşılaşmasını Allahdan diləyirdi. Xəstəliyinin ciddiyyətini qavrayaraq 5 sentyabr 1938-ci ildə vəsiyyətini yazıb sərvətinin böyük bir qismini Türk Tarix və Türk Dil qurumlarına bağışladı. Oktyabr ayının ortalarında durumu düzəlir kimi oldu. Fəqət çox arzuladığı halda Ankaraya gəlib Cümhuriyyətin on beşinci il dönümü törənlərinə qatıla bilmədi. 29 oktyabr 1938-ci ildə qəhrəman Türk Ordusuna yolladığı mesaj Başbakan Cəlal Bayar tərəfindən oxundu. “Zəfərləri və keçmişi insanlıq tarixi ilə başlayan, hər zaman zəfərlərlə bərabər mədəniyyət nurlarını daşıyan qəhrəman Türk ordusu!” sözü ilə Türk Ordusunun önəmini bildirdi. Yenə eyni mesajda “Türk vətəninin və Türklük camiasının şan və şərəfini, daxili və xarici hər dürlü təhlükələrə qarşı qorumaqdan ibarət olan vəzifəni, hər an ifaya hazır və amadə olduğuna mənim və böyük ulusumuzun tam bir inam və etimadımız vardır” deyərək Türk Ordusuna olan güvənini bildirmişdi.

Atatürk 1 noyabr 1938-ci ildə Türkiyə Böyük Millət Məclisinin açılış törənində də görünmədi. Hazırladığı açılış nitqini də Başbakan Cəlal Bayar oxudu. Atatürk bu nitqində ölkənin abadlığı, sağlamlıq xidmətləri və ekonomi sahəsində vəzifələrini açıqladı. Bundan başqa təhsil və kültür mövzularına da toxunub gəncliyin milli şüurlu və modern kültürlü olaraq yetişməsi üçün İstanbul Universitesinin genişləndirilməsi, Ankara Universitesinin tamamlanması və Van Gölü civarında bir universitenin qurulması üçün çalışmaların başlandığını bildirdi. Türk Tarix və Türk Dil qurumlarının çalışmalarından duyduğu məmnuniyyəti açıqladı. Ayrıca Türk gəncliyinin kültürdə olduğu kimi idman -spor sahəsində də ideal başarılara çatması üçün Bədən Tərbiyəsi Qanununun qəbul edilməsi və həyata keçirilməyə başlamasından duyduğu məmnuniyyəti bildirdi. Atatürk ölümünə qədər məmləkət məsələlərindən bir an olsun uzaq qalmamışdı.

Atatürkün xəstəliyi təkrar şiddətləndi. 8 noyabrda sağlığıyla ilgili raporlar yayımlanmağa başlandı. Bütün məmləkəti təkrar dərin bir üzüntü bürüdü. Hər Türkün qəlbi onun qurtulması diləyi ilə çarpırdı. Ancaq qurtarılması üçün göstərilən çabalar sonuc vermədi və xalqın, vətənin qorxduğu oldu.

Dolmabağça Sarayında 10 noyabr 1938-ci il səhər saat doqquzdan beş dəqiqə keçmiş insan üçün dəyişməz qanun öz hökmünü göstərdi. Mustafa Kamal Atatürk cismən uğrunda son gücünə qədər çalışdığı xalqından ayrıldı.

Bu qara xəbərlə yalnız Türk milləti deyil, bütün dünya yasa büründü. Böyük, kiçik bütün dövlətlər onun cənazə törəninə qatılmaq üçün təmsilçilər göndərərək, Türkiyə Cümhuriyyətinin qurucusuna qarşı duyduqları dərin sayğını bildirən mesajlar göndərdilər. 16 noyabr günü Atatürkün tabutu Dolmabaxça Sarayının böyük törən salonunda katafalka qoyuldu. Üç gün üç gecə gözü yaşlı bir insan seli ulu öndərinə qarşı duyduğu sayğı, minnət və bağlılığını ifadə etdi. Cənazə namazı 19 noyabr günü Prof. Şərafəttin Yaltkaya tərəfindən qıldırıldı. On iki generalın çiynində sarayın çöl qapısına çıxarılan tabut, top arabasına qoyularaq İstanbul xalqının gözyaşları arasında Gülhanə Parkına götürüldü. Buradan bir "torpido" ilə Yavuz zirehlisinə qoyularaq Böyük Adanın  açıqlığına qədər donanmanın və törənə qatılmaq üçün gəlmiş olan xarici gəmilərin də müşayiət etdiyi Yavuz zirehlisi cənazəni İzmitə gətirdi. Burada Yavuz zirehlisindən alınan cənazə özəl bir qatara qoyuldu. Atalarına son sayğı görevlərini yerinə yetirmək üçün yollar uzunu toplanan, düzülən xalqın qəlbində dərin bir üzüntü buraxaraq Ankaraya gətirildi.

Atatürkün vəfatından sonra cümhurbaşqanı seçilən İsmət İnönü Türkiyə Böyük Millət Məclisi Başqanı, bakanlar, Genelkurmay Başqanı, millət vəkilləri ilə ordu və dövlətin rəhbərləri tərəfindən qarşılanan cənazə Türkiyə Böyük Millət Məclisi önündə hazırlanan katafalka qoyuldu. Ankara xalqı da onun cənazəsi önündən sayğıyla keçərək son borclarını verdilər. 21 noyabr 1938-ci ildə bazar ertəsi günü, mülki və əsgəri rəhbərliyin, xarici dövlət təmsilçilərinin hazır dayandığı və on minlərcə insanın qatıldığı böyük bir mərasim  keçirildi. Daha sonra Atatürkün tabutu katafalk-tabut aparan maşın üzərinə alınaraq Etnoqrafiya Muzeyində hazırlanan müvəqqəti qəbrə qoyuldu. Türk milləti daha sonra bu böyük insana layıq Ankara Rasattəpədə bir Anıtkabir ucaltdı. 10 noyabrda Etnoqrafiya Muzeyindən alınan Atatürkün nəşi Anıtkabirə gətirildi. Burada yurdun hər guşəsindən gətirilmiş olan vətən torpaqlarından  hazırlanan əbədi istirahətgahına yerləşdirildi.

**MƏMMƏD ƏMİN RƏSULZADƏNİN ATATÜRK BARƏSİNDƏ FİKİRLƏRİ:**



"Nə İngilis himayəsi, nə Amerika mandası altında deyil, o qurtuluşu yalnız hakimiyyəti milliyəyə müstənid, qeyd-şərtsiz müstəqil bir Türk dövləti təsis etməkdə görmüşdü. Onun diləyi : 'Ya ölüm, Ya istiqlal' idi. Anadoluya o bu diləklə keçdi, əfsanəvi İstiklal Hərbini başaran baş qəhrəman, Çanaqqala Zəfəri üzərinə, Sakarya və Dumlupınar kimi zəfər taclarıyla bəzəndi. Tarixin üç böyük imperatorluğunu dizləri altına alaraq istədikləri kimi parçalayan qaliblər, bir ovuc Anadolu mücahidləri qarşısında ricata məcbur qaldılar! "Başındakı komandanı qaçmadıqca, Türk nəfəri heç bir zaman qaçmaz" deyən böyük komandanın sözü doğru çıxdı. Ölüm beratı Sevr yırtıldı, istiqlal vəsiqəsi "Lozan" yazıldı. Atatürk, bir millətin xilasını yalnız özündəki qüvvətdən gözləmişdir. Bu fikir, onun gəncliyə xitabında məxsusi aydın bildirilmişdir. Muazzam əsərinin müdafiasini əmanət etdiyi Türk Gəncliyinə "Möhtac olduğun qüdrət damarlarındaki əsil qanda mövcuddur"- deyən ATATÜRKün Türk kəndlisi ilə nəfəri haqqındakı səmimi fikirləri məlumdur. Ona görə də, "Məmləkətin yeganə əfəndisi kəndlidir! Nə mutlu Türküm deyənə !"-bu ən çox təkrarladığı bir şüar idi."



**ATATÜRK VƏ NƏRİMANOV**

Azərbaycan Xalq Komissarları Sovetinin sədri N.Nərimanov 23 mart 1921-ci il tarixdə Atatürkə yazdığı məktubunda böyük səmimiyyət və hörmət hissi ilə etiraf edirdi: "Paşam, 1918-ci ildə siz bizi mütləq bir ölümdən qurtardınız!"

Qurtuluş savaşından zəfərlə çıxan Türkiyə ağır maliyyə böhranı keçirirdi. Atatürk 3 may 1920-ci ildə Şərq ordusu komandiri general Kazım Qarabəkirə göndərdiyi məktubda həmin əsil ürək kövrəldən ərklə, göz yaşardan qardaşlıq duyğusu ilə yazırdı: "Dövlətin pulu qalmadı. İndiki halda heç bir yerdən kömək istəməyə ümid də yoxdur. Başqa çıxış yolu tapana qədər Azərbaycan hökumətindən borc almağınızı rica edirəm".

Kazım Qarabəkir Atatürkün xahişini birbaşa Nəriman Nərimanova çatdırır. Nərimanov 19 avqust 1920-ci ildə Atatürkə cavab məktubu göndərərək belə yazır:

"…qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşın əlindən tutar. Biz qardaşıq və hər zaman əlinizdən tutacağıq…Müsəlman kommunistlər sizin istəyinizə çatmağınız üçün bütün gücləri ilə yanınızda olacaqlar. Siz məğlub olduğunuz təqdirdə nə sizin üçün, nə də digər Şərq xalqları üçün qurtuluş yolu qalmayacaq". ( Doğan Avçıoğlu "Milli qurtuluş tarixi", 2-ci cild, səhifə 430) "Cənab general, bizim Türk millətində qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşın əlindən tutar. Biz qardaşıq və hər zaman əlinizdən tutacağıq" ( A.Şəmsəddinov "Qurtuluş savaşı illərində Türkiyə-Sovet İttifaqı əlaqələri," səhifə 66).

Azərbaycan hökuməti çox keçmir ki, 500 kiloqram qızılı Türkiyəyə göndərir. Qardaş köməyi bununla bitmir. Nərimanov Rusiyadan aldığı 10

milyon qızıl rublu da Türkiyəyə ünvanlayır. 23 mart 1921-ci ildə isə Türkiyənin müraciətini gözləmədən Azərbaycan hökuməti hədiyyə kimi 30 sistern neft, 2 sistern benzin, 8 sistern yağ göndərir. Yardımların arası kəsilmir. Çox keçmir ki, 62 sistern neft də göndərilir.

Atatürk Azərbaycanın Türkiyə üçün önəmini çox yüksək dəyərləndirərək Bakıya bir səfir göndərir. Diplomat olmaqla yanaşı yaxşı bir yazıçı olan səfir Mehmet Şövkət Esendal Nəriman Nərimanovla və o dönəmin önəmli şəxsiyyətləri ilə görüşür. Hətta, Hacı Zeynalabdin Tağıyevin xanımını da ziyarət edir. Azərbaycan da ilk səfirini - İbrahim Əbilovu Ankaraya göndərir. İ. Əbilovun 1921-ci ilin oktyabr ayında Ankaraya gəlməsi böyük bir sevincə səbəb olur. Səfirlik binasını Atatürk açır və öz əlləri ilə Azərbaycan bayrağını yüksəldir. Bu Azərbaycan Sovet Sosialist Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında ilk rəsmi diplomatik əlaqənin qurulması demək idi.

Atatürkün ən yaxın adamlarından olmuş Dr.Riza Nurun xatirələrində yazır ki, İ. Əbilov sonralar Atatürkün ən inanılmış, etibarlı adamlarından biri olur.

1921-ci ildə Nərimanov xarici işlər naziri Mirzə Davud Hüseynovu yanına çağıraraq Atatürkə 1 və 2-ci İnönü döyüşlərində qazandığı zəfər münasibətilə bu məzmunda bir teleqram vurmağı tapşırır: “Qazanılan bu böyük zəfərlərdən dolayı Türk xalqını Azərbaycan Sovet Sosialist Respublikası adından təbrik edirik.”

Anadolu insanları Osmanlı Türklərinin Azərbaycana etdiyi yardımları yaxşı bilsələr də, Azərbaycanın Türkiyəyə etdikləri bu kimi köməkləri bilmirlər. Çanakkalada Azərbaycandan ürəyinin istəyi ilə gəlib Qurtuluş savaşına qatılmış 18 yaşlı İbrahimin məzarı durur. Osmanlı tabeliyindəki Balkanlarda başlayan savaşda Osmanlıya ilk dəstəyi verən Bakı aydınları olmuşdu. 1912-ci ildə İstanbulda çıxan “Səbilür-Rəşad” məcmuəsində Bakıdan bir qrup insanın göndərdiyi bəyanat dərc olunmuşdu: “Dindaşlar! Bilin və agah olun ki, yeganə ümidimiz və nicatımız Osmanlının istiqlal və tərəqqisindədir!”

“Heydər Əliyev və “Çağ” Öyrətim” kitabında (Bakı-2007, səh 21) ərəb əlifbası ilə yazılmış çox ibrətamiz, dəyərli, duyğulu bir arxiv sənədin fotokopyası və izahatı verilib: “Türkiyənin sabiq mədəniyyət və turizm naziri Namiq Kamal Zeybəkin Türkiyə Cümhuriyyəti Başbakanlığı arxivindən tapıb üzə çıxardığı aşağıdakı sənəddə bu ifadələr əksini tapmışdır:

***Türkiyə Cümhuriyyəti Baş naziri və xarici işlər naziri İsmət Paşa cənablarına!***

***Türk ordusunun Azərbaycanı azğın düşmənlərin caynağından xilas etdiyi, sevgili, gözəl İzmirimizin və bir sıra digər müqəddəs türk torpaqlarının qana susamış mənfur düşmənlər tərəfindən atəşə verilərək***

***işğal olunduğu bir zamanda türk yurdu Azərbaycan da ingilis əsgərləri tərəfindən işğal edilmişdi.***

***Bütün qəlblərin sızladığı, qan ağladığı bir məqamda Azərbaycanın fədakar övladları 23 mart 1920-ci il tarixində baharın gəlişi münasibətilə Anadolu gününə həsr olunmuş xüsusi yardım kampaniyası təşkil etmişdir.***

***Miqdar baxımından çox olmasa da, "Anadolu günü" yardım kampaniyasında bolşeviklərin işğalına məruz qalmış Azərbaycandan Anadoludakı qardaşlarımıza kömək məqsədilə 3 milyon rubl toplanmışdır.***

***Bakı Yardım Komitəsinin adından bank hesabınıza köçürülmüş 3000 ingilis funt sterlinqini qəbul etməklə yardım etmək istəyən vətəndaşlarımızın öz vicdanları qarşısında borcunu ödəməyə imkan verməniz rica edirik.***

***Azərbaycan maliyyə naziri, xeyriyyə cəmiyyətinin sədri Abdulvasi,***
***Bakı, 10 dekabr 1920-ci il"***

Atatürk 1921-ci ildə 3 nəfərlik bir heyət ayırıb Bakıya göndərir, Nərimanovla görüşdükdən sonra Moskvaya yola düşmələrini tapşırır. Nərimanov onlara dəyərli məsləhətlərini verir, Leninin xəstələnməyi səbəbi ilə onunla görüşə bilməsələr də, dövlətin 2-ci adamı Stalinlə mütləq görüşməyə nail olmalarını tövsiyə edir, hər şeyin onun əlində olduğunu bildirir, Stalinin adına bir məktub da yazıb verir. Behbud bəy Şahtaxtinskini də yadım üçün onlara qoşur. Dediyi kimi də olur, nümayəndələri Stalin qəbul edir, Atatürkün istəyi gerçəkləşir, Rusiya Türkiyəni 1-ci olaraq tanıyır, Qars müqaviləsinin şərtləri razılaşdırılır. Dr.Riza Nurun xatirələrində Azərbaycan oxucusu üçün maraqlı, yeni olan bir çox məqamlarla birlikdə bu epizod da diqqət çəkir: Türkiyəyə geri dönmək üçün Bakıya qayıdan nümayəndələrin vaqonuna 40 ədəd hədiyyə xalı qoyulur, ancaq onlar çətinliklə də olsa, bu hədiyyədən imtina edə bilirlər, səfirlikdə buraxıb gedirlər. Təbii ki, bu da bir qardaşlıq jesti-çətin maddi durumda olan Türkiyəyə kömək amacı idi.

Göründüyü kimi, Azərbaycanda milli hökumət yıxıldıqdan sonra belə, hələ Sovet Rusiyası öz məkrli niyyətlərini tam çılpaqlığı ilə büruzə verə bilmədiyi dövrlərdə Azərbaycan Türkiyə ilə əlaqələrini üzmədi. Kommunist də olsa, Nəriman Nərimanovun bu cəhətdən fəaliyyəti olduqca ibrətli və təqdirəlayiqdir, bütün ziddiyyətli, bir çox hallarda milli mənafelərimizə sağalmaz yaralar vurmuş addımları ilə birlikdə bu böyük ədibin adına yazılası ən xoş məramlı, işıqlı fəaliyyətlərdən biridir. Təbii ki, onun Bakıdan aralaşdırılaraq Moskvaya aparılıb zəhərlənib öldürülməsində bu amilin də təsiri olub. Rus imperiyası ölkə daxilində və beynəlxalq aləmdə mövqeyini gücləndirəndən sonra qanlı repressiyalar başladı, ilk hədəfdə isə Azərbaycanın milli düşüncəli türkçü insanları oldu, türk, Türkiyə adını dilə gətirmək belə yasaq oldu, Türkiyə ilə əlaqələrə tabu qoyuldu, artıq bütün məsələlər istisnasız olaraq Moskvanın əlində cəmləşdi, respublikaların müstəqilliyi anlayışı yalnız kağız üzərində qaldı.

**Əbülfəz Elçibəyin Atatürk və Türk Birliyi haqqında söylədiklərindən:**

Atatürkün Anıtqəbrində xatirə dəftərinə yalnız bu qısa cümləni yazmışdı:
**"Ey böyük Türkün böyük komutanı! Sizi ziyarət etməklə özüm və bütün millətim adına şərəf duydum. Sənin əsgərin (Əbülfəz Elçibəy)".**

Mustafa Kamalın böyüklüyü həm də onun türk millətinin ruhunu ən həssaslıqla duymasında və bu ruhun gücündən türkün qurtuluşu üçün yararlanmağı bacarmasındaydı. Ataturkədək hec bir sultan deməmişdi ki, ey turk, sənsən özünün xilaskarı! Ancaq o bəyan etdi ki, bir əfəndi var - o da türk xalqıdır, millətimizdir; bir haqqı qoruyan qüvvə var - o da millətin qüvvəsidir; hakimiyyət də qeyd-şərtsiz millətindir, möhtac olduğun qüdrət sənin öz qanındadır!

Türkiyə Azərbaycan və Orta Asiyanın başqa türk cümhuriyyətləri və xalqları üçün həyat qaynağı və yolgöstərən mayak oldu - ona baxaraq öz müstəqillikləri uğrunda mübarizə apardılar. Bu, Ataturkun TÜRK millətı qarşısında ən böyük xidmətiydi.

**Türkçülük ve Turançılık**

Türkçülükle Turancılığın farklarını anlamak için, Türk ve Turan

topluluklarının sınırlarını belirlemek gerekir. Türk, bir milletin adıdır. Millet, kendisine özel bir kültüre sahip olan topluluk demektir. O halde, Türk'ün yalnız bir dili, bir tek kültürü olabilir.

Oysa ki Türk'ün bazı kolları Anadolu Türklerinden ayrı bir dil, ayrı bir kültür yapmağa çalışıyorlar. Mesela, Kuzey Türkler'inden bir kısım gençler bir Tatar dili, bir Tatar kültürü oluşturmaya çalışmaktadırlar. bU hareket, Türklerin başka bir millet, olması sonucunu verecektir. Uzata bulunduğumuz için, Kırgızların ve Özbeklerin nasıl bir yol izleyeceklerini bilmiyoruz. Bunlarda birer ayrı dil ve edebiyat, birer ayrı kültür oluşturmaya çalışırlarsa, Türk milletinin sınırı daha daralmış olur. Yakıtlarla Altay Türkleri daha uzakta bulundukları için, bunları Türkiye Türkler'in bulundukları için, bunları Türkiye Türkleri'nin kültürü dairesine almak daha güç görünüyor.

Bugün kültürce birleşmesi kolay olan Türkler, özellikle Oğuz Türkleri yani Türkmenleredir. Türkiye gibi, Azerbaycan, İran, Harzem ülkelerinin Türkmenleri de Oğuz uyruğundandır. Bundan dolayı, Türkçülükteki yakın idealimiz (Oğuz Birliği) yahut, (Türkmen Birliği) olmalıdır. Bu birlikten amaç nedir? Siyasi bir birlik mi? Şimdilik, hayır! Gelecek hakkında bugünden bir yargıya varamayız. Fakat bu günkü idealimiz Oğuzların yalnız kültürce birleşmesidir.

Oğuz Türkleri, bugün dört ülkede yayılmış olmakla beraber, hepsi birbirine yakın akrabadırlar. Dört ülkedeki Türkmen illerinin adlarını karşılaştırırsak, görürüz ki, birinde bulunan bir ilin veya boyun diğerlerinde de dalları vardır.

Mesela, Harzem'de Tekeler'le Sarılar'ı ve Karakalpaklar'ı görüyoruz. Yurdumuzda Tekele, bir sancak teşkil edecek kadar çoktur; hatta, bir bölümü zamanında Rumeli'ye yerleştirilmiştir. Türkiye'deki Sarılar, özellikle Rumkale'de otururlar. Karakalpaklar ise, Karapapak ve Terekeme adaların alarak Sivas, Kars ve Azerbaycan yörelerindedir. Harzem'de Oğuz'un Salur ve maralı boylarıyla Çavda ve Göklen (Karluklardan Kealin) illeri vardır. Bu adlara Anadolu'nun çeşitli yerlerinde rastlanır. Göklen, kendi adanı Van'da bir köye Gök oğlan şeklinde vermiştir.

Oğuz'un Bayat ve Afşar boyları da gerek Türkiye'de gerek İran'da ve Azerbaycan'da vardır. Akkoyunlular ile Karakoyunlular bu üç ülkede yayılmışlardır. O halde Harzem, İran, Azerbaycan ve Türkiye ülkeleri, Türk etnografyası açısından aynı uruğun yurtalırdır. Bu dört ülkenin bütününe Oğuzistan (Oğuz ili) adanı verebiliriz. Türkçülüğün yakın hedefi, bu büyük ülkede yalnız bir tek kültürün hakim olmasıdır.

Oğuz Türkleri, genellikle oğuz Han'ın torunlarıdır. Oğuz Türkleri, birkaç yüzyıl öncesine gelinceye kadar, birbiriyle yakından ilgili bir aile biçiminde yaşarlardı. Mesela Fuzuli, bütün Oğuz boyları içinde bilinen bir Oğuz şairi idi. Korkut Ata Kitabı Oğuzlar'ın resmi Oğuznamesi olduğu gibi, Şah İsmail, Aşık Kerem, Köroğlu kitapları gibi hak eserleri bütün oğuz iline yayılmıştır.

Türkçülüğün uzak ideali ise, Turan'dır. Turan, kimilerinin sandığı gibi, Türklerden başka, Moğolları, Tunguzları, Finuvaları, Macarları da içine alan kavimler karması değildir. Bu zümreye bilim dilinde Uralo - Altay topluluğu denilir. Bununla beraber, bu sonuncu topluluğun içindeki kavimlerin dilleri arasında bir akrabalık bulunduğu da henüz ispat edilememiştir. Hatta bazı yazarlar Ural kavimleriyle Altay kavimlerinin bir birinden ayrı iki topluluk oluşturduğunu ve Türklerin Moğollar ve Tunguzlarla beraber Altay grubunu Finuvanlarla Macarların da Ural gurubunu oluşturduklarını iddia ediyorlar. Türklerin Moğollarla ve Tunguzlarla dil akrabalığı olduğu da henüz ispat edilmemiştir. Bugün bilim açısından tartışılmaz olan bir gerçek varsa, o da Türkçe konuşan Yakut, Kırgız, Özbek, Kıpçak, tatar, Oğuz gibi Türk boylarının dilce ve gelenekçe kavmi bir birliğe sahip olduğudur. Turan kelimesi, Türlar yani Türkler demek olduğu için, sadece Türkleri içine alan bir birliğin adıdır. O halde, Turan kelimesini bütün Türk boylarını kapsayan Büyük Türkistan'a karşılık kullanmamız gerekir. Çünkü Türk kelimesi, bugün, yalnız Türkiye Türkleri'ne verilen bir isim haline gelmiştir. Türkiye'deki Türk kültür dairesinde olanlar elbette yine bu adı alacaklardır. Benim inancıma göre bütün Oğuzlar, yakın bir zamanda bu isimde birleşeceklerdir. Fakat, Tatarlar, Özbekler, Kırgızlar ayrı kültürler oluştururlar ise ayrı milletler durumuna geleceklerinden yalnız kendi isimleriyle anılacaklardır. O zaman, bütün bu eski akrabaları kavmi bir topluluk halinde birleştiren müşterek bir isme gerek duyulacak, iste bu ortak isim Turan kelimesidir.

Türkçülerin uzak ülküsü Turan adı altında birleşen Oğuzları, tatarları, Kırgızları, Özbekleri, Yakutları, dilde, edebiyatta, kültürde birleştirmektir. Bu idealin bir gerçek haline geçmesi mümkün mü, yoksa değil mi? Yakın idealler için bu yön aranırsa da, uzak idealler için aranmaz. Çünkü uzat ideal ruhlardaki heyecanı sonsuz bir dereceye yükseltmek için, ulaşılmak istenilen, çok çekici bir hayaldir. Mesela, Lenin, Bolşeviklik için kayın ideal olarak "Kollektivizmi", uzak ideal şeklinde de "Komünizmin ne zaman uygulanacağını şimdiden kestirmek mümkün değildir. Bu Hazret-i Muhammed'in cenneti gibi, ne zaman ve nerede görüneceği bilinmeyen bir şeydi."

İşte, Turan ideali bunun gibidir. Yüz milyon Türk'ün bir millet halinde birleşmesi, Türkçüler için en güçlü bir heyecan kaynağıdır. Turan ülküsü olmasaydı, Türçülük bu kadar hızla yayılmayacaktı. Bununla beraber, kim bilir? Belki, gelecekte Turan idealinin gerçekleşmesi de mümkün olacaktır. Ülkü geleceğin yaratıcısıdır. Dün Türkler için hayali bir ülkü olan milli devlet, bugün Türkiye'de bir gerçek halini almıştır.

O halde Türkçülüğün, idealinin büyüklüğü noktasından, üç dereceye ayırabiliriz:

1) Türkiyecilik
2) Oğuzlar veya Türkmencilik
3) Turancılık,

Bugün, gerçekli sahasında, yalnız "Türkiyecilik" vardır. Fakat, ruhların büyük bir özleyişle aradığı Kızıl Elma, gerçeklik sahasında değil, hayal sahasındadır. Türk köylüsü, Kızıl Elma'yı hayal ederken, gözünün önüne eski Türk ilhanlıkları gelir. Gerçekten, Turan ülküsü geçmişte bir hayal değil, bir gerçekti. Milattan 210 sene önce Kun hükümdarı Mete Kunlar (Hunlar) adı altında bütün Etürkelir birleştirdiği zaman Turan ülküsü bir gerçek haline gelmişti. Hunlardan sonra Avarlar, Avarlardan sonra Göktürkler, Göktürklerden sonra Oğuzlar, bunlardan sonra Kırgız-Kazaklar, daha sonra Kur Han, Cengiz Han ve sonuncu olmak üzere Timurlenk Turan idealini gerçekleştirmediler mi?

Turan kelimesinin anlamı bu şekilde sınırlandırıldıktan sonra, artık Macarların, Finuvaların, Moğolların, Tunguzların Turan ile bir ilgilerinin kalmaması gerekir. Turan, Türklerin geçmişte ve belki de gelecekte bir gerçek olan büyük vatanıdır.
Turanlılar, yalnız Türkçe konuşan milletlerdir. Eğer Ural ve Altay ailesi gerekten varsa, bunun kendisine özel bir ismi olduğundan "Turan" adına ihtiyacı yoktur.

Bir de bazı Avrupalı yazalar, Batı Asya'da aslen Samilere veya Arilere mensup olmayan bütün kavimlere "Turani" adını veriyorlar. Bunların anacı bu kavimlerin Türklerle akraba olduğunu belirtmek değildi. Yalnız Samilerle Arilerden başka kavimler olduğunu anlatmak içindir.

Bundan başak, bazı yazarlar da, Şehname'ye göre "Tür" ile "İrec" in kardeş olduğuna bakarak, Turakh'ı eski İran'ın bir kısmı saymaktadırlar. Oysa ki,

Şehname'ye göre, Tür ile İrec'in üçüncü bir kardeşleri daha vardır ki adı "Selem" dir. "Selem" ise, İranlı bir boyun dedesi değil, bütün Samilerin müşterek atasıdır. O halde Feridun'un oğulları olan bu üç kardeş, Nuh'un oğulları gibi eski etnografik ayırımların adlarından doğmuştur. Bundan anlaşılıyor ki "Turan", İran'ın bir parçası değil, bütün Türk illerinin hepsini içine alan Türk topluluğundan ibarettir.

---

**Ziya Göyalp Şiirlerinden:**

**Turan**

Nabızlarımda vuran duygular ki tarihin
Birer derin sesidir, ben sahifelerde değil
Güzide, şanlı, necip ırkımın uzak ve yakın
Bütün zaferlerini kalbimin tanininde
Nabızlarımda okur, anlar, eylerim tebcil.

Sahifelerde değil, çünkü Atilla, Cengiz
Zaferle ırkımın tetviç eden bu nasiyeler,
O tozlu çerçevelerde, o iftira amiz
Muhit içinde görünmekte kirli, şermende;
Fakat şerefle numayan Sezar ve İskender!

Nabızlarımda evet, çünkü ilm için müphem
Kalan Oğuz Han'ı kalbim tanır tamamiyle
Damarlarımda yaşar şan-ü ihtişamiyle
Oğuz Han, işte budur gönlümü eden mülhem:

VATAN NE TÜRKİYEDİR TÜRKLERE, NE TÜRKİSTAN
VATAN, BÜYÜK VE MÜEBBET BİR ÜLKEDİR: TURAN!

**Türkçe**

Uydurma söz yapmayız,
Yapma yola sapmayız,
Türkçeleşmiş, Türkçedir;
Eski köke tapmayız.

Türklüğün vicdanı bir;
Dîni bir, vatanı bir;

Fakat hepsi ayrılır
Olmazsa lisanı bir.

**Cenk Türküsü**
Türk Oğullarına

Düşman yine öz yurduna el attı,
Mezarından ata'n kılıç uzattı,
Yürü diyor, hakkı zulüm kanattı,

Attilâ'nın oğlusun sen unutma!
Medeniyet deme, duymaz o sağır;
Taş üstünde taş kalmasın durma kır:
Kafalarla düz yol olsun her bayır,
Attilâ'nın oğlusun sen unutma!

Koş, Pilevne yine al bayrak taksın,
Gece gündüz Tuna suyu kan aksın,
Yaksın kahrın, bütün Balkan'ı yaksın;
Attilâ'nın oğlusun sen unutma!

**Altın Destan**
I
Sürüden koyunlar hep takım takım
Ayrılmış, sürüde kalmamış bakım;
Asmanın üzümü dağılmış; salkım
Olmak ister, fakat bağban nerede?
Gideyim, arayım: çoban nerede?
II
Yüce dağlar çökmüş, belleri kalmış,
Coşkun ırmakların selleri kalmış,
Hanlar yok meydanda, illeri kalmış,
Dü.enler çok ama, kalkan nerede?
Gideyim arayım: Hakan nerede?
III
Türk yurdu uykuda ey düşman sakın!
Uyuyan ülkeye yapılmaz akın.
Tan yeri ağardı, yiğitler kalkın.
Bakın yurd ne halde, vatan nerede?
Gideyim arayım: yatan nerede?
IV

Herkesin gözünde vatan öz yurdu,
Çitlerin yağısı, derenin kurdu,
Yad iller, Turan'da hanlıklar kurdu,
Turan'dan yadları koğan nerede?
Gideyim arayım: ogan nerede?

**Ali Kemale**

Ben Türküm! diyorsun, sen Türk değilsin!
Ve İslamım! diyorsun, değilsin İslam!
Ben, ne ırkım için senden vesika,
Ne de dinim için istedim ilam!

Türklüğe çalıştım sırf zevkim için,
Ummadım bu işten asla mükafat!
Bu yüzden bin türlü felaket çektim,
Hiç bir an esefle demedim: Heyhat!

Hatta ben olsaydım: Kürd, Arap, Çerkes;
İlk gayem olurdu Türk milliyeti
Çünkü Türk kuvvetli olursa, mutlak,
Kurtarır her İslam olan milleti!

Türk olsam olmasam ben Türk dostuyum,
Türk olsan olmasan sen Türk düşmanı!
Çünkü benim gayem Türkü yaşatmak,
Seninki öldürmek her yaşatanı!

Türklük, hem mefkurem, hem de kanımdır:
Sırtımdan alınmaz, çünkü kürk değil!
Türklük hadimine 'Türk değil! ' diyen
Soyca Türk olsa da 'piçtir', Türk değil!

**Asker Duası**

Elimde tüfenk, gönlümde iman,
Dileğim iki: Din ile vatan...
Ocağım ordu, büyüğüm Sultan,
Sultan'a imdâd eyle Yârabbi!
Ömrünü müzdâd eyle Yârabbi!

Yolumuz gaza, sonu şehâdet,
Dinimiz ister sıdk ile hizmet,
Anamız vatan, babamız millet,
Vatanı ma'mur eyle Yârabbi!
Milleti mesrur eyle Yârabbi!

Sancağım tevhid, bayrağım hilâl,
Birisi yeşil, ötekisi al,
İslâm'a acı, düşmandan öc al,
İslâm'ı âbâd eyle Yârabbi!
Düşmanı berbâd eyle Yârabbi!

Kumandan, zabit, babalarımız.
Çavuş, onbaşı, ağalarımız.
Sıra ve saygı, yasalarımız.
Orduyu düzgün eyle Yârabbi!
Sancağı üstün eyle Yârabbi!

Cenk meydanında nice koç yiğid,
Din ve yurd için oldular şehid,
Ocağı tütsün, sönmesin ümid,
Şehidi mahzun etme Yârabbi!
Soyunu zebun etme Yârabbi!

## 3-CÜ BÖLÜM

## ƏNVƏR PAŞA



**Mustafa Kamal Atatürk**: "Ənvər bir günəş kimi doğmuş, bir qürub ehtişamıyla batmışdır; arasını gəlin tarixə buraxaq".

**İsmət İnönü**: "Ənvər Paşa ihtilaldan öncə əxlaq, cəsarət və qəhrəmanlıq misalı olaraq tanınmışdır. Ənvər ən çətin qitələrdə hərbi xidmətləri tam və etimadla yerinə yetirmişdir. Ənvər Paşa şəxsi məziyyətləri ilə gözəl bir əsgər, zabit olaraq, cəmiyyətin qüsur olaraq bildiyi ünsürlərdən, insanın təsəvvür edəməyəcəyi qədər nəsibi olmayan bir şəxsdir".

**Zəki Vəlidi Togan**: "Ənvər Paşa son Türk tarixinin ən böyük şəxsiyyətlərindən biridir. Bu zat Türk və dünya siyasi həyatındakı yerini şübhəsiz ki təsadüfən, yaxud birisinin himayəsi ilə əldə etmədi."

**Ziya Nur**: "Ənvərin "Ravza-i Mutahhara"ya girişini canlandıran cümlələr tüklər ürpərdici bir inanc və ədəb yüksəkliyinin möhtəşəm tablosudur."

**Nağı bəy Şeyxzamanlı**: Biz Qafqaz türkləri iki qüvvəyə inanırıq-yuxarıda bir olan Böyük Allaha və aşağıda rəşadətli Ənvər Paşaya.”

**Adolf Hitler**: Birinci Dünya müharibəsində məğlubiyyətin günahı Kayzer Almaniyasının generallarının üzərindədir. Əfsus ki, Almaniyanın o illərdə Ənvər paşa kimi generalları yox idi.



## Təvəllüdü, ailəsi, ilk hərbi təhsili

İsmail Ənvər Paşa 22 noyabr 1881-ci ildə İstanbulun Divanyolu məhəlləsində doğulub (bəzi mənbələrdə 6 dekabr 1882-ci il göstərilsə də, bu təsdiqini tapmamışdır). Babası Manastırlı Hacı Əhməd Paşa, anası Ayşə xanımdır. Ailənin 6 uşağından ən böyüyüdür. Abadlaşdırma - Bayındırlık Bakanlığında məmurluqdan sivil paşalıq rütbəsinə yüksələn Hacı Əhməd Paşanın vəzifəsinin tələbi ilə Ənvərin uşaqlığı müxtəlif şəhərlərdə keçir. Zehni inkişaf səviyyəsi irəli olduğuna görə ibtidai təhsilinə 3 yaşında başlamışdır. İstanbulda oxuduqdan sonra 1894-cü ildə "Manastır Əsgəri Rüştiyəsi"ni, 1897-ci ildə İstanbuldakı "Soğukçeşmə Əsgəri İdadisi"ni tamamladı. Hərb məktəbini 1899-cu ildə piyada teğmeni-leytenant olaraq bitirdikdən sonra, 1902-ci ildə kurmay yüzbaşı olaraq Hərbi Akademiyadan zabit rütbəsi alaraq məzun oldu və Selanikdəki Üçüncü Orduya təyinat aldı. Manastır və Üsküpdə müxtəlif əsgəri vəzifələrdə çalışdıqdan sonra 1904-cü ildə onbaşı-kolağası, 1905-ci ildə yüzbaşı- kurmay, 1906-cı ildə minbaşı oldu. 1907-ci ilin oktyabrında Manastır civarında quldurluqla mübarizə (eşkiya takibi) vəzifəsinə irəli çəkildi. Bir illik fəaliyyəti zamanında Bulqar çetelərinə qarşı verdiyi mücadilələr onda milliyətçilik fikrinin oyanışında mühüm rol oynadı. Mərkəzi Parisdə yerləşən Gənc Türklər Hərəkatının Selanikdəki bir qolu olan Osmanlı Hürriyət Cəmiyyətinə (sonraki adı " İttihat və Tərəqqi Cəmiyyəti") qatıldı. Ona Cəmiyyətin Manastır şöbəsini qurmaq səlahiyyəti verildi.

## Hürriyət Qəhrəmanı

"İttihat və Tərəqqi"nin başlatdığı ihtilal hərəkətləri içində yer alan Ənvər Bəy Selanik Mərkəz Komandanı Kurmay Albay Nazım Bəyin öldürülməsindən sorumlu tutuldu və hərbi məhkəməyə verildi. Ancaq İstanbula getmək yerinə özünə bağlı birliklərlə Makedoniyada dağa çıxaraq Rəsnəli Niyazi Bəyə qatıldı; Ohrili Əyub Səbri Bəy də onun yolu ilə getdi. Bu hərəkət padşah II. Məşrutiyətin elan edilməsində önəmli rol oynadı. Dağa

çıxan subaylar arasında ən nüfuzlusu və önəmli fəaliyyətləri olduğu üçün Ənvər Bəy bir anda "*hürriyət qəhrəmanı*" olaraq qəbul edildi, İttihat və Tərəqqi Cəmiyyətinin əsgəri qanadının ən önəmli isimlərindən birisi oldu. Məşrutiyətin elanından sonra Ənvər Bəy Makedoniya Baş Müfəttişi və Berlin əsgəri ataşe vəzifələrində çalışdı.

**Berlin Əsgəri Ataşeliyi**

5 mart 1909-cu ildə Berlin Əsgəri Ataşe olaraq Ənvər Bəy Alman kültürü ilə tanış oldu və alman təsiri bütün mənalarda ömrünün sonunadək davam etdi. Bu təyinat Osmanlının Almaniya ilə birlikdə, ittifaqda 1-ci Dünya Savaşına girməsində də həlledici amillərdən biri oldu. İstanbulda 31 mart olayı başlayan kimi yurda döndü. Üsyanı yatırmaq üçün Selanikdən İstanbula getdi və Mahmut Şevket Paşanın komandanlığında orduya qatıldı. Üsyan yatırıldıqdan sonra II.Əbdülhəmid taxtdan endirildi, yerinə Mehmet Reşat keçdi. Qurulan İbrahim Hakkı Paşa kabinəsində Harbiyə Naziri vəzifəsi gözlənildiyi kimi Ənvər Bəyə deyil, Mahmut Şevket Paşaya verildi.

Ənvər Bəy üsyan yatırıldıqdan sonra təkrar Berlinə getdi. 1911-ci ildə İstanbula döndü və Sultan Mehmet Reşatın yeğeni-qardaşı qızı Naciyə Sultan ilə nişanlandı. Arnavutlukda çıxan üsyan üzərinə getdiyi İşkodrada üsyanın yatırılmasında əsas məsuliyyətli şəxs oldu. Daha sonra Berlinə keçdiysə də İtalyanların Trablusgarpa hücumları başlananda vətənə döndü.

**Trablusgarp Savaşı**

Trablusgarp (Trablis-qərb, Tripoli, Liviya) Savaşı kimi tarixdə məşhur olan döyüşlər 26 sentyabr 1911-18 oktyabr 1912-ci il arasında Osmanlı İmperatorluğu ilə İtaliya Krallığı arasında gedib. Adı "Trablusgarp Savaşı" olmasına rəğmən çarpışmalar Trablusgarpdan kənar Adriatik dənizi, Ege adaları, Çanakkala Boğazı və Ağ dəniz bölgələrində də sürmüşdür. Bu savaşı İtaliya digər böyük dövlətlərin və Balkan cəbhəsində Osmanlıya qarşı açılan savaşın sayəsində qazandı, Uşi müqaviləsi ilə başa çatdı, ancaq İtaliyaya olduqca baha başa gəldi-italyanlar 10 minə yaxın əsgər itirdi. Türklərlə ərəblərin itgisi 14 min civarında idi.

Savaşın səbəbi isə 1881-ci ildə Fransanın Tunisi işğalı, ardından da İngiltərənin 1882-ci ildə Misiri ələ keçirməsindən sonra İtaliyanın da Quzey Afrikada qalan son Osmanlı torpağı olan Trablusgarpa qarşı hücumlara başlamasıydı. İtalyanlara qarşı ən böyük zərbələri Ənvər Paşa, Mustafa Kamal Paşa, Neşet Paşa, Fuat (Bulca), Nuri (Conker) və Fethi (Okyar) kimi Osmanlı zabitlərinin gizli yollarla Trablusgarpa gəlib ( Mustafa Kamal Paşa buraya "qəzet müxbiri Şərif Bəy" adıyla Misir üzərindən keçmişdi) buradakı

qüvvələri yenidən təşkilatlandırıb İtalyanlara rahatlıq verməyən partizan hərəkatlarına başladılar. Ənvər o günlərdə bir ərəb qəzetinə verdiyi müsahibədə deyirdi: *"Buraya gəldiyimdə 900 çöl savaşçısı tapmışdım. İndi əlimin altında 16 min təlimli əsgər var"*. Ənvər bəyin ordusu qəfil həmlələrlə italyanlardan 2 pulemyot, 250 tüfəng, 2 top, saysız mərmi və digər sursat ələ keçirmişdi. Ənvərin başına pul qoyulmuşdu. 1912-ci ilin dekabrında italyanların 150 minlik əsgərinə qarşı Binqazidə 15 min, Trablusda da 10 min Osmanlı əsgəri savaşmaqdaydı. Osmanlı qoşunları bütün sərhədləri boyu savaşdaydı, bir yandan da Yəməndə üsyanlar qalxmağa başladı. İtalyan pilot Giulio Gavotti 1 noyabr 1911-ci ildə dünya tarixində ilk dəfə hərbi təyyarələrdən Osmanlı əsgərlərinin üzərinə bomba tökməklə hava hücumlarını gerçəkləşdirdi, 22 savaş uçağı qarşılığında Osmanlının bir dənə də uçağı yox idi. Üstəgəl 40 uzaqvuran top, döyüş gəmiləri də Osmanlı əsgərlərinə qarşı döyüşürdü, dəniz, boğazları, Oniki Ada, Rodos adalarına qədər Avropa gəmiləri tutmuşdu. Minbaşı Ənvər Paşa komandanlığındakı Osmanlı qüvvətləri döyüşərək, ağır itkilər verib İstanbuldan gələn təlimatla geri çəkilmək zorunda qaldılar. 8 oktyabrda Qaradağın Osmanlı Dövlətinə savaş elan etməsi ilə Balkan Savaşları başladı, Osmanlı Dövləti İtaliyanın şərtlərinə razı olmaq məcburiyyətində qaldı, Trablusgarp və Bingazidəki əsgərlər çıxarıldı, buralar İtaliyaya verildi, ancaq andlaşmada Osmanlı İmperatorluğunun Trablusqarpdakı müsəlmanların haqlarını qoruması, Oniki Adanı Osmanlıya qaytarması da yer aldı. Həmin adalar 1947-ci ildə Paris Andlaşması ilə Yunanıstana verildi.

Liviyada italyanlara qarşı bir partizan-gerilla döyüşü aparılması fikrini İttihat və Tərəqqi Cəmiyyəti üzvlərinə də, hərbi komandanlığa da Ənvər bəy qəbul etdirə bilmişdi, bu hərəkatın da önündə tamam işğal edilmiş Osmanlının dağıntıları üzərində 5 il sonra Türkiyə Cümhuriyyətini quran zabit –gələcəyin Atatürkü Mustafa Kamalla yanaşı osmanlının son Hərbi naziri Ənvər özü gedirdi. İtalyan qüvvələrinə qarşı verdiyi başarılı mücadilə nədəniylə bir illik Afrika mübarizəsinin sonunda 1912-ci ildə podpolkovnik rütbəsinə - yarbaylığa yüksəldi. Ənvərin çalışmaları "Liviyaya Ənvər Xızır kimi hər kəsdən öncə yetişdi, ən böyük işi o gördü. Yoxdan bir ordu təşkil edərək böyük və şanlı türk millətinin namus və şərəfini bütün cahana tanıtdı. Milyonlarca ərəbin qəlbində Paşalıq ünvanını aldı"- ərəb tarixçiləri belə yazırdılar. İstiqlal şairi İttihatçı Mehmet Akif də o günlərdə Misirdə Osmanlı əsgərləri ilə bir sırada döyüşürdü. Nə yazıqlar ki, biz Qarabağ uğrunda savaşı belə ümummilli mücadiləyə çevirə bilmədik, nəinki millətin düşünən başları, görən gözləri olmalı yazarlarımız, şairlərimiz, heç rütbəli ordu komandanlarımız da bir dəfə də olsun hər hansı bir döyüşdə irəlidə görünmədi. Ən başlıcası da düşmənin ən çox qorxduğu və bizdən gözlədiyi partizan müharibəsi apara bilmədik.

**Babıali Basqını**

8 oktyabr 1912-ci ildə Balkan Savaşı başladı və Osmanlı Ordusu xeyli torpaq itirdi. Bu vəziyyətlə barışmaq istəməyən, Hökumətdən narazı qalan zabitlər başda Ənvər Paşa, Talat Paşa, Filibeli Hilmi, Sapancalı Hakkı, Mithat Şükrü Bleda, Yakup Cemil, Mustafa Necip, Kara Kemal, Doktor Nazım, İzmitli Mümtaz, Silahçı Tahsin, Samuel Israel və Ömər Naci olmaqla Hökumətə qarşı çevriliş planladılar. 23 dekabr 1913-cü ildə Ənvər Paşa, Tələt Paşa və İttihatçı fədailərdən Yakub Cemilin başçılığı ilə Hökumət kabinəsinin iclasının keçirildiyi Babıaliyə girdilər. Yol boyunca toplanan xalqın da qatılımı ilə minlərlə insan əllərində bayraqlarla təkbir gətirən qələbəlik bir yürüşçülər də onları müşayiət edirdi. Müqavimət göstərmək istəyənlərdən və ittihatçılardan 5 nəfər öldü. Ənvər Paşa Sadrazam Kıbrıslı Mehmet Kamil Paşanın məqamına zorla girib onu istefaya məcbur etdi. Padişah V. Mehmet (Reşad) İttihatçıların istəyi üzərinə Mahmut Şevket Paşaya kabinə qurmaq səlahiyyəti verdi. Beləcə İttihat və Tərəqqi Cəmiyyəti əsgəri çevrilişlə iqtidarı ələ keçirmiş oldu.

**Birinci Balkan Savaşı**

30 may 1913-cü ilə qədər davam etdi. Bolqarıstan Krallığı, Serbistan Krallığı, Yunanıstan Krallığı və Qaradağ Krallığından ibarət Balkan Birliyinin Avropa dövlətlərindən hər cür yardım alan 706 min nəfərlik qoşunları Osmanlı Dövlətinə qarşı savaşa girdi. Bu savaş ilə Balkanlardakı bir çox torpaqlar Ədirnə və Qırxlarelinə qədər Osmanlının əlindən çıxdı. Osmanlı 167.312 $km^2$lik sahə itirdi. Bu ərazilərdə 6.582.000 əhali vardı.

Ənvər Bəy acı məğlubiyyətlərdən sonra tamam ruhdan düşmüş ordunun yenidən qurulması üçün çox böyük işlər gördü. Yaratdığı, qısa zamanda təlim keçdiyi milli ruhlu gənclərin başında duraraq Ədirnəni azad etdi, müttəfiqləri xeyli geri oturtdu. Bununla nüfuzunu artıran Ənvər Bəy "*Ədirnə Fatihi*" ünvanını aldı. Rütbəsi polkovnikə- albaylığa (18 dekabr 1913), qısa bir sürə sonra generallığa (5 dekabr 1914) yüksəldi. Ardınca da istefa etdirilən Hərbiyə Naziri Əhməd İzzət Paşanın yerinə Hərbiyə Naziri oldu.

**Hərbi Nazir**

Hərbiyə Naziri olduqdan sonra orduda bəzi düzənləmələr edən Ənvər Paşa Fransız modeli yerinə Alman stilini tətbiq etdi, bir çox Alman zabiti Türk ordusunda məsləhətçi gətirildi. Yaşlı zabitlərin çoxunun işinə son verdi,

ordunun gəncləşməsini təmin etdi, uniformalar dəyişdirildi. Mahmut Şevket Paşanın sui-qəsd sonucu öldürülməsindən sonra qurulan Said Halim Paşa kabinəsində və onun vəzifədən çəkilməsindən sonra 1917-ci ildə qurulan Talat Paşa kabinəsində də Ənvər Paşanın Hərbiyə Nazirliyi 14 oktyabr 1918-ci ilə qədər davam etdi.

### "Enveriyə" adı dillər əzbəriydi

O, Osmanlı İmperatorluğunun son beş ilinə damğasını vurdu, dönəmin hadisələrinə təsir gücünə görə 1-ci şəxs oldu. Almanlar Osmanlı imperatorluğunu onun adı ilə "Enverland" adlandırırdı. Sait və samit səslərin ayrı-ayrı yazılmasını reallaşdıran, orduda oxuyub yazmaq bacaranların sayının xeyli artmasına imkan yaradan "Ənvəriyə yazısı", eləcə də gənclərin kumirinə çevrilən "Ənvəriyə bığı", "Ənvəriyə qalpağı" Osmanlının son illərində moda düşüb dillər əzbəri oldu. Kimilərinin Osmanlı İmperatorluğunu gərəksiz yerə Birinci Dünya Savaşına cəlb edib parçalanmasına yol açmaqla suçladığı Ənvər Paşa, digərlərin düşüncəsinə görə bir yurdsevər, böyük bir əsgər, komandan və dövlət adamı olaraq qəbul edilir.

### Padşah damadı

5 mart 1914-cü ildə Osmanlı Padşahı Əbdülməcidin nəvəsi-Şahzadə Süleymanın qızı, Sultan Mehmet Reşatın qardaşı qızı Naciyə Sultanla evlənib həm də Padşah damadı -"*Damad-ı Şəhriyar-i*" oldu. Sarayın istəklisinə, ən etibarlı adamına çevrildi. Hətta, bundan sonra da ona gələn sevgi məktublarının arası kəsilmirdi. Berlində hərbi attaşe olarkən xanımlar hətta rəsmi törənlərdə belə fürsət tapıb elə ərlərinin yanındaca ona görüşə dəvət, sevgi məktubları təqdim edirdi, az qala yalvarışla "məni ara" deyirdilər. Özünün məktubları da bənzərsiz ömrün lirik-emosional səhifələridir. Onun özəl yaşamı dillər əzbəri idi, yaraşığı ilə türk, alman, rus xanımlarının yuxusunu ərşə qaldırır, neçələrinin əlçatmaz sevgisinə çevrilirdi. Cəmi 42 il yaşadı və tam 10 il şəxsi həyatında da, mücadiləsində də hüzünlü, faciəli olduğu qədər də maraqlı, romantik ömür sürdü. Bütün bunlarla birlikdə özəlliklə də böyük bir eşqlə bağlıydı. Məktublarını da *"Naciyə, gözəl mələk*!" kimi sözlərlə başlar və duyğulu sözlərlə bitirərdi".

### I Dünya Savaşına Giriş

Hərbiyə Naziri Ənvər Paşa 2 avqust 1914-cü ildə Rusiyaya qarşı gizli bir Türk-Alman ittifaq anlaşması imzalanmasında önəmli rol oynadı. 10

avqusda Boğazlardan girməsinə izin verilən iki Alman kruvazörünün 29 noyabrda Rus çarlığı liman və gəmilərinə saldırması üçün gərəkli qərarı verdi. 14 oktyabrda Fatih Camisində oxunan "Cihad-ı Əkbər" elanı ilə dövlət rəsmən I. Dünya Savaşına qatılmış oldu. Ətrafına Camal Paşa və Tələt Paşa kimi vətənsevər insanları toplayan Ənvər Paşanın əsas məqsədi Osmanlının 1878-ci ildə Berlin sazişi ilə itirilmiş torpaqlarını geri almaq idi. Bu ideyanı reallaşdırmaq üçün Osmanlı dövlətini Birinci Cahan Savaşına cəlb edən Ənvər Paşanın savaşın ilk illərində hazırladığı Sarıqamış əməliyyatı uğursuzluqla nəticələnir.

### Sarıkamış Hərəkatı

Ənvər Paşa ölkə 1-ci Dünya Savaşına girdikdən sonra Hərbiyə Naziri olaraq əsgəri hərəkatın idarəsini əlinə aldı. 3-cü Ordunun Doğu Cəbhəsində Rus qüvvələrinə qarşı girişdiyi Sarıkamış Qış Hərəkatının komandanlığını qəbul etdi. Dekabr 1915-ci ildə gerçəkləşən hərəkatda Türk birlikləri tam bir fəlakətə uğradı. Ənvər Paşa ordunun komandanlığını Hakkı Hafız Paşaya təhvil verib İstanbula döndü və savaş boyunca başqa heç bir cəbhədə komandanlıq etmədi. Uzun bir sürə İstanbul mətbuatında Sarıkamış haqqında hər hansı bir xəbər və ya yayına izin verilmədi. 26 aprel 1915-ci ildə Hərbiyə Naziri ilə yanaşı "Başkomutan Vəkili" olan Ənvər Paşa həmin ildə korgenerallığa yüksəldi.

## Türk Gizli Örgütünün Qurucusu

Osmanlı İmperatorluğunun son on ilinə imza atan örgüt olan "Teşkilat-ı Mahsusa" 1914-cü ildə Ənvər Paşanın əmriylə "İttihat və Tərəqqi"nin seçkin isimləri tərəfindən quruldu, "Meşrutiyet'in elanında önəmli bir rol oynamaqla qalmadı, İtalyanlar tərəfindən işğal edilən Liviyada, daha sonra Balkanlarda, Birinci Dünya Savaşında və "Kuva-yı Milliye"də mühüm rol oynadı, inanılmaz bir dirəniş və qəhrəmanlıq örnəyi sərgilədi. Özəl Təşkilat 1913-dəki Babıali Baskınında da önəmli rol oynadı. "İttihat və Tərəqqi"nin iqtidar olmasıyla rəsmiləşən və uluslararası qurum xarakteri qazanan Təşkilat Hindistandan Afrikaya, Orta Doğudan Balkanlara, Ərəb yarımadasıdan Orta Asiyaya uzanan İslam dünyasını Osmanlı ətrafında birləşdirməyi qarşısına məqsəd qoymuşdu. Təşkilat təkcə bir gizli servis, ajan-agentlər topluluğu deyildi. Onlar bir məqsəd, amal ətrafında bir araya gələn, güçlərini və yetənəklərini bu çərçivədə birləşdirən idealistlərdi. Onların tək qayəsi imperatorluğu ayaqda tutmaqdı, hansı etnik kökənə, dinə mənsub olursa olsun, imperatorluq sınırları içində hər kəsə yer vardı. Müstəmləkə-

sömürgə altında yaşayan müsəlman xalqlar öz istiqlallarını qazanmalı və qardaş ölkələrlə dayanışma içində olmalıydı.

Gizli Təşkilatın xərcləri Hərbi Nəzarət qurumundan və örtülü ödənəkdən qarşılanırdı.

## Təhcir (köçürmə) Qanunu

1877-1878-ci illərdəki 93 Hərbi sırasında da yerli ermənilərin Osmanlıya qarşı işğalçı Rus ordularının yanında çarpışdığını və cəbhə gerisində üsyanlar çıxartdığını bilən Ənvər Paşa daxili işlər naziri -“Dahiliyə Nazırı” Talat Paşa ilə birlikdə “Ermeni Tercihi”deyilən qərarı alaraq Doğu Anadoludakı ermənilərin Suriya vilayətinə köçürülməsinə qərar verdi. Təhcir Qanunu deyə bilinən-ermənilərin ruslarla savaş bölgələrindən köçürülməsini nəzərdə tutan yasa 27 may 1915-ci ildə qəbul edildi.

1917-ci ildə “Kut ül-Amarə”də ingilis generalı Tavnshendin dustaq alınması və Qafqaz cəbhəsində ruslara qarşı əldə edilən başarılara görə Ənvər Paşanın rütbəsi orgenerallığa yüksəldildi.

## Osmanlı Dövləti Azərbaycanın yeganə ümid yeri idi

Çar Rusiyasında baş verən inqilabi dəyişmələr Qafqazda da öz təsirini göstərdi; 1917-ci ilin noyabrında Zaqafqaziyadakı siyasi təşkilatlar bir araya gələrək Tiflisdə Zaqafqaziya komissarlığını və Hökumətini qurdular, tərkibini elan etdilər, ardınca da 18-ci ilin fevralında qanunverici orqanı-Zaqafqaziya Seymini yaratdılar. Azərbaycan fraksiyası Seymdə 44 deputatla təmsil olunurdu. Lakin Rusiyanın təxribatçı təhrikləri, diqtəsi ilə hərəkət edən ermənilərin xəyanətkar pozuculuq fəaliyyəti sayəsində Qafqaz xalqlarının birlik və sülh, huzur içərisində gələcək yaşam, inkişafına işıqlı yol açan nadir tarixi fürsət sonucsuz qaldı. Bütün mahiyyəti ilə antitürk, antimüsəlman xarakterli “Bakı Soveti” adlanan bədnam hökumətin təşkil etdiyi rus- erməni silahlı quldur dəstələri 20 minədək günahsız müsəlmanı amansızlıqla qətlə yetirdilər. Bakı işğal edilərək Azərbaycanın digər ərazilərindən təcrid edildi. Seym fəaliyyətini dayandırdıqdan sonra Almaniya tərəfindən şirnikləndirilən gürcülərdən və Qafqazda (həm də Anadoluda) açıq-aydın Rusiyanın əlaltısına, zərbə qüvvəsinə çevrilmiş ermənilərdən sonra Azərbaycan nümayəndələri də Azərbaycan Müvəqqəti Milli Şurasını yaratdılar, Azərbaycanı müstəqil dövlət elan edən 6 maddəlik “İstiqlal bəyannaməsi”ni qəbul etdilər. Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk iclasda Osmanlı dövlətindən yardım istəmək və bunun üçün danışıqlar aparan nümayəndələr ayrılması qərara alındı. 18-ci il iyunun 4-də AXC Hökuməti ilə Osmanlı imperatorluğu hökuməti arasında dostluq müqaviləsi imzalandı. Bu həm də AXC adından

imzalanan ilk rəsmi sənəd idi. Həmin müqavilənin 1-ci maddəsində yazılmışdı: “Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında daimi sülh və dostluq olacaqdır”. Osmanlı hökuməti ehtiyac olduğu təqdirdə Azərbaycana hərbi yardım göstərməyi də öz üzərinə götürürdü. (4-cü maddə).

Bu müqavilənin bütün ruhu səmimi qardaşlıq duyğuları üzərində köklənib-iki dövlət üçün həm də əhd-peyman, vəfa, sədaqət andlaşması oldu.

Osmanlı hökuməti hətta, bu müqavilədən əvvəl də ilk növbədə Azərbaycan türklərinə arxa, dayaq olmaq məqsədilə və onlara arxalanaraq Rusiyadakı oktyabr inqilabından dərhal sonra Qafqazda möhkəmlənməyi özünün dövlət siyasətinə çevirdi. Təbii ki, burada həm Anadolu, həm də Qafqazdakı milli düşüncəli, türkçü, milliyətçi ziyalıların böyük rolu vardı. Qafqaz və Orta Asiyadakı türk-müsəlman xalqlarının azadlıq mücadiləsinə Osmanlı hökumətində xüsusi önəm verən, önündə gedən, bu yolda məxsusi çabalar göstərən, sarayda, orduda və milliyətçi dairələrdə böyük nüfuz sahibi olan Ənvər Paşa idi.

## Azərbaycan sevdalısı

Ənvər Paşanın əsas məqsədi, ən böyük arzusu Türkiyə nizami qoşunlarının köməyi ilə Təbrizdən Dağıstana, Tehrandan Türküstana qədər olan bütün əraziləri nəzarət altına almaq, onları yadelli işğalçıların əlindən qoparmaq, imkan daxilində bu yerlərdə milli hökumətlərin yaradılması üçün ictimai-siyasi zəminə nail olmaqdan ibarət idi. O, həm də Avropa və Afrikada itirdiklərinin əvəzini qismən də olsa, Qafqaz və Orta Asiyada qazanmaq istəyirdi. Hətta, Osmanlının yeganə hərbi-siyasi müttəfiqi Almaniyanın belə Ənvər Paşanı Bakıya hərbi yardım göndərməkdən çəkindirmək istəməsi belə nəticəsiz qalmışdı. Almaniya hökuməti dəfələrlə ona bu barədə israrlı məktublar, mesajlar göndərsə də, Ənvər Paşa Azərbaycana qoşun göndərmək fikrindən daşınmadı. Ənvər paşa Almaniyanın hirsini yatırmaq üçün Sədrəzəm Tələt Paşanı Berlinə göndərmişdi.

Onun Turan sevdası, Ümumtürk birliyi amalı həm də nəsil-kök şəcərəsindən irəli gəlirdi. Çünki Ənvər və Nuru Paşaların ulu əcdadları Krım türklərindən olmuşlar.

Ənvər Paşa yeni Hökumətin qurulması, özünün də kabinetdən-Hərbi nazirlikdən çıxması səbəbi ilə ölkədən ayrılmaq məcburiyyətində qalır, ancaq ayrılmazdan öncə Sədrəzəm Ahmed İzzet Paşaya yazdığı son məktubunda “Qafqaza gedərək Azərbaycanda müstəqil bir Türk hökuməti qurmağa çalışacağını” bildirir.

Ənvər paşanın Azərbaycanı nə qədər içdən sevdiyi bu teleqram, sənədlərdə də görünür. Bakının azad olunması ilə əlaqədar Osmanı

Türkiyəsinin hərbi naziri Ənvər Paşa Xəlil və Nuru Paşalara göndərdiyi təbrik teleqramında deyirdi: **“Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin azad edilməsi xəbərini böyük bir sevinc və məmnunluqla qarşıladım. Türk və islam tarixi bu xidmətləri unutmayacaqdır. Qazilərimizin gözündən öpər, şəhidlərimizə fatihələr ithaf edirəm”.**

Ənvər paşa Şərq Orduları Qrupu Komandanı Xəlil paşaya da şəxsi bir təbrik teleqramı göndərdi. Ənvər paşa, teleqramda bir tərəfdən Xəlil paşanın şəxsində qəhrəman türk əsgərini təbrik edir, digər tərəfdən də Qafqaz İslam Ordusuna yeni tapşırıqlar verir, hədəfləri müəyyən edirdi:

**"Bakı uğuru münasibəti ilə gözlərindən öpərək təbrik edirəm. Bakını azad edən birliklər bir az dincəldikdən sonra, Azərbaycanda hələlik bir diviziya saxlanaraq, qalanını 9-cu Orduya geri almaq fikrindəyəm. Şimali Qafqazda sürətlə Dərbənd, Temirxan-Şura, Mahaçqala və sairəni işğal və oralara gedən kadrlara əsas olmaq şərti ilə dolğun heyətli yaxşı bir alay, qüvvətli topçu, hətta iki qaubitsa topu da verərək və çoxsaylı pulemyotlarla da təchiz edərək, vahid bir dəstə halında şimala hərəkət etməsini Nuru paşaya yazdım. Ayrıca Ənzəli və Rəştin də tezliklə geriyə alınması üçün qüvvənin münasib bir dəstəsinin Xəzər dənizi sahillərini təmizləyərək, cənuba göndərilməsini və bu surətlə Təbriz - Qəzvin istiqamətində irəliləyən dəstə ilə Kiçikxana yardım edilməsini və bu məqsədlə sizinlə görüşməsini də bildirdim. Sürətlə hərəkəti rica edirəm".**

“Ənvər Paşa” marşı o zamanlar Azərbaycanda 7-dən 77-yə hamının dilinin əzbəriydi:

Xoş gəlişlər ola Qəhrəman Ənvər Paşa,
Əmr elə Əsgərə, Qafqaz dağların aşa,
Arş, arş, arş irəli!
Marş, marş, marş irəli,
Dönməz geri Türkün Əsgəri!

Cəbhədə mitralyoz ayna kimi parlayır,
Qafqasya Türkləri bayraq açıb bəkləyir.
Arş, arş, arş irəli!
Marş, marş, marş irəli,
Dönməz geri Türkün Əsgəri!

Türk əsgərinin Azərbaycanın köməyinə gəlməsinin və Bakının işğaldan azad edilməsinin daşıdığı mənanı Məmməd Əmin Rəsulzadə 15 sentyabrın birinci ildönümü münasibətilə yazdığı bir məqalədə belə dəyərləndirirdi:

**"Türk ordusunun, Azərbaycan və Bakı üzərinə hər hansı bir müdaxiləsi və işğalından danışmaq mümkün deyildir. Çünki Ənvər paşa Türk əsgərinin Azərbaycanda qala bilməsi üçün lazım olan xərcləri ödəmək üçün Osmanlı Dövləti büdcəsindən ayda 50.000 lirə pul vəsaiti ayrılmasını tələb etmişdir. Üstəlik, Azərbaycan hökumətindən, mümkün olan ən qısa müddətdə milli ordu qurmalarını rica etmişdir. İstilaçı bir dövlət, müstəmləkəsinə qətiyyən borc pul verməz və milli ordu qurulmasını da istəməz. Əgər Türk Ordusu işğalçı olsaydı, Azərbaycan, xüsusilə də Bakı əhalisi, hansı əsasla Sentrokaspi Diktaturası və ingilislərdən şəhəri qurtarmaq uğrunda şəhid olan Türk əsgərlərinin xatirəsinə abidə ucaltmaq üçün özləri öz aralarında pul toplayardı?" ("Azərbaycan" qəzeti. 15 sentyabr 1919-cu il)**

## Yurd dışında

Fələstin, İraq və Suriyada Osmanlı Ordusunun ingilislər qarşısında məğlubiyyətə uğramasından sonra Osmanlı Dövlətinin savaşdakı məğlubiyyəti aydın göründü. 14 oktyabr 1918-ci ildə Talat Paşa kabinəsi atəşkəs anlaşmalarını asanlaşdırmaq üçün istefa etdiyində Ənvər Paşanın hərbiyə naziri vəzifəsi də sona yetdi. İngilislərin İttihat və Tərəqqi üzvləri haqqında yaxalama əmri çıxarmasından sonra partiya yoldaşları ilə birlikdə bir Alman torpidosu ilə Anadoludan ayrıldı. Ənvər Paşanın I Dünya savaşı sırasında ən böyük uğurlarından biri  Qafqaz cəbhəsində olmuşdur. O artıq bütün rəsmi vəzifələrini itirdikdən ölkədən ayrılmadan öncə Sədrəzəm Əhməd İzzət Paşaya yazdığı məktubda  da  Azərbaycanda müstəqil bir Türk hökuməti qurmağa çalışacağını vurğulamışdı. Krımda Berlinə gedən dostlarından ayrılaraq bu məqsədlə əmisi Xəlil  Paşa və qardaşı Nuru Bəyin tabeliyindəki Qafqazdakı ordu birliklərinə yetişmək üçün çalışır, ancaq qayalara çırpılan qayığın batması nəticəsində bu cəhdi baş tutmur. Özünün rütbələrinin geri alındığını və qiyabi ölüm cəzasına məhkum edildiyini, Anadoluda xeyli silahdaşının da tutulmasını öyrənincə Berlinə gedir.

## Vətəndən uzaqda "İttihat və Tərəqqi"ni təşkilatlandırma çalışmaları

1918-ci ilin dekabrında ailəliklə Türkiyəni tərk edən Ənvər Paşa 19-cu ilin qış aylarını kimliyini gizlədərək Berlinə geçən Ənvər Paşa "İttihat və Tərəqqi"ni yenidən təşkilatlandırma çalışmalarına başladı. 1920-ci ildə Moskvaya getməyi bacardı və orada SSRİ Xarici İşlər naziri Çiçerinlə, Leninlə görüşdü. 1-8 sentyabr 1920-ci ildə Bakıda gerçəkləşən Şərq Xalqları Konqresinə Liviya, Tunis, Əlcəzair və Fələstini təmsil etməklə qatıldı. Ancaq

konqres önəmli sonuçlar gətirmədi. Sovetlərin Türkiyə və başqa müsəlman ölkələrdəki milliyətçi hərəkatları gerçəkdən dəstəkləmədiyini aydın başa düşən Ənvər Paşa oktyabr 1920-ci ildə Berlinə döndü. 15 mart 1921-ci ildə Talat Paşanın ermənilər tərəfindən öldürülməsindən sonra faktiki olaraq "İttihat və Tərəqqi"nin birinci rəhbəri oldu.

### Rusiyanın Ənvər Paşadan, Ənvər Paşanın Rusiyadan istəyi

Ənvərin Berlində həbsdə saxlanılan məşhur boşevik Karl Radeklə görüşü təşkil edilir. Bu tanışlığın nəticəsi olaraq az sonra həbsdən azad edilən Radeklə birlikdə Moskvaya gəlirlər. Moskvada Çiçerin, Zinonyev və Leninlə görüşürlər, Ənvər Paşa Sovet-Alman münasibətlərinin nizamlanması üçün səlahiyyət, vəzifə alır. Əlbəttə, bu etimad ona görəydi ki, sovet rəhbərləri Ənvər Paşanın Almaniya rəsmiləri ilə yaxınlığını bilirdi və bundan istifadə etmək istəyirdi. Müharibədən məğlub çıxmış Almaniya ilə müttəfiq olub digər ölkələrə qarşı birləşmək məqsədinə çatmağı nəzərdə tuturdu. Lenin həm də yaxşı bilirdi ki, Ənvər Paşanın türk xalqları arasında və Yaxın Şərqdə böyük nüfuzu var, ondan yaralanıb bu regionu öz təsiri altına almaq niyyəti güdürdü.

Ənvər Paşanın 1-8 sentyabr 1920-ci ildə Bakıda keçirilən Şərq Xalqları Konqresində Liviya, Tunis, Əlcəzair və Mərakeşin təmsilçisi kimi iştirakı və burada çıxış etməsi elə bu məqsədi daşıyırdı. Digər tərəfdən hər zaman Türkiyəyə, Anadolu torpaqlarına qarşı məxsusi hərisliklə baxan Rusiya Osmanlı xarabalıqları üzərində qurulan yeni Türkiyə Cümhuriyyətinin qısa zamanda qazandığı uğurları həzm edə bilmirdi. Rusiya rəhbərliyi gələcəkdə çoxlu tərəfdarları, nüfuzu olan Ənvər Paşadan Mustafa Kamal hərəkatına qarşı da istifadə etməyi planlaşdırırdı. Ona görə bu məqsədlə "İttihad və Tərəqqi"yə silah, pul yardımı, hətta gərəkirsə Batumdan, digər sərhəd bölgələrindən hərbi müdaxiləyə də dəstək verilməsinə də hazır idi. Ənvər Paşa Lenin və Çiçerinin əsl niyyətini anlayır, sovetlərin çar Rusiyasından daha təhlükəsi imperiya siyasəti apardığını başa düşərək bu yöndə fəaliyyətlərini dayandırır. 1921-ci ilin sentyabrında özünün hərbi nazir olarkən qurduğu "Teşkilatı Mahsus"un bir çox fəalları ilə bahəm Buxaraya yollanır, bolşeviklərə qarşı basmaçı üsyanını başladır.

1921-ci ildə təkrar Moskvaya gedən Ənvər Paşa Ankara Hökumətinin Moskvaya göndərdiyi Bəkir Sami Bəy başkanlığındakı Türk nümayəndələri ilə görüşdü. Anadoludaki Milli Mücadilə hərəkatına qatılmaq istədisə də qəbul edilmədi. TBMM-dəki bəzi əski ittihatçılar onun Mustafa Kamal Paşanın yerini almasını istəyirdilər. Ənvər Paşa həmin günlərdə: "Mustafa ilə aramız yaxşıdır, o Türkiyənin lideri ola bilir"-deyə öz tərəfdarlarına mesaj göndərmişdi.

İyul 1921-ci ildə Batumda bir İttihat və Tərəqqi Konqresi topladı. 30 iyulda Ankaraya Yunan hücumu başlayınca bir qurtarıcı kimi Anadoluya girməyə ümid edən Ənvər Paşanın bu istəyi sentyabrda qazanılan Sakarya Zəfəri ilə boşa çıxdı.

**Turan Dövləti qurma cəhdləri**

**"İdeallarınızı gerçəkləşdirə bilməsəniz də, gerçəklərinizi ideallaşdırın"** deyən Ənvər Paşaya: -Paşam, başaramasanız nə olur? -sualı verilir. **-Başarmazsam öləcəyimi bilirəm, heç olmazsa ölümümlə Batı Türklüyü ilə Doğu Türklüyü arasında mənəvi bir bağ, körpü olaram"** cavabını vermişdi. Həqiqətən də Ənvər Paşa bunu bacarmış oldu. 1917-24-ci illərdə Türküsdana yayılan və 1934-cü ilə qədər sürən üsyanların qəhrəmanlarına Ruslar "Basmacı", Türk mücahidləri isə "Korbaşı" adını vermişdilər. Çar Rusiyasının "Basmaçı hərəkatı" gözü ilə baxdığı bu üsyanlar əslində işğalçı ruslara qarşı milli azadlıq hərəkatı idi. Sonra Ənvər Paşa Türküstana gəldi və bu basmaçı adının dəyişdirilməsini istədi, onun əmri ilə hamı bir-birinə "Mücahid" deyə xitab etməyə başladı. (***1917-1934 Türkistan Milli İstiklal Hareketi: Korbaşılar ve Enver Paşa*** - *Ali Bademci).*

**Son döyüş**

1921-ci ilin oktyabr ayında Orta Asiya müsəlmanlarını işğalçı ingilislərə qarşı birləşdirmə və bir Turan dövləti qurma niyyəti ilə Batumdan Buxaraya getdi. Turan Xaqanlığını qurmaq üçün böyük mücadiləyə başladı və ruslara qarşı savaşan Basmaçıları təşkilatlandıraraq Basmaçı üsyanını başlatdı. 1922-ci ilin fevralında Düşənbəni ələ keçirdi və oradakı Sovet qarnizonunu tamamən dustaq edib əsir aldı. Ardından Xorasan üzərinə yürüyərək Qızıl ordu birliklərinin Buxara və Xorasandan çəkilmələrini istədi. Kafiran savaşını uduzduqdan sonra dağlara çəkilmək məcburiyyətində qaldı.

Türk yazar, filosof, iqtisadçı və tarixçi Şevket Süreyya Aydemir (d. 1897, Edirne - ö. 25 Mart 1976) "Makedonya'dan Ortaasya'ya Enver Paşa (biyografi" ) əsərində Ənvər Paşanın unudulmaz şəhadət anlarını belə anladır:

*"4 avqust 1922-ci il tarixi. Qurban Bayramının birinci günüdür. Ənvər Paşa dəstəsində qalanların evin önündə toplanmasını və onların bayramını qutlayacağını söyləyir. Toplanılır. Son döyüşlərindən sonra sağ qalan əsgərlərinə dualarını, təbriklərini bildirir və özlərinə də bir miqdar para verir. Əsgər başçılarına isə: -bildiyiniz kimi sizlərə veriləcək daha heç nəyim yoxdur,- söyləyərək, bu müştərək mücadilələrin xatirəsi olaraq öz möhür və imzası ilə hamısına bəlgələr və rütbələr verir.*

*Balcevan bəyi Devletment bəy də Ənvər Paşaya altın və gümüş işləməli bir çapan, ipəkli cübbə ilə bir sarıq hədiyyə edir. Hər kəs bu hüzünlü Qurban Bayramının havası içindədir. Çünki bilinir ki bu günlər artıq son bərabərlik günləridir. Arxadan və çevrədən isə düşmən birlikləri irəliləyir. İnsan yaşayan son kənddədirlər. Şərqdə Pamir dağlarının keçilməz qarlı dağlarıdır. Kəsilən qurbanların torpağa axan qanları hələ təzədir.*

*Elə bu törən əsnasında vadinin Hakiyan dərəsi ilə Çeğan təpəsi istiqamətindən silah səsləri gəlir. Bu bir basqındır və törən yerindəki qələbəlik, əliyalın günahsız insanlar, qoca, qadın, körpələr basqınçıların pulemyot atəşləri altında məhv ola bilər. Bunu dərhal anlayan Ənvər Paşa o anda həmən atlanır. Silahdaşları onu salamat aradan çıxarmaq üçün dil töksələr də, Ənvər Paşa :-"bir yerdə döyüşdük, bir yerdə öləcəyik", -deyərək Osmanlı ordusunun generalı uniformasında əsgərlərini döyüşə aparır. Dörd- beşi də Osmanlı türklərindən olmaqla 25 atlı da onun kimi dərhal atların belinə qalxırlar, Çeğan təpəsinə tərəf yönəlirlər. Çegan Abıdərya suyunun quzey sırtları səmtindədir. Alt səmtdə Hakiyan dərəsi boyu vadi uzanır. Çeğan Balcevana (yaxud Belhi Cevan) 15 kilometrə qədər şərqdədir. Təpədə özlərinə səngər qurmuş pulemyotlu düşmən bölüklərinə qarşı aşağı vadidən və ancaq atlar üstündə siyrilmiş qılınclarla hücuma keçən az bir fədai süvari qrupunun sonu bəllidir. Ənvər Paşa hər zamankı kimi yenə öndədir. Atını ildırım kimi sürür. Qılıncıyla havanı yararaq irəli cumur. Yanındakılar da ondan geri qalmırlar.*

*Bir Komandanın, bir Başkomandanın, bir basqın dəstəsinə qarşı ən öndə və atla, qılıncla qarşı çıxışı, əsgəri savaş üsullarına sığmaz. Amma burada artıq əsgərlik deyil, yolun sonu, son həmlə və gözlənən son, burda son iş labüd ölüm və şəhadətdir, təslim olmaqdan söhbət belə gedə bilməz. İndi bütün yollar qapalıdır və 1908-ci ildə Makedoniya dağlarında başlayan qəhrəmanlıq sərgüzəştləri artıq Himalay dağlarının quzey silsilələrini təşkil edən Pamir ətəklərində igidliklə sona yetəcəkdir.*

***Elə də olur. Ceğan təpəsində atəş saçan Kulikov komandası pulemyotlarının üzərinə yalın qılınclarla hücum edən bu 25 süvarinin ağıla sığmaz hücumu  qarşı tərəfdə, hətta şaşqınlıq da yaradır. Bu qılıncların altında yaralananlar, təslim olanlar belə ola bilir, öndəki pulemyotçulardan hansısa susdurulur da, amma atəş kəsilməz ki bununla. Daha arxadakı ikinci pulemyot atəşini ən öndə irəliləyənlərin üzərində yoğunlaşdırır. Bunların ən önündə də Ənvər Paşa vardır. Beləcə, çağdaş pulemyot ortaçağın ünlü silahı olan qılıncı yenir. Ənvər Paşa vurulur. Atından düşür. Onunla bərabər diğərləri də yerlərə sərilirlər. Paşanın qır atı Derviş, bütün bu cür səhnələrdə olduğu kimi, əfəndisinin başı üstündədir. Amma pulemyotun sürəkli atəşləri davam edirlər, onlar önündəkinin kim olduğunu yaxşı bilirlər, nə zamandı ki ac canavarlar kimi onu izləyirlər. Derviş də öncə ön iki ayağı üzərinə çökür. Sonra yana çevrilir. O da sevgili savaş arkadaşının böyrünə sıxılaraq son nəfəsini verir.***
***Çeğan təpəsinə arxadan güclü yardımçıların gəlməsi mümkünsüzdür, qüvvələr tükənib. Amma bu yerlərdki  Buxara bəylərinin ən vəfalı, sadiq və ən igid olanı Balcevan bəyi Devletment kəndə bir az gec yetişmişdi. Çox sevdiyi Paşasının Çeğana saldırdığını öyrənincə, heç kəsi gözləmədən həmən sürətlə atına atlanır. Son savaş səhnəsinə yetişir. Və Devletment bəyin də cəsədi bu təpədə Paşasının yanındaca torpağa sərilir."***

Həmin döyüşdə şəhid olan Ənvər Paşanın sənədləri və üstündəki silahlar Daşkəndə, sonradan isə Ermitaja göndərilir. Bolşevik hökuməti və ermənilər əmin olmalıydılar ki, adı ilə onların canına qorxu salan, xalqı mücadiləyə ruhlandıran Ənvər paşa daha cismən yoxdur. Bu böyük qəhrəman əsgər 42 yaşında Türklük idealı uğrunda şəhid düşdüyü Türküstan torpaqlarında digər şəhidlərlə birlikdə Abıdərya çayı kənarında və vadisindəki Abıdərya kəndində bir pınarın başındakı ceviz ağacının altına gömülür və Türküstan yenidən özgürlüyünə qovuşuncaya qədər burada inadla gözləyir, sovetlər dönəmində qeyrətli insanlar tərəfindən məzarının yeri, nəşi tam yeddi dəfə dəyişilərək cansız cismini də rahat buraxmaq istəməyən ermənilərdən gizlədilir. İdeallarının gerçəkləşdiyini görüncə də əbədi istirahətgahına çəkilmək üzərə İstanbula gətirilir. Törən sırasında onu yenidən torpağa vermək üçün məzarına enən Ayvaz Gökdemir bu böyük qəhrəmanın nəşinin 70 ildir ki cisminin heç çürüməmiş qaldığını görür. Şəhidlərlə ilgili olaraq söylənən bir möcüzə bir daha gözlər önündə gerçəkləşmiş olur, Şəhid Ənvər Paşanın nəşi də heç çürümədən -bozulmadan doğulduğu yerə dönmüşdür..."

**Nəşinin Türkiyəyə gətirilməsi**

Tacikistanda torpağa tapşırılmış nəşi Cümhurbaşkanı Süleyman Dəmirəlin göndərdiyi əsgəru uçaq və heyətlə Türkiyəyə gətirildi və ölüm ildönümü günü olan 4 avqust 1996-cı ildə Şişlidəki "Abidə-i Hürriyət Tepesi"də dəfn edildi. Törənə Prezident, bakanlar və Ənvər Paşanın övladları, nəvələri qatıldılar.

## Məsləkdaşları arasında uyuyur

Bu məzarlıqda İttihat və Tərəqqidəki əqidə dostları, Türkçülük, Turançılıq amalı uğrunda mücadilə etdikləri məsləkdaşları da əbədi uyumaqdadırlar; İsmail Qaspıralı, Əhməd Ağaoğlu, Əhməd Hikmət Müftüoğlu, Mehmet Əmin Yurdakul, Əhməd Vəfik Paşa, Mirzə Fəth Ali Ahunzadə, Arif Nihat Asya, Nəcip Asım Bəy, Dündar Taşer, Necip Fazıl Kısakürək, Niyazi Yıldırım Gənçosmanoğlu, Osman Yüksəl Sərdəngəçti, Ərol Güngör, Pəyami Safa, Galip Ərdəm Səyyid, Əhməd Arvasi, Gün Sazak, Süleyman Paşa, Halidə Nusrət Zorlutuna, Yahya Kemal Bayatlı, Yusuf Akçura və başqaları.

## Ənvər Paşa nəslinin sonrakı taleyi

Ənvər Paşanın nəvəsi Osman Mayatəpək böyükbabasının mərasimlərdə geydiyi süvari üniformasını, Kayzer Vilhelmin hədiyyə etdiyi tapança, başlıq, qılınclar, at qırmanclarını da  Hərbi Əsgəri Muzeyə bağışladı. Ənvər Paşa ilə Sultan Abdülməcidin oğlu Süleyman Əfəndinin qızı Naciyə Sultanın bu nəvəsi impertorluq ilə cümhuriyyət arasında bir köprüdür. Bir dədəsi Ənvər Paşadı, digər dədəsi Tahsin Mayatəpək Atatürkün hansısa təbii fəlakətlə qeyb olmuş Mu qitəsini və Türklərin Mayalarla ilişgisini araşdırmaq üçün Meksikaya göndərdiyi ilk məsləhətçisi, Türkiyə Cümhuriyyətinin Meksikaya göndərdiyi ilk təmsilçi, Atatürkün yaxın dostu olub. O Mayalar və Mu qitəsininn Türklərlə ilişgisini araşdırır, 1932-1938-ci illər arasında yazdığı raporları həm Atatürkə, həm Türk Dil və Tarix Qurumuna göndərirdi. Soyadı da elə Mayalardan gəlir.

…Osmanlı, bir imperatorluq, anam Türkan Mayapətək də bir xanımsultan, vətən dəlisiydi, Ənvər Paşanı 26 yaşında itirdi. Amma bunu heç dilinə gətirməzdi. Babam Hüveyda Mayatəpək Vyana elçisiykən bir dəfə Belçika böyükelçisi soyadları ilə ünvanlara dəvətlər göndərir, ancaq anamın adında xanımsultan olduğu yazılmamışdı. Anam dəvətnaməni geri qaytarır: "Prensəs Türkan məşğuldu, gəlməyəcək" demişdi.

Ənvər Paşanın qardaşı Nuru Paşa Atatürkün də dostuydu, o olmasa çox sıxıntı çəkə bilərdik. Nuru Paşa Atatürkə: "Ənvər Paşanın çocuqları acdı, Naciyə Sultanı üzməyək" demişdi. Atatürk də lazımi adamlara göstəriş verib demişdi: "onlar üçün nə lazımsa, nə mümkünsə edin" deyib.

...Sözü gedən Osman Mayatepek Ənvər Paşanın ilk övladı Türkan Mayatepekin oğludur, paşanın digər qızı Mahpeyker Ürgüp və yeganə oğlu 1921-ci ildə Berlində doğulan Əli Ənvər Akoğlu olub. Oğlunu görmək nəsib olmayıb. Əli Ənvər Türkiyədə hərbi məktəbə, sonra hava pilotu üzrə Hərbi Akademiyaya daxil olub. 1971-ci ildə sınaq uçuşunda həlak olub.

Bakıdakı Türk şəhidliyindən Türkiyə bayraqları endiriləndə Ənvər Paşanın nəvəsi Arzu Ənvər Sadıkoğlu Azərbaycan Prezidentinə məktub göndərmişdi (Enver Paşa`nın torunundan Aliyev`e mektup, www.tumgazeteler.com).

Ənvər Paşanın bacısı Mediha Xanım Türkiyə Silahlı Qüvvələri Baş Qərargahın keçmiş rəislərindən Qazam Orbayla ailə qurur. Övladları bir nəfəri öldürdüyünə görə məhkum edilir, bunu ört-basdır etmək istəyən Ankara valisi məhkəməyə çıxarıldığını görüb intihar edir. General Qazam Orbay da 1946-cı ildə vəzifəsindən və Yüksək Əsgəri Şura üzvlüyündən çıxarılır.

Ənvər Paşanın qızı, doktor Mahpeyker Ürgüpün məşhur psixiatr həkim Fikrət Ürgüp ilə ailə həyatı uzun çəkməyib. Onların da övladı 1989-cu ildə öz evində intihar edib. Ənvər Paşanın digər qızı Türkan Mayatepekin yoldaşı Hüveyda isə 1973-cü ildə Avstriyada səfir vəzifəsində çalışarkən açıqlanmayan şübhəli səbəbdən vəfat edib.

Ənvər Paşa öldükdən sonra Emine Naciye Sultan ikinci evliliyini 1923-cü ildə Ənvər Paşanın qardaşı (qaynı-kayınbiraderi) Mehmet Kamil Killigil ilə yaşamışdır. Bu evlilikdən doğulan qızı Rana Hanım Sultan, Osmani Sədrəzəmi İbrahim Ethem Paşanın nəvəsi diplomat Sadi Eldem ilə ailə qurub.

Paşaların kiçik qardaşı Ərtoğrul 24 yaşında ikən 1931-ci ildə İstanbulda vərəmdən ölür.

Ənvər və Nuru paşaların əmiləri Xəlil Paşa da Osmanlının tanınmış, nüfuzlu sərkərdələrindən biri olub. Adları türk hərb tarixinə şərəflə yazılmış bu qardaşların hərbçi kimi yetişməsində da mühüm rolu olub. Hələ Birinci Dünya Müharibəsinin əvvəlində İraqdakı Kutul-Amare bölgəsində başda general Tounşend olmaqla 13 min ingilis əsgərini əsir götürməsi onun şan-şöhrətini Qərbə, Şərqə tanıdıb.

Bizim üçün də Xəlil Paşanın adı çox əzizdir. Çünki Azərbaycanın işğaldan azad edilməsində onun sərkərdəlik məharəti, ağlının gücü, müdrikliyi, qurduğu strateji planlar mühüm rol oynamışdır.

Kitabımızın qəhrəmanları Nuru və Ənvər paşaların ataları da əsil türkçü insan, mülki paşa-general olmuş, Azərbaycanı çox sevmiş, Qafqaz

İslam Ordusu Azərbaycanda olarkən Gəncə, Şəki və digər bölgələrimizə gəlib gəzmiş, Anadolu və Qafqaz türklərinin qanı axmış bu torpaqlara şərəf vermişdir.

## ATATÜRK VƏ ƏNVƏR PAŞA

Böyük öndər Atatürklə Ənvər və Nuru paşalar həmyaşıd idilər, eyni əsgəri məktəbləri bitirmişdilər, xoş ünsiyyətləri olub. Aralarındakı ən böyük fərq odur ki, Ənvər Paşa rütbələrini daha tez qazandı, məsələn Çanakkalada Mustafa Kamal anafartalar komutanı, Ənvər Paşa da o zaman hərbiyə naziri idi. Mustafa Kamalın Ənvər paşa ilə ilk tanışlığı Atatürkün İttihat və Tərəqqi partiyasına girməsiylə başlamışdı. O zaman Atatürk hər fürsətdə Osmanlının yerində cümhuriyyətə dayanan bir türk dövləti qurmaq istəyini dilə gətirirdi, bunu gənclik illərindən düşünürdü. Amma Ənvər paşa Osmanlı xanədanını müdafiə etdiyi üçün Mustafa Kamalla qısa zamanda araları açıldı, aralarında böyük bir çəkişmə olduğu da məlum, ona görə də 1909-cu ildə bir konfransda Ənvər bəylə aralarında olan mübahisə nəticəsində "İttihat və Tərəqqi"dən ayrıldı. Mustafa Kamal baş verən hadisələri daha real, obyektiv, uzaqgörənliklə dəyərləndirərək düşünürdü və ətrafındakılara da təlqin edirdi ki, süqut etməkdə olan imperatorluğun içərisindən bir türk dövləti qurub çıxarmaq əsas vəzifə olmalıdır.

1-ci Dünya Savaşında Ənvər Paşa sivrilib irəli çıxmış, Mustafa Kamal geridə qalmışdı. Amma Ənvər Paşanın da ona saygısı vardı, çox güvənirdi. Hər ikisi qüvvətli, ehtiraslı şəxsiyytlər olub, bir-birlərini sayıb təqdir ediblər. Ənvər Paşa bir gün başkomandan olaraq Mustafa Kamalın olduğu orduda zabitləri təftiş edərkən bütün komandanlarla görüşür, Mustafa Kamala çatanda:-"Vaxtim qalmadı, İstanbula gedəcəyəm" deyir. Ənvər Paşanın ətrafındakı bir ağzıgöyçək:- "Çox düz etdiniz paşam, zatən o həddini çox aşmışdır" deyir. Ənvər Paşa:- **"Onu mənə buraxın, Allah qorusun, mənə bir şey olursa, yerimə keçə biləcək tək adam odur"-** deyə cavab verir.

Ənvər Paşa 1-ci Dünya savaşı başa çatandan sonra Berlinə, oradan Rusiyaya, Moskvaya gedir, ingilislərə qarşı birlikdə mücadilə etmək üçün Sovet dövlət adamları ilə görüşərək onlardan Anadolu hərəkatına silah yardımı etmələrini istəyir. Rusiyanın dəstəyi ilə qurulan "İslam İhtilal Cəmiyyətləri İttihadı" adlı cəmiyyətin başına keçərək Anadoluda şöbələr açmaq istəyir və 1920-ci ilin sentyabrında Bakıda gerçəkləşən Şərq Xalqları Konqresinə qatılır. Moskvada olarkən  Ankara hökumətinin təmsilçisi ilə

görüşüb Mustafa Kamal Paşaya bir məktub yazıb haqqında söylənənləri və Anadolu hərəkatının başına keçəcəyi iddialarını yalanladı. Fəqət Yunanların hücuma başlaması ilə Anadoluya keçmək, bu savaşda iştirak etmək məqsədi ilə Batuma gəldi. Onun bu yöndə fəaliyyətləri Anadoluda da tərpəniş yaratdı, Trabzonda Ənvər Paşaya sevgisi ilə tanınan Yahya Kahya bir tabor yaradıb başına keçdi və Ənvərin yaxında dönəcəyini açıqca dilə gətirməyə başladı. Digər tərəfdən gəlişmələr Böyük Millət Məclisindəki 40 nəfərlik İttihatçı (Ənvər Paşanın bir az əvvəl əsas söz sahibi olduğu) millət vəkilləri arasında da müəyyən hərəkətlilik oyatdı. Arxivlərdə Ənvər Paşanın Mustafa Kamal Atatürkə şəxsən yazdığı məktubu qalır: "İstərsən bir nəfər olaraq gəlim. Savaşmaya hazıram." Atatürk qısaca:-"Gəlmə" demişdi. Mustafa Kamal Paşa da bilirdi ki, hələ də orduda, cəmiyyətdə xeyli Ənvər Paşa tərəfdarları var, ona görə rədd cavabı verib. Əgər Ənvər Paşa ölkəyə geri gəlsə idi, Mustafa Kamalın ən yaxınında duranlardan bir çoxu belə onu tərk edə bilərdi.

Bu gəlişmələrdən rahatsızlıq duyan Ankara Rus hökuməti ilə anlaşaraq, Ənvər Paşanı Moskvadan uzaqlaşdırmağa nail oldu, artıq ona heç bir dəstək verilmədi. Rusların dəstəklərini itirən və Anadoluda da bir şey edə bilməyəcəyini anlayan Ənvər Paşa bu dəfə Türküstana yollandı, buradakı türkləri ruslara qarşı istiqlal mücadiləsi vermək üzərə təşkilatlandırmaq istədi və bu yolda da canını qurban verdi.

Amma Atatürkün başbuğu-komandanı olmuş Ənvər Paşa ilə bir-birinə qarşılıqlı sayğıları vardı, sonadək bu sayğı qalmışdı da.

Kılıç Ali adlı dostu Atatürkə Ənvər Paşanın şəhid olduğundan söz edincə Atatürkün gözləri dolmuş, "igid adam idi, Allah rəhmət eləsin" deyib. M. Kamal Atatürk deyirdi: **"Ənvər ... özəlliklərini daşıyırdı və dönəmin ruhuna uyğun düşünürdü".**

Ənvər Paşanın Mustafa Kamal Paşaya Moskvadan yazdığı məktub da bir çox mətləbləri anladır; Ənvər Paşa xaricdə "İttihat və Tərəqqi"ni təşkilatlandırmaq cəhdlərinin də Türkiyə mənafeyi üçün çalışma istəkləri ilə bağlı olduğunu yazır, Qafqaz, Krım, Berlindən sonra Rusiyaya gəlməsinin səbəbinin Anadoluya imdadın ancaq Rusiyadan gələcəyinə inanması ilə bağlı olduğunu, Bakı konqresində çıxışının mahiyyətini də açıqlayır, qardaşı Nuru Paşanın Ərzurumda tutulduğunu, bir çox qohumlarının təzyiqlərə məruz qaldığını bildirərək bunları doğru hesab etmədiyini də və Türkiyə üçün sair önəmli məsələlər barədə fikirlərini bildirir.
Ənvər Paşanın şəxsiyyətinə, amalına, həyat və mübarizəsinin daha bir neçə səhifəsinə işıq sala bilən bu məktubu çevirməsiz təqdim edirik.

## ENVER PAŞA'DAN MUSTAFA KEMAL'E MEKTUP

"Anadolu Büyük Millet Meclisi Reisi Mustafa Kemal Paşa Hazretlerine: 16 Temmuz 1921 Moskova"

Muhterem Paşam!

Yusuf Kemal ve Rıza Nur Beyler Moskova'da iken, Berlin'den avdetimde gerek bunlara ve gerekse Ali Fuat Paşa biraderimize hariçteki mesaimizi ve size yazdığım mektupta ve gönderdiğim nizamnamede ve programla da izah ettiğim veçhile hariçteki tarzı mesainin memlekette bir fırkaya istinat etmesi lüzumunu bildirmiştim.

Bu sırada ise gerek Rus doktorları ve gerekse bizim doktorların muayenesi neticesinde veremin başlamış olduğu, Halil Paşa'nın memlekete gitmesi ve havası mutedil bir yerde oturması cümlece muvafık görülmüş, bu sebeple hareket etmişti. Kendisinin hareketinden sonra gelen mektupla ailesinin Taşkent'e gitmek üzere Trabzon'a geldiği, mamafih kendisi oraya çağırıldığı, Fuat Paşa bir akşam Afgan Sefaretinde Halil Paşa'nın Anadolu'dan gelecek iznini beklemesini söylemiş olduğunu anlatması üzerine, anlayamadığım tuhaf bir vaziyet karşısında bulunduğumu hissettim.

Halbuki size yazdığım telgrafa rağmen Avrupa'da İttihat ve Terakki manevrası başladı diye üzerimize yükleniyorlar. Biz buradan ve sonra da siz Bolşeviklerle münasebette bulundunuz diye, memleketten çıkmasında ısrar edilmiş...O da ailesi geldikten sonra yola çıkmıştır. Sonra bunu müteakip Küçük Talat Beyin tevkif ettirilerek çıkarılmış olduğunu buraya gelince anladım. Biraderim Nuri Bey'in de Erzurum'da kalebent edildiğini öğrendim. Her şeyi size açık bildirdiğim halde akraba ve arkadaşlarımın bu muameleye maruz olmalarını doğru bulmuyorum. Binaenaleyh size bir kere daha vaziyeti ber vechi ati izah etmeyi muvafık buldum.

1 Memleketten çıkınca, ben Kafkasya'da kalmalarını İzzet Paşa Kabinesi vasıtasıyla temin etmiş olduğum kuvvetler yanına gitmek ve diğer arkadaşları hariçte bularak siyaseten çalışmak ve dahildeki arkadaşlar üzerine düşmanlarımızın hücumunu kısmen tahfif etmek için meclisi umumi kararıyla çıktıklarını biliyorsunuz.

2 Ben Kırım'da kalıp Kafkasya'ya geçmeye uğraştım. Birçok tehlikelere rağmen muvaffak olamadım. Sonra Berlin'de bulunan arkadaşlar ile görüşmek üzere Talat paşa merhumun arzusu üzerine oraya gittim. Müzakereler neticesi o anda Anadolu'ya imdadın ancak Rusya'dan geleceğini anlayarak Bahattin Şakir bey ile Rusya'ya hareket etmiştim. Halbuki bir sene zarfında iki defa tutulup beş ay hapsedilmiş ve altı defa tayyareden düşmek suretiyle nihayet Moskova'ya geldim.

Halbuki son mahpusiyetim zamanında kararlaştırdığımız veçhile Moskova'ya başka tarikle gelen Cemal Paşa ve arkadaşları bu sırada Moskova'ya gelmiş olan Halil Paşa ile birlikte Anadolu'ya yapılacak yardımı temine çalışmışlardır. Verilen karar bir taraftan bunu temin ile beraber İngiltere'ye

karşı hareket etmek üzere Halil'in İran'a ve Cemal Paşa'nın Afganistan'a geçmesi kararlaştırılmış ve bu suretle hareket olunmuştur.
Bu sırada Cemal paşa tarafından zatı alinize yazılan mektuba Mülazım İbrahim Efendi'nin vurudiyle gerek Halil'in ve gerekse Cemal Paşa'nın Anadolu hesabına bir şey yapmalarını emretmişsiniz. Bunun üzerine tabii onlar belki vakitsiz olmakla beraber bu arzunuza tevkifi hareketi muvafık görmüşler ve Anadolu'ya resmen merbut olmayarak yardım ve maksada hizmet etmişlerdir.
3 Ben geldiğim zaman Bekir Sami Bey rüfekasını buldum. İki aydan beri Moskova'da bulunuyorlardı. Ben arzunuzu haber alınca Çiçerin'in sualine karşı resmen bir vazifem olmadığını, yalnız her suretle Anadolu'ya yardım edilmesine taraftar olduğumu söyledim. Bekir Sami Bey'in arzusu üzerine yalnız bir kere Çiçerin'e Anadolu Hükümeti taraftarı olduğunu göstermek için beraberce gittim. Sonra da aynı arzu üzerine yalnız arkadaşların hususi müzakeresinde bulundum. Ruslar henüz müzakereye bile başlamamışlardı. Çünkü Yusuf Kemal Bey biraderimize, bunlar Anadolu'nun komünist olmasını isteyecekler dedim.
Ben hususi olarak Berlin'de hapishanede çalıştığımız Radek ve diğer rüesa ile işin bir an evvel halline çalıştım. Nihayet müzakere başladı. Yusuf Kemal Bey biraderimizin zannı gibi Bolşeviklik de teklif edilmedi.

Maddi yardıma gelince; Bunda ne verirlerse alınmasını prensibinin takip edilmesinin muvafık olacağı, böylece Anadolu'nun Rusya'dan bir şeyler geliyor diye, kuvveyi maneviyyesinin artacağı ve Avrupa'da, Anadolu Bolşeviklerle anlaştı diye bizi daha kuvvetli ve mehip göreceğini bildiğiniz ilk maddi anlaşmaya çalıştım. Fakat ben hiçbir vakit resmen Anadolu namına hareket etmedim. Sonra Bakü'ye geldiğimde değil, yalnız ve Türkiye'de ve bütün İslam memleketlerinde derhal aksi tesiri görüleceğine ve böylece İngilizlere yardım edileceğine kani olduğumdan Türkiye ve şarkın Bolşevizm taraftarı olmadığını alenen kongrede söylediğim gibi, Anadolu halkının menfaatine daha muvafık ve cidden ezilen halkı düşünür bir idare esasına müstenit bir program ile Talat Bey ve diğer bir iki arkadaşın Anadolu'ya geçmesine karar verdik.

Şimdi bugün bu açıklıklara rağmen, siz karşımızda bir hasmımız varmış gibi hareket ediyorsunuz. Evvelce de dediğim gibi ben ve arkadaşlarım yalnız öteden beri takip ettiğimiz siyaset, memleketin ve Türk Milletinin salahı emelini güdüyoruz. Bununla beraber memleketin halka müstenit ve cidden onun menfaati düşünülerek onlarla çalışmaya taraftarız.

Beni eğer zatı alinize rakip telakki ediyorsanız, yanılıyorsunuz, bu aklımdan geçmemiştir. Bizce memleketin kurtuluşu esastır. Değil bunu sizin gibi uzun seneler beraber çalıştığımız bir arkadaş, belki Ferit paşa gibi ihtiyar bir herif yapabilseydi ona bile hürmet eder ve muvaffakiyetine yardım

ederdim. Cenabı Hakkın şimdiye kadar size yaver kıldığı talihinize biz de hürmet ederiz. İktidarınızı bundan evvel takdir ettiğimden Harbiye Nezaretini ve ondan evvelki hareketlerimle de belli olduğundan, buna dair fazlaca bir şey söyleyemem. Yalnız bir ricam var. Tekebbüre kapılmayınız!.. Sizi cidden seven bir arkadaş gibi rica ediyorum. Senin muvaffakiyetin Anadolu'nun muvaffakiyeti demektir. Fakat eğer siz şimdiden şiddetli davranırsanız, korkarım hayırlı neticeler vermez. Millet Sultan Hamit zamanındaki millet değildir. Artık tahakküme dayanamaz.

Bak! Seni bütün arkadaşlarım namına temin ederim ki, bizim hiçbir mevkide ve memuriyette gözümüz yoktur. Bana gelince, ben bir ideal takip edeceğim, o da İslam'ı ezen Avrupalılar ile pençeleşmek için bütün Müslüman ve Türkleri harekete geçirmektir. Başta Türkiye olmak üzere kurtarmaya çalıştığımız İslam alemi için faydamız ve belki de tehlike olduğunu hissettiğimiz anda memlekete geleceğiz... İşte bu kadar.

Şimdi, ben kemali hürmetle gözlerinden öper, Cenabı Hak'tan senin için yücelikler, İslam'a ve vatana nâfii büyük, büyük muvaffakiyetlere dilerim.

ENVER”

## Səid Nursi və Ənvər Paşa

1-ci Dünya savaşı dönəminin Osmanlıda baş qəhrəmanı Ənvər Paşa Bədiüzzaman ilişgiləri də çox maraqlı və önəmlidir. Nursi savaşdan öncə silahlı təlim verdiyi şagirdləri və yaxın çevrəsindən qurduğu milis taburu ilə birlikdə Savaş başlayınca öz komandanlığı altında Osmanlı ordusu tərkibində savaşa qatılır -Cihada qalxır. Savaş sırasında Nursinin könüllü milis taburu Van, Bitlis və Ərzurumda erməni çetelərinə qarşı və ruslarda savaşlarda aktivlik göstərir. Nursinin taburunun İran səfərinə qatılan kəşfiyyat qüvvətləri

ilə bağlantılı bəzi əməliyyatlarda iştirakı da məlumdur. 1915 – 1916-cı illərdə şərq cəbhəsindəki çatışmaların içində yer alan Nursi bu döyüşlərdə yaxşı at minməsi, at üstündə bacarıqla silah işlətməsi və qorxususz cəsarəti ilə önə çıxır. Özəlliklə Ərzurumda ruslarla çatışmalarda göstərdiyi qəhrəmanlıqlar hər kəsə bəlli idi, ona böyük şöhrət qazandırmışdı. Ərzurum cəbhəsindən Van - Bitlis cəbhəsinə dönən Nursi burada girdiyi bir çatışmada yaralanaraq huşunu itirir və 3 mart 1916-cı ildə ruslara əsir düşür, Volqa çayı yaxınında bir əsir düşərgəsində saxlanır. Rus kazakları ilə ermənilər əsir alınan Nursini öldürmək istəsə də rus ordusunda savaşan Nursi haqqında çox eşidən müsəlman əsgərlər buna əngəl olur. Əsirlikdə dostlaşdıqları kazak əsgərləri də ermənilərin Said Nursini öldürməsinin qarşısını almaq üçün onu gecə gündüz qoruyurlar, üstündə nəzarətçi qoyurlar. Bu barədə Nursi ilə birlikdə əsir düşən Ərzurumlu İbrahim Hakkı öz gündəliklərində bilgilər vermiş, onun nəvəsi də bu qeydləri qoruyub saxlayaraq sonradan üzə çıxarmışdır. Nursi Nur Risalələrini və Quranın təfsiri olaraq səciyyələndirdiyi "İşaratü'l İ'caz" adlı kitabını da çarpışmalar arasında cəbhədə və sonra da əsirlikdə yazır. Bir Kazan türkü vasitəsi ilə Ənvər Paşaya məktub yazır ("Zaman" gəzetinin 29 dekabr 1992-ci il tarixli nüsxəsində bu məktub verilib), az sonra əsirlikdən qurtulan (sözsüz ki, burada Ənvər Paşanın xidməti olmamış deyil) Nursi İstanbula dönür, hərbiçilərin qoruması altında qəhrəman kimi qarşılanır, dərhal da Ənvər Paşa ilə görüşür. Ənvər Paşa:-"Bu hocanı görürsünüzmü? Şərqdəki savaşlarda Rus Koşaklarına qarşı qoyan bu hocadır !" deyərək onu digər komandanlarla tanış edir, Nursini nüfuzlu, yüksək məqamlı savaş nişanı ilə təltif edir, ona Hərbi Nəzarətdə yüksək məqamlı vəzifə təklif edir. Nursi Bədiüzzaman:- "Əğər mənə dünyəvi bir məişət üçün vəzifə verəcəksinizsə istəməm. Əlmü- irfana aid bir xidmət varsa bu başqa. Mənim indi istirahətə ehtiyacım var. Çünki əsarətdə çox zulüm və məşəqqət çəkdim"-deyir." Ənvər Paşa əlyazmalırını oxuduğu, qiymətini təqdir etdiyi üçün əsərin bütün çap məsrəflərini qarşılamaq istəyir. Maddi yardımı qəbul etməyən Nursi isrardan sonra yalnız o zamanlar çətin tapılan kağızın mətbəəyə verilməsinə razı olur, bu kitablarının basımına Ənvər Paşa şəxsən yardımçı olur. Nursinin rahatlanıb İstanbulun dövlət köşklərində yaşayıb yazmasına şərait yaradılmasına da qayğı göstərir. Ənvər Paşa Nursiyə xəbər vermədən 1918-də İttihatçı hökümət tərəfindən İslam dünyasının sorunlarına çözümlər araması, İslama yönəlik saldırılara elmi cavablar verməsi üçün qurulan və bir İslam akademisi olaraq səciyyəndirəcək "Darül Hikmeti İslamiyə" yə üzvlüyünü  Ordunun namizədi olaraq göstərir, bu təklif qəbul edilir və padşahın 26 avqust 1918-ci il tarixli şəxsi əmri ilə ona aylıq  maaş təyin ədilir ( "Mufassal Tarihçə-i Hayat" shf.317);"

Ənvər Paşa 1918-ci ildə ölkəni tərk etdikdən sonra da Nursi ilə əlaqəsini kəsməyib, ona məktublar yazıb. "1921-ci ildir, Nursi yaxın tələbələri

ilə Boğaziçidəki Kız Külesində oturub ətrafı seyr edir, dərin fikrə dalıb, birdən əlini çantasına salıb içindən bir məktub çıxarır, oxuyur, məktub Türküstanda olan Ənvər Paşadan gəlmişdi. Səid Nursi çantasından qələm və kağız çıxarır və Ənvər Paşaya "Ey kahramanı hürriyet" sözləri ilə başlayan bir cavab yazır. (syf.205, Necmeddin Şahiner Son Şahitler Enver Paşa maddesi).

"Kahramanı Hürriyet" Ənvər Paşanın "Şehidi Muhterem" olanadək yurd dışından cəmi bir neçə nəfərə məktub yazdığı bəllidir, onların arasında Atatürk, Səid Nursi başda gəlir.

***

**www.tarihportali.net**

bir neçə sitat:

**"Osmanlı müharibəyə girən gün uduzmuşdu**

Osmanlı imperatorluğu yorğundu, tükənmişdi, tarixi ömrünü artıq tamamlamaq üzərəydi. Zamanın çarxları onun kitabını bükmək üçün işləyirdi. Bu qosqoca Dövlət Birinci Dünya Savaşına girdiyi gün yenilmişdi. Yəni Ənvər Paşa daha başdan qeyb edilmiş bir hərbə girmişdi. Amma gənc, ehtiraslı, xəyalları sərhəd tanımayan bu adam dövranın onun özü üçün çalışdığına da inanırdı. Əlinin altında yenə özü kimi gənc, ehtiraslı, məğlubiyyəti qəbul etməyən bir komanda kadrosu vardı. Tarix zamanın, dövrün şərtləri ilə birlikdə şəxsiyyətlərin də əsəridir."

**"Şəhid və Mücahid hərbi nazir**

Sonrakı dönəmlərdə Ənvər Paşa Osmanlını 1-ci Dünya Savaşına soxmaqda, qeyri-real Turan-Türk dövlətlər birliyi yaratmaq kimi xəyallara düşməkdə, Qafqaz cəbhəsinin açılması, Azərbaycan və Dağıstana hərbi xilaskarlıq yardımına görə, Sarıkamış faciəsinin günahkarları arasında ittiham edildi. Lakin bütün bunlara rəğmən fakt faktlığında qalır: Ənvər Paşa Türk-islam dünyasının ən igid, qorxmaz, cəsarətli sərkərdələrindən biri, Şəhid və Mücahid olmuşdur."

**"Onları unudanı unutmaq gərək**

1970-1984-cü illərə qədər Türk diplomatlarına qarşı ən çox saldırı Fransada yaşandı. Türk diplomatlarına yönəlik saldırıların ölkələrə görə sayı belədir: "Fransa (37), İsveçrə (25), İtaliya (20), Liviya (17), ABŞ (15), Türkiyə (14), İspaniya (11), İran (10), Belçika (5), İngiltərə (5), Kanada (5), Danimarka (4) Yunanıstan (4), Qərbi Almanya (4), Avstriya (3), Hollandiya (2), Portuqaliya (2), Avstraliya (1), İraq (1), SSCB (1), Bolqarıstan (1) və Yuqoslaviya (1).

Erməni sui-qəsdçilər tərəfindən qətl edilən, Talat, Cəmal, Ənvər və dava arkadaşları da 1980-ci illərdə yurd dışındakı vəzifələrini icra edərkən qətl edilən diplomatlarımız kimi Türk Ulusunun vicdanlarına əmanət edilmiş şəhidlərdir. Onları unudanları unutmaq gərəkdir."

**"Ənvər Paşanın Ortadoğu Səyahəti** - *Kürt Muhamməd Ali* (Liviya)

Yaxın zaman dünya siyasi tarixində Avropadan Asiyaya, Afrikadan Hindistana qədər Ənvər Paşa kimi adını tanıdan ikinci bir adama rast gəlmək mümkün deyildir. Son dərəcə hərəkətli və təsəvvürə gəlməz macəralı həyatı içində Ənvər Paşa adının ərəb ziyalı mühitləri içində çox özəl bir yeri vardır. Bu özəl yer Trablusgarbın İtalyanlar tərəfindən işğalı ilə Ənvər Paşanın bir ovuc idealist arkadaşıyla birlikdə direniş cəbhəsi qurmasıyla, ərəb aləmində müstəqillik və anti-imperialist anlayışın yaranmasında bir dönüm nöqtəsi olmasının rolu danılmazdır. Bu səbəblə də Ənvər Paşa adı adətən bir qütb ulduzu olaraq tələffüz edilir."

**"Ənvər Paşanın Vəsiyyəti** - *Nabican Bakiyəv* (Özbəkistan)

Şəxsi həyatı, dağda bir çobanın həyatı qədər sadə və yalın, təvazökarlıqda bir dərviş qədər ehtirassız, fəqət söz Turan xalqlarının istiqlal və hürriyyətləri olduğunda, ataş parçası bir idealist, savaş üçün yaradılmış bir əsgər olan Ənvər Paşa, özünü can çəkişən bir imperatorluğun tam ortasında görür. Və tam 17 cəbhədə qan rəvan içində, taqətdən düşənə qədər savaşır. Başında gözləyən akbabalara yem olmamaq qədər, Kırım, Qafqazlar, Xəzərdən o yanlardan gələn çağırış nidaları ürəyinə saplanar, özünü oralara da köməyə atar. O haray çəkənlər də Türkdür, oralar da Turan yurdudur. Qəlbini və ideallarıyla son nəfəsini Türküstan Türklüyünə ərmağan etdi, 1922-ci ilin avqustuna qədər."

**"Ənvər və Cəmal Paşaları ermənilər öldürmüş..."**
(2007-09-16, "Sabah" qəzetində yazı)

"...Türk Tarix Qurumu Erməni Araşdırmaları Başqanı Prof. Dr. Hikmət Özdəmir Talat Paşa, Ənvər Paşa və Cəmal Paşanın 1921 və 1922-ci illərdə erməni sui-qəsdçilər tərəfindən öldürülməsini yabançı və yerli bəlgələrlə incələdi." "Üç Jöntürk'ün Ölümü" adlı 336 səhifəlik kitabında yer alan bəlgələrə görə, Talat Paşa kimi, Cəmal və Ənvər Paşaların da ermənilər tərəfindən öldürüldükləri ortaya çıxdı. Prof. Dr. Hikmət Özdəmir İttihat və

Tərəqqi Cəmiyyətini bir siyasi dünyagörüş və vətənsevər hərəkat olaraq anladır.
Tamam bəlli faktdır ki, məxsusi olaraq Ənvər Paşanı öldürmək üçün ona qarşı qurulan qırmızı rus ordusunun komandiri Aqop Məlikovyan ad-soyadlı erməni olub və bu erməni qırmızı rusların tapşırığını alçaqlıq və amansızlıqla da yerinə yetirib.



***Ənvər Paşa və Nuru Paşa Babaları Əhməd Bəylə birlikdə***

**"Ənvər Paşanın Həyatı** - *Yusuf Gədikli*

1914-18-ci illər arasında "Devlet-i Aliye-yi Osmaniye"nin qədərinə hökm edən üç adamdan biri olan Ənvər Paşa, həqiqətən də dövlətin ən qüdrətli adamıydı. Harbiyə naziri, Genelkurmay başqanı, başkomandan vəkili və bahriyə naziri vəkiliydi. Ənvər Paşanın ən mühüm funksiyası çox qısa sürədə Osmanlı ordusunu düzənləməsi, orduya milli və dini şuurla sintezlənmiş yeni bir ruh verməsidir. Çanakkala bu ruhla qazanıldığı kimi, İstiqlal savaşı da bu ruh sayəsində qazanılmışdır. Savaşın İngiltərə və Fransanın gözlədiyinin əksinə 4 il uzanması, İngilis və Fransız imperatorluqlarının çatlaması da yenə bu ruh sayəsində olmuşdur. İttihat və Tərəqqi iqtidarını əlində tutan üç kişidən biri olan Talat Paşanın adına caddələr, bulvarlar, məhəllələr, məktəblər olmasına rağmən, Ənvər və Cəmal Paşanın adını daşıyan bir dənə caddə, məhəllə, məktəb və sairə olmamasını anlamaq çətindir. Halbuki Ənvər Paşa da, Cəmal Paşa da, Talat Paşa nə qədər sorumlu və vətənsevərsə, o qədər sorumlu və vətənsevər idilər."

“**İngilis Gizli Bəlgələrində Ənvər Paşa** - *Kənan Aksu*

Ənvər Paşa 20-ci yüzilin başlarında yaşayan ən diqqət çəkici fiqurlardan birisidir. Ənvər Paşanın tarixi, sadəcə Osmanlı Dövlətinin yox olması və Türkiyə Cümhuriyyətinin qurulmasıyla başlayıb bitməz. Onun tarixi sovet gücünün Qafqazlarda və Orta Asiyadakı xaotik quruluşunu da içinə alırdı.”

“**Xoşbəxt Olmamış Adam: Ənvər Paşa** - *Masayuki Yamauchi*

Ənvər Paşa, Orta Şərqin çağdaş tarixinin ən dartışmalı şəxslərindən birisidir. Gənc türklər hərəkatının və imperatorluq yıxılmadan öncəki siyasətin açar adamı, İttihat və Tərəqqi Cəmiyyətinin ən güçlü lideri, Balkan və Trablusgarp savaşlarının qəhrəmanı, Sultanın damadı, Başkomutan yardımcısı və Osmanlı İmperatorluğunun hərbi naziriydi. Bununla bərabər Ənvər Paşanın gücünü və ölkəsini qeyb etdikdən sonrakı karyerasının son dönəmi daha az bilinməkdədir. 1918-ci ildə sürgünlə başlayan və 1922-ci ildə Orta Asiyada ölümüylə sona yetən həyatının bu səhifəsi Alman-Sovet-Türk ilişgilərində olaylı bir rol oynadığı və Orta Asiyada Basmaçılarla birlikdə Sovetlərə qarşı savaşı az öyrənilmişdir.”

”**Şəhid Ənvər Paşa**

Osmanlının çöküşü də quruluşu kimi bir dastandır. Çöküşün qəhrəmanları olan nəslin bayraqdarı Ənvər Paşadır. Onların varlığıyla İmperatorluğun çöküşünü birlikdə düşünmək şaşırtıcıdır və haqsızlıq kimi görünür. Onların ürəkləri dağ kimiydi; xəyalları da eləcə. Əsla kiçik düşünmürdülər. Uca Dövləti, ölkəni və milləti qurtarmaq üçün özlərini atəşlərə atarkən, hər biri İmperatorluğun bir uzaq guşəsində bütün Müsəlman dünyasını qurtarmağı düşünür və bunun həyəcanı ilə sarsılırdılar. Böyük düşünmək, böyük röyalar görmək böyük zamanların görüntüləridir…. Sonra biz Anadoluya çəkildik. Artıq onları anlamaq zorlaşdı. İnsanlarımızda ürəklər daraldı, üfüqlər qapandı, araya anlamsız siyasi əndişələr girdi. Ərzurumu, Sarıkamışı "Turan" zənn edib Ənvər Paşanı, "əsgərlərimizi Turan yolunda qırdırmaqla" suçladıq. Dədələrimiz Iraqda, Fələstində, Qafqazlarda, Çanakkalada vətən torpaqlarını qoruyurdu. İngilis ordularının buralarda nə aradıqlarını sormaq yerinə, onların uca məqamlarını dartışmağa çıxdıq. …Ənvər Paşa o mübarək nəslin başbuğu idi.”

***

## Ənvər Paşa və Nuru Paşanı İstanbuldan ilk tanıyan, Qafqaz İslam Ordusuna bələdçilik edən kişinin xatirələri

*(AXC qurucularından «Nağı bəy Şeyxzamanlının xatirələri və İstiqlaliyyət fədailəri» (Bakı-2007) kitabından bir parça)*



## TÜRKİYƏNİN YARDIMINI TƏMİN ETMƏK

...Hüsaməddin bəylə mən stansiyaya gəldik. Səfərimiz gizli olduğundan heç kim bizi yola salmağa gəlməmişdi. 1918-ci iln yanvar ayı idi. Dostlarımızı, xalqımızı, ölkəmizi təhlükələr içərisində qoyub qatara mindik və Tbilisiyə yola düşdük. Sabah saat 8-də Tbilisiyə çatdıq və Xeyriyyə Cəmiyyətinə getdik. Cəmiyyətin rəisi doktor Xosrov bəylə görüşüb məqsədimizi bildirdik. Bizə Xeyriyyə Cəmiyyətinin üzvü olmağımıza dair sənəd verdi. Artıq bizim bu vəsiqələrlə bütün Qafqaz cəbhəsinin dolaşmaq səlahiyyətmiz vardı. Vəsiqələri aldıqdan sonra Xosrov bəylə vidalaşıb Batuma hərəkət etmək üçün stansiyaya gəldik.

...Vahab Paşa Baş komandan olan Ənvər Paşadan bizi bir an əvvəl İstanbula yola salmaq əmri almışdı.

...Daha sonra Əsəd bəylə birlikdə Babi Aliyə gəlirik və düz saat beşdə də Tələt Paşanın kabinetinə giririk. Sevincim və həyəcanım bir-birinə qarışmışdı. Kabinet böyük bir otaqdan ibarətdir. Baş tərəfdə böyük bir masa vardı. Tələt Paşa masanın arxasında oturmuşdu. Sağ tərəfində isə Xəlil bəy

(Menteşe) oturmuşdu. Masanın qabağında iki boş stul var idi. Biz masaya yaxınlaşıb görüşür və otururuq. Mən etimadnaməmi çıxarıb Tələt Paşaya verdim. Aldı oxudu və möhürdəki ay-ulduzun gözəlliyindən çox məmnun qalaraq etimadnaməni Ənvər paşaya və Xəlil bəyə göstərərək«möhürdəki ay-ulduzun gözəlliyinə baxın» dedi. Mən sözə başladım «Əziz paşalarım, Azərbaycan xalqı 100 ildir ki, hakimiyyətinin zülmü altında inləməkdə idi. Qafqaz Rusiya tərəfindən işğal olunarkən səkkiz xanlığın xalqı olan azərilər, yəni dini bir. Bili bir, adət və ənənələri bir olan millətimiz Türk millətidir.

Millətimiz rus hakimiyyətinə qarşı gecəli-gündüzlü hər fədakarlığa qatlaşaraq çalışdılar. Bu çalışmaların rus çarlığının devrilməsində böyük rolu olmuşdur. Qafqazda başsız qalan rus ordusu pərişan halda idi. Millətimizin silahlı qüvvələrinin hücumuna, təzyiqinə dözə bilmədilər. Onlar az bir vaxtda silahlarını ataraq çəkildilər. Azərbaycanın hər tərəfində xalqı idarə edə biləcək milli komitələr quruldu. Artıq anarxiyadan heç bir əsər-əlamət qalmadı. Ancaq bu gün üçün yaxşı olan bu vəziyyət sabah təhlükəlidir. İqtisadiyyatımız, ictimai vəziyyətimiz, imanımız, mədəniyyətimiz hər sahədə rus millətindən qat-qat üstün olduğu da azəri türklərinin istiqbalı qaranlıq görünür. Müstəqil yaşamağa öyrənmiş millətimizin böyük bir nöqsanı vardır. Xalqımızın vaxtilə hərbi təlim və tərbiyədən məhrum edilməsi və rus çarı Dəli Pyotrun vəsiyyətnaməsi gərəyincə İran və Türkiyə, Rusiya himayəsi və nüfuzu altına keçmədən Qafqazdan əsgər alınmasını əmr etməsi bu əsikliyi doğurmuşdur. Azərbaycan xalqı sizdən yardım gözləyir.Siz qardaş əlinizi bizə uzadaraq yardım edin. Müstəqil olaq. Siz bizi çəkib öüzünüzə qatmaq istəsəniz biz buna razı ola bilmərik. (Bu zaman mərhum Tələt Paşa salondakılara «baxın ilhakı nə gözəl türkcə anladır» dedi.) bizə böyük hərbi qüvvə göndərməyin. Bizə hərbi mütəxəssis və çavuş kadrları göndərin. Bizdə az bir zamanda böyük hərbi qüvvə qurmağın imkanı vardır. Türk olduğumuz üçün istənilən qüvvə qanımızda mövcuddur. Xalqımızm milli qüvvətinə güvənərək az bir zamanda rusları torpağımızdan təmizləyib ata bildik». Mən sözümü bitirmişdim. Tələt Paşa Xəlil bəyə baxaraq «Bravo xəlil bəy» dedi və bizə tərəf dönərək «Əfəndim, dünən firqə mərkəzində bu məsələni müzakirə edirdik. Xəlil bəy nəyin bahasına olursa-olsun hər fədakarlığa qatlaşıb Qafqazda bir İslam dövləti qurmamız fikrini müdafıə edirdi. (Mən dərhal sözə qarışdım: «Bəli, biz islamıq, ancaq Türk olduğumuzdan Milli Türk hökuməti qurulmasını düşünürük və istəyirik» dedim). Bu vəziyyətə çox məmnun olduq və «inşallah edəcəyik» dedik. Danışıqlarımızın rəsmi hissəsi bitmişdi. Mən Birinci Dünya müharibəsinin ilk illərində rus mətbuatının «Osmanlı dövlətinə ən ağır zərbəni ingilis ordusundakı müsəlmanlar, xüsusilə də ərəblər vurur» deyə yazdığım söylədim və «Bu din qardaşlarımızın içində Türk mehmetçiyini də nişan alaraq canına qıyan bir kəs varmı?» deyə soruşdum. Bu suala Tələt Paşa belə cavab verdi: «Mən ərəblərin millətçi liderləri ilə bu

məsələni müzakirə etdim və onları ərəb millətinin ingilislər tərəfində olmamasını razı saldım». Sözə Ənvər Paşa qarışdı. «Bunlardan başqa ingilislər ərəblərə müharibənin sonunda xilafəti bizdən alıb ərəblərə verəcəklərini vəd etmişlər». Mən «Paşam, xilafəti də onlara verəydiniz» dedim. Ancaq bu sözlərə Ənvər Paşanın çox hirsləndiyini hiss etdim. Üzü qızardı və əsəbi bir səslə «ola bilməz, son nəfərin Xəlifə həzrətlərinin yanında şəhid olması gərək» cavabım verdi. Artıq söhbətimiz bitmişdi. Bu zaman Ömər Faiq «Paşam, mən qəzetçiyəm. Azərbaycan mətbuatında çox çalışmışam. Azərbaycan xalqı Türklüklərini qəti dərk etmiş bir millətdir. İstiqlala layiqdirlər. Güclü bir ədəbiyyata malikdirlər. Ancaq mənim xahişim budur ki, bizim qəzamız Ahıska düz Türkiyənin sərhəddindədir. Oranın sizə ilhaq olunmasını istəyirəm» dedi. Tələt Paşa «Əmin olun, Paşa həzrətləri bu arzunuzu yerinə yetirər. Sabah təşkilatı qurmağa başlayacağıq» dedi. Əziz oxucularım, bunu da əlavə edim ki, Osmanlı dövləti rəhbərliyi ilə görüşən zaman mən bir dövlətin səlahiyyətli vəkili deyildim. Danışıqlarımızda heç bir etiket yox idi. Böyük Türk Millətinin bir qolu olan azəri türkləri öz qüvvələrinə dayanaraq əsarət zəncirini qırmışlar, vətənlərini düşməndən təmizləmişlər. İndi də bir övladım böyük qardaşları olan Osmanlı İmperatorluğu rəhbərliyinin yanına göndərmişdilər. Bu görüş və anlaşma iki qardaşın dərdləşməsi idi.Qaldığımız mehmanxanaya gəldik. Sevincimin həddi-hüdudu yox idi. Ömər Faiqlə göz yaşları  içərisində öpüşdük. Ömər Faiq lap düz yerində məni dəstəkləmişdi. Ertəsi gün Hərbi Nazirliyə dəvət edildim. Nazirlikdə cənab Yavər Kazım bəylə (Kazım Orbay) ilə görüşdüm. Digər yavərlər ilə də tanış oldum. Cənab Yavər Kazım bəy məni Umur Şərqiyə Ali Baş Hamba ilə tanış etdi. Yarım saatdan sonra məni Ənvər Paşanın kabinetinə gətirdilər. Ənvər Paşa məni gülə-gülə qarşılayıb qarşısında oturtdu və «dünən verdiyiniz məlumat məni çox sevindirdi. Sevincim və nəşəm hələ davam etməkdədir. Hərbi təlim-tərbiyə görməmiş xalq qüvvələri nə müdhiş varlıq, nə yenilməz qüvvə imiş» dedi. Mən də dərhal «Bəli Paşam, o xariqəni yaradan Türk millətidir. Paşam, mənim verdiyim izahat Azəri Türkləri haqqındadır. Rusiyada 35 milyon türk-müsəlman yaşamaqdadır. Bunlar Türküstan, İdil, Ural, Krım, Şimali Qafqaz və digər yerlərdə yaşamaqdadırlar. Bu saydıbım türk xalqları hər tərəfdə öz torpaqlarından rusları qovmuşdular. Artıq bu yerlərdə rus hərbi qüvvələri deyilən heç bir şey qalmamışdır. Ancaq təəssüf ki, əsil rus milləti 80 milyondur. Günün birində bu millət özünü ələ alacaq və ətrafını hədələməyə başlayacaqdır. Bizim təşvişimiz bu gün üçün deyil, sabah üçündür cavabını verdim. Ənvər Paşa «Bilirsinizmi ki, rus çarı devrildikdən sonra hakimiyyətə gələn Kerenski, müharibəni qələbəyə qədər davam etdirəcəyini bütün dünyaya elan edərək həm bizi, həm də almanları narahat etmişdir. çar üsulidarəsinin çürük olduğunu almanlar və biz bilirdik. Halbuki, Kerenski idarə etdiyi hökumətə

deyil, 80 milyon rusa arxalanırdı» dedi. Paşa daha sonra mənə Qafqaz İslam ordusunun yaradılmağa başlandığını və bir yüksək rütbəli zabitlərlə təmin olunacağını, bunun üçün bir komissiya qurulduğunu anlatdı və «Sizin də komissiyada olmağımızı uyğun saydıq». İndi isə sizə gələcək Qafqaz İslam Ordusu komandanı şahzadə «Fərrux ilə tanış edəcəyəm» dedi. İçəriyə gənc bir zabit girdi. Ənvər Paşa bizi tanış etdi. Sonra birlikdə yavərin otağına keçdik. Orada da bir az söhbət etdikdən sonra ayrıldıq. Şahzadə ilə bir daha görüşə bilmədim. Daha sonra Ömər Faiqlə Məclisi Məbusana (Deputatlar məclisi - C. Q., M. Ə.) getdik. Orada məclis rəisi Hacı Adil bəylə tanış olduq. Axşam Pera Palas mehmanxanasında hökumətin senzur idarəsi ilə mətbuatın anlaşması məqsədi ilə hökumət tərəfindən veriləcək axşam yeməyinə dəvət edilmişdik. Hacı Adil məndən məclis barədə fikrimi soruşdu. Mən də «Bəy əfəndi Məclisində 24 çalmalı saydım. Onların burada nə işi var?» deyə soruşdum. Hacı Adil bəy «İndi çox yaxşı vəziyyətdədir. İlk məclisimizdə 24 çalmasız tapa bilməzdiniz» dedi. Sonra mənə Qafqaz haqqında suallar verdi. Cavablarını bildiyim qədər verdim. Ən axırda isə Bakı milyoneri, xeyriyyəçi Hacı Zeynalabdin Tağını soruşdu. Ona Hacı haqqında bildiklərimi anlatdım (təfsilatı Ankarada nəşr edilən «Azərbaycan» dərgisində verilmişdir).

Bu zamanlar hər gün qurulacaq ordu ilə əlaqədar komissiyanın işində yaxından iştirak edərək müraciət edənləri yoxlamadan keçirdikdən sonra qeydə alırdıq. Ancaq görüşdüyüm siyasi xadimlərdən «İttihat və Tərəqqi» Partiyasının mərkəzi qərargahında yalnız Tələt, Ənvər və Camal paşaların Türk ordusunun Qafqaza getmələrini istədiklərini, digərlərinin isə buna razı olmadıqlarını öyrəndim. Mən demək olar ki, hər gün Ənvər paşa ilə göriişdüm. Görüşümüzün birində özümü topladım və Ənvər paşanın mənim xatirimi istədiyindən istifadə edərək dedim: «Paşam, sizinlə açıq danışmaq istəyirəm. Biz Qafqaz türkləri iki qüvvəyə inanırıq. Yuxarıda Allah, aşağıda Ənvər paşa. Eşitdiyimə görə sizin Nuru adlı bir qardaşınız vardır. Sizdən xahiş edirəm Qafqaza gedəcək hərbi qüvvənın başına Nuru Paşanı təyin edin. Paşam, ölkəmiz dünyanın ən zəngin yerlərindən biridir. Qocaman div olan Rusiyanı qudurdan, sağa-sola hücum etdirən Bakı neftidir. Bu neftin 70%-i biz azəri türklərinindir. Xalqı zəhmətkeş və çalışqandır. Eyni zamanda olduqca qəhrəmandır. Bir də Paşam, sizin Qafqaza gedəcək hərbi qüvvələrə komandan təyin etdiyiniz şahzadəni hər axşam Pera Palas mehmanxanasının salonunda içki içib rəqs etdiyini görürəm. Qafqazda belə hərəkətləri xoşlamırlar». Ənvər Paşa məndən «Hacı bəy, sizin orada içki içmirlərmi?» deyə soruşdu. Mən isə bu suala «İçirlər Paşam, ancaq pivə kimi zəif alkoqollu içki olan şərab «Vodka» deyilən sərt içkidən isə ruslar istifadə edirlər. Bizdə içki içərlər, ancaq sərxoş olmaq üçün deyil» cavabını verdim. Məni dinləyən Ənvər Paşa «çox yaxşı» dedi. Sonra telefon edərək Qafqaza gedəcək zabitlərin içki içib-içmədiklərinin də yoxlanmasını əmr etdi və sonra mənə

«Nağı bəy, Nuru çox gəncdir, necə olar?»dedi Mən də dərhal «Paşam, Nuru Paşanın Trablis-qərbdəki fəaliyyəti haqqında burada heç kəsdən məlumat ala bilmədim. Rus mətbuatı Nuru Paşadan və onun fəaliyyətlərindən uzun-uzadı bəhs edən materialları Qafqazda oxumuşdum. Və bir də Paşam, sizin qardaşınız olması yetər» dedim. Ənvər paşa «Yaxşı sabah söhbət edərik» dedi və ayrıldıq.

Ertəsi gün Hərbi Nazirliyə gələndə dərhal məni Ənvər Paşanın yanına apardılar. Ənvər Paşa həmişə olduğu kimi məni yenə də gülərüzlə qarşıladı və «Bəli, Nağı bəy, istədiyiniz oldu» dedi. Mən də «Paşam, çox sevindim və sabah bütün Qafqaz türkləri də sevinəcəklər» dedim. Ənvər Paşa məndən Azərbaycanda İsa Aşurbəyov adlı bir nəfəri tanıyıb-tanımadığını soruşdu. Mən də «Çox yaxşı tanıyıram, Paşam. Zəngin bir ailəyə mənsub, vətənpərvər bir şəxsdir» dedim. Ənvər Paşa ayrıca Aşurbəyovun türkiyəli Rüşəni bəy adında bir dostu olduğu və bunların mücadilə üçün pul istədiklərini söylədi. Rüşəni bəyi tanımırdım. Ancaq işin içinə pul məsələsi girincə iş dəyişmişdi. Ənvər paşaya «Paşam, iş dəyişdi. İsa bəy bakılıdır. Bütün Qafqaz təşkilatlarının məsrəfləri Bakıdan təmin edilməkdədir. Azərbaycanda, hələ Azərbaycanın mərkəzində pul məsələsi düşünülə bilməz. İsa bəy bunu məndən yaxşı bilir. Göndərməyin, mən məsuliyyəti öz üzərimə götürürəm. Bu işdə nə isə bir anlaşılmazlıq var» dedim. Ənvər Paşa mənim sözlərimi qəbul etdi və pul göndərilmədi. Bu zaman içəri bir paşa girdi. Ənvər paşa «bax istədiyin Nuru bu» deyərək bizi tanış etdi. Nuru paşa ilə birlikdə İslam ordusunun qərargahına gəldik. Günlər keçir. Nuru paşanın ştab rəisi miralay (polkovnik -C.Q., M.Ə.)Nazim bəylə birlikdə (İstiqlal savaşı zamanı Sakaryada şəhid olmuşdur) gərgin bir şəkildə çalışır və kadrları tamamlayırdıq. Mən vəziyyətdən çox razı idim. Nuru paşa həm özü işləyir, həm də bizi işlədirdi. Bu arada bir görüşümüz zamanı Ənvər Paşanı çox məmnun gördüm və bundan cəsarət alaraq «Paşam, sizdən Hüsaməddin bəyin rütbəsinin bir dərəcə artırılmasını xahiş dəyişdim» dedim. Ənvər Paşa «Nağı bəy, əsir düşən bir zabitin necə əsir düşdüyü tədqiq edilməlidir. Baxarıq günahı necədir?» dedi. Mən dərhal «Paşam, bizim orada görüşdüyümüz iş nəzərə alınırmı? Ruslar ilə mücadiləmizdə Hüsaməddin bəyin böyük rolu vardır» dedim. İki gün sonra Ənvər Paşa məni hüzuruna çağırdı. Dərhal etdim. Gülər üzlə «Nağı bəy, Hüsaməddin bəyin raportunu aldım və Çox məmnun qaldım. İstifadə edəcəyik.Özünün də rütbəsini bir dərəcə yüksəltdim» dedi. Sevindim və ona təşəkkür etdim. Hüsaməddin bəy raportunda general Əli Şıxlinskidən bəhs edirdi. Ənvər Paşaya «Paşam, Dünya müharibəsində biz azərilərdən dörd general rus ordusunda ordu komandanı olmuşdular. Yalnız bir gürcü generalı korpus komandanı ola bilmişdir. Azərilərdən ordu komandanı Səməd bəy mehmandarlı rus-yapon müharibəsində korpus komandanı olaraq ən yüksək nişanım almışdı. İkinci

general Əli ağa Şıxlinskidir. O, rus ordusunun artileriya üzrə müfəttişi idi. Üçüncü general Xan Naxçıvanskidir. Dördüncüsü isə Xan İrəvanskidir. Bu generallar bizim ruslarla mücadiləmizdə heç bir rol oynamadılar» dedim. Qeyd komissiyasının işi davam edir, ancaq mən bu arada heç bir fikir bildirmirdim. Əslində qeyd olunanlardan heç kimi tanımırdım. Ancaq bir gün əslən qafqazlı olan Tahir adında bir müəllimin imam olaraq orduya daxil olmaq məqsədi ilə müraciət etdiyini gördüm. Etiraz etdim və dedim ki: «Qafqaza gedən ordu deyil ki, imamı olsun. Orada müəllim əfəndilərə iş yoxdur. Çünki oradakı müəllimlərə Dünya müharibəsində iştirak etmək qadağan olunmuşdur. Bir cümə axşamı Ənvər Paşa mənə «Nağı bəy, sabah sultan tərəfindən qəbul ediləcəksən. Saraydan avtomobil gəlib sizi götürəcəkdir» dedi. Cümə günü deyilən vaxtı avtomobil gəlib məni Yıldız sarayına aparıldı. Sultan Rəşad namazda idi. Biz bir başqa otaqda söhbət edərək gözləyirdik. Sultanın namazdan çıxdığını bizə xəbər verdilər. Bayıra çıxdıq. Bəhriyyə orkestri marş çalır, vəkillərlə mən də sıraya düzülmüşdük. Sultan yanında da Ənvər Paşa salam almış vəziyyətdə bizə doğru gəlirdilər. Vəkillərin hamısı fəsli olduğu halda təkcə mən gümüşü papaqla gözə çarpırdım. Düz yanımıza yaxınlaşdıqları zaman Sultan Ənvər Paşaya məni göstərərək «Bu kimdir?» deyə soruşur. Ənvər Paşa «Qafqaz vəkili Nağı bəydir» cavabını verir. Sultan mənim türkcə bilib-bilmədiyimi soruşur və sonra yanımızdakı pilləkənlərlə yuxarı çıxaraq otağına girir. Biz də onun arxasınca pilləkənləri çıxaraq qarşıdakı otağa giririk. Bir az sonra Ənvər Paşa gələrək mənə «Nağı bəy, Sultanın hüzuruna qəbul olunurusunuz» dedi. Sultanın otağına bərabər girdik. Mən ədəblə salam verdim. Sultan məni gözləri ilə süzdü və «Demək türkcə bilirsən» dedi. Mən də «Bəli Sultanın, mən türkəm» dedim. Sultan mənə «mən səni çərkəz zənn etdim» dedi. Mən dərhal «Qafqazda 5 milyon türk vardır. Bunların içərisində çərkəzlər 200000-ə qədərdirlər» dedim. Sultan Rəşad bu sözlərimdən məmnun olmadı və «demək zalım çar onları məhv edib tükətmiş» dedi. Sonra o, mənə anasının çərkəz olduğunu və çərkəzləri çox sevdiyini söylədi. Mən «Sultan həzrətləri, Rusiyada 35 milyon Türk-İslam vardır. Əsrlərlə zalım rus çarlarının zülmü altında inləməkdə idilər. Allahın köməyi ilə Çarı devirəcək zəncirləri qopardıq. Məni vəkil edərək «get müsəlmanların hörmətli xəlifəsinə salamımızı çatdır» dedilər. «Hamımız sənə dua etməkdəyik» dedim. Bu sözlərimdən çox məmnun olan Sultan Ənvər Paşaya tərəf döndü və «Nağı bəyə üçüncü dərəcəli məcidiyyə verin» dedi. O zaman əncir aldığım baqqalın məcidiyyələri yadıma düşdü. Ənvər Paşa «Sultan həzrətləri,
Nağı bəy və yoldaşları ruslarla çətin müharibələr apararaq onları Qafqazdan qovmuşlar. Müharibə medalının devrilməsini əmr edin» dedi. Biz bayıra çıxdıqda Ənvər Paşa əlimi sıxdı və əmirlərə verilən üçüncü məcidiyyə

nişanı ilə təltif edildiniz, təbrik edirəm» dedi. Bu zaman anladım ki, alacağım məcidiyyə deyil, məcidiyyə nişanıymış. «İttiham və Tərəqqi» Partiyasının mərkəzindən doktor Baba Şakir ilə doktor Nazim bəylər mehmanxanaya gələrək vizit vərəqələrini mənim üçün qoyub getmişdilər. Bu sualların hamısına doğru-düzgün, ətraflı cavab verdim. Baba Şakir bəy Xocalarla inqilabımızda necə dil tapa bildiniz «Sizi başa düşdülərmi?» deyə soruşdu. Ona belə cavab verdim:

-Xeyr, Xocalar toplaşaraq bir İslam Partiyası qurdular. Şərait istəyirik dedilər. İlk zamanlar əhəmiyyət vermədik. Bizim partiyamız, yəni Türk Ədəmi Mərkəziyyət Partiyası bütün milli mənafelərimizə cavab verən prinsipləri proqramında əks etdirdiyindən qüvvətli idi. Bütün ziyalılar, tacirlər və bütün hörmətli şəxslər partiyanın ətrafında sıx birləşdilər. Ancaq biz sonradan bu xocalıların əleyhimizə təbliğat apardıqlarının şahidi olduq. Onlar xalqa deyirdilər ki, Partiya lideri olan Nəsib bəy bir kitab nəşr edərək ətrafında gəncləri toplamış və Qurani Kərimin əleyhinə təbliğat aparır. Bunun qarşısını almaq məqsədi ilə biz böyük bir xalq toplantısı təşkil edib onları xalq qarşısında təkzib edilməz dəlillərlə məğlub etdik. Biz bu xalq toplantısında xalqın təzyiqi ilə belə bir qərar çıxartdıq. Xocalar, mollalar camelərdə oturaraq, nigah kəsəcək, cənazə mərasimini idarə edəcək, xalqın anlamaq istədiklərini izah edəcək və qətiyyən dünyəvi işlərə qarışmayacaqlar. Dini işlərimizlə onlar, milli işlərimizlə yalnız biz məşğul olacağıq. Bu qərardan sonra da onlar heç vaxt bizim milli işlərimizə mane olmadılar. Məsələ bununla da öz həllini tapmış oldu».

Bir neçə gün sonra Nuru Paşanın hərbi mütəxəssislərdən ibarət kadrların təşkilini tamamladığı və hərəkətə hazır olduğu xəbərini aldım. «Nuru Paşanı Heydərpaşadan yola salırıq. Ənvər Paşa və yavərləri, digər paşalar və hökumət üzvlərindən bir neçə nəfər gözləmə salonundayıq. Qatar artıq yola düşməyə hazır və yola salanların hamısı perrona çıxırlar. Ənvər Paşa və qardaşı Nuru Paşa tək qalırlar. Məndə perrona çıxanlar arasında idim. Birdən məni çağırdılar, geri döndüm. Oradakılar məni «Sizi Nazir həzrətləri istəyir» dedilər, getdim. İki qardaş baş-başa dayanmışlar. Yaxınlaşıram. Ənvər Paşa bir əlini Nuru Paşanın, digər əlini isə mənim çiynimə qoydu və «Siz ikiniz də mənim qardaşımsınız. Sizə son sözüm bu» dedikdən sonra Qafqazda görəcəyimiz işlər haqqında təlimat verdi.»... Bir sabah yenə Hərbi Nazirlikdən çağırıldım. Məni Ənvər Paşa görmək istəmişdi. Mən içəri girərkən o, yerə gülərüzlə «Nağı bəy hazırsınızmı?» dedi. Mən də «Paşam hər dəqiqə hazıram» cavabını verdim. Paşa mənə «axşam saat 5-də Rəşid paşa paraxodu ilə Göstəncəyə, oradan da Braylova, sonra Ruminyadakı korpus ilə əlaqədar Trabzona gedib oradan Batuma gedəcəksiniz. Bir xahişini, istəyiniz varmı?» deyə soruşdu. Mən cavabında «tez getmək istəyirəm Qafqazda çox iş görmək lazım gələcək. İnşallah Nuru paşa müvəffəqiyyət qazanacaqdır. Mən

onun üçün hər cür fədakarlıqları edəcəyəm. Əmin ola bilərsiniz» dedim. O, bir an üzümə baxdıqdan sonra «Nağı bəy «Umuru Şərqiyyə» rəisi Əli Basxana iki dəfə Sizə pul təklif etmiş, ancaq qəbul etməmisiniz. Sizə pul lazım olacaqdır. Mən istəyirəm ki, Siz Qafqazda xüsusi işlərinizdə deyil, Nuru ilə bərabər çalışasınız» dedi. Mən də «Paşam, pulum var. İki aydır Türkiyə torpaqlarındayam, ayaq basdığım andan etibarən Sizin hesabınıza yaşayıram. Əgər pula ehtiyacım olsaydı əmin olun ki, istəyərdim. Batuma qədər yenədə Sizin hesabınıza gedəcəyəm. Qafqazda isə pula ehtiyacım olmaz. Paşam, Sizə söz verirəm, fəxri olaraq üzərimə götürdüyüm vəzifəmi davam etdirəcəyəm» dedim. Ənvər paşa ilə vidalaşıb ayrıldım.Mən Türkiyədə İttihatçıları idealist bir insan xarakterinə malik olanlar kimi gördüm. Hamısında İslam Birliyi tərəfdarı kimi keyfiyyətlər gördüm.  O, İslam Dünyasının varlığını hər şeydən, hər varlıqdan üstün tuturdu....***

## 4-CÜ BÖLÜM

## NURU PAŞA



**Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycana rəsmi səfəri şərəfinə "Gülüstan" sarayında təşkil edilmiş ziyafətdə nitqinqdən:**

"...Dəyərli dostlar, gələn il çox önəmli bir hadisənin, Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam ordusunun erməni və bolşeviklərin işğalına məruz qalan

Bakını azad etməsinin 90-cı ildönümüdür. Bunun önəmi gələcək nəsillərə, gənclərə ən yaxşı şəkildə anladılacaqdır. Çünki tarix elmi və tarix şüuru çox önəmlidir. Bütün nəsillərə, xüsusən gənclərə bunun anladılması əhəmiyyətlidir və bu ildönümünün yüksək səviyyədə keçiriləcəyinə əminəm. ...Mən çıxışımı böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin sözləri ilə bitirmək istəyirəm:

Bir ağacın iki qolu,
Bir ananın iki oğlu,
O da ulu, bu da ulu,
Azərbaycan-Türkiyə!
Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!"





**PREZİDENT ABDULLAH GÜL VAXTİLƏ NURU PAŞANIN YAŞADIĞI EVDƏ OLMUŞDUR**

Türkiyə Prezidenti Abdullah Gül, xanımı Hayrünnisa Gül və digər qonaqlar Qafqaz İslam ordusunun komandanı Nuru paşanın vaxtilə yaşadığı evə gəlmiş və burada ev sahibləri ilə çay süfrəsi arxasında söhbət etmişlər.
Söhbət zamanı evin sahibi, Xalq Cümhuriyyətinin tanınmış xadimlərindən olan Nağıbəy Şeyxzamanovun nəvəsi Arifə Şeyxzamanova babası haqqında xatirələrini danışdı. O, 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı vaxtı qardaşlarına köməyə gələn ordunun komandanı Nuru paşanın Gəncədə iki aya yaxın bu evdə yaşadığını, erməni daşnaklarına qarşı mubarizədə fədakarlıq göstərdiyini xatırlatdı.
Türkiyə Prezidenti bu qardaş köməyinin təbii olduğunu bildirdi və ölkələrimizin həmişə bir-birinə dayaq durmasının zəruriliyini vurğuladı.
www.azertag.gov.az, 2007-11-08

**Nuru Paşa -Ömür Yolu**

Fəriq Nuru (Nuri) Paşa Hacı Əhməd oğlu Killigilin doğulduğu tarix həm Türkiyə, həm Azərbaycanın bir çox mötəbər sitəsində, mənbələrində 1881-ci il göstərilir: tr.wikipedia.org, www.tarihportali.net, facebook.com, www.turkcebilgi.com, www.turania.org, www.kelebekforum.com, www.genel-bilgiler.com, az.wikiwix.com, www.mix.az, azersayt.com, az.wikipedia.org və sair. Ancaq www.designmodproject.de, ru.wikipedia.org, data.lullar.com kimi əcnəbi portallarda bu rəqəm 1889- cu ildir. Bakının Qurtuluş tarixi haqqında bir neçə dəyərli tədqiqatın müəllifi Rəşad Süleymanov yazır: "...Nuru Killigil Ənvər Paşanın bir yaş kiçik qardaşıdır və 1881-ci ildə doğulub. Qardaşı Ənvərdən fərqli olaraq, Nuru Killigilin uşaqlıq və gənclik həyatı ilə bağlı məlumatlar olduqca azdır" ( R.S-"Bakı xilaskarı" Nuru Killigil Paşa", *blog.azpress.az* )

Digər bir tədqiqatçı Asif Rüstəmli isə yazır: "1918-ci il noyabrın 10-u idi...Sentyabrın 23-də Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin başçılığı ilə Gəncədən Bakıya köçən hökumət üzvləri ilk dəfə idi ki, öz xilaskarı Qafqaz İslam Ordusunun Komandanı Nuri Paşanı və onun igid zabitlərini 15 sentyabr Bakının Qurtuluşu günü münasibətilə ziyafətə dəvət etmişdilər. ("Azərbaycan" qəzeti, 1918, 12 təşrin-sani, N37). Fətəli xan Xoyski məclisi açaraq **29 yaşlı Nuri Paşanı** qonaqlara təqdim etdi...**29 yaşlı Bakı fatehi** 19 yaşlı Cəfər Cabbarlı ilə qucaqlaşdı". "Nuri Paşa, Qafqaz İslam Ordusu və Bəxtiyar İsmailli Türkcanlı", Bakı-2007, səh 74). Nəsiman Yaqublunun "Bakının Qurtuluşu" kitabında da Nuru Paşanın doğum ili 1989-cu il göstərilib. (Bakı-2010, səh 182). Hər iki rəqəmə aid xeyli misalı həm Türkiyə, həm Azərbaycan qaynaqlarından yenə də gətirmək olar. Təəssüflər olsun ki, Türkiyənin bir xeyli tarix qurumuna yazdığımız məktublara da dürüst cavab ala bilmədim, hər iki rəqəmi düzgün sayanlar oldu.

Nuru Paşanın yavəri ilə birgə Bakıda 1918-ci ildə çəkdirdiyi şəkildə də 29 yaşdan yuxarı simada görsənir. Nağı bəy Şeyxzamanlı Ənvər və Nuru Paşa qardaşlarını İstanbulda ilk tanıyan azərbaycanlılardan biri olaraq Nurunun yaşda cavan olduğunu qeyd edir.

Biz də Nuru Paşanın həyatının sonrakı mərhələlərini, hərbi təhsil illərini Ənvər Paşanın müvafiq dövrləri ilə müqayisə edərək doğum ilinin 1981-ci ildən sonra olduğunu düzgün sayır, hər halda 1989-cu il tarixini qəbul edirik. Yuxarıda göstərdiyimiz mənbələrin hamısında həm Ənvər, həm Nuru paşanın anasının ismi Ayşə qeyd olunub, ancaq bu da məlum faktdır ki, onlar ögey qardaşdırlar.

İstanbulda Hacı Əhməd Paşanın ailəsində dünyaya gəlib. İttihad və Tərəqqi Cəmiyyətinin qurucusu olan və Osmanlı tarixində mühüm xidmətləri olan Ənvər Paşanın ögey qardaşıdır. Dədə-babalarının Krım Türklərindən olduğu bəllidir, ona görə də 1934-cü ildə Türkiyə Cümhuriyyətində rəsmi soyadı daşıma qanunu qəbul olunanda Nuru Paşa da ulu babalarının gəldiyi Dunay çayı ağzındakı Killi və ya Kiliya Türk qalasının adını özünə soyadı götürmüşdür. Ənvər Paşa ilə birlikdə və əmisi oğlu Xəlil Paşanın da məşhur hərbçi – general olması bu soyun igid, cəsur, döyüşkən cəngavər olmağından soraq verir. Hər iki qardaş həyatları boyu turançılıq idealı ilə yaşayıblar və türk xalqlarını vahid dövlətdə birləşdirməyə çalışıblar. Camal, Tələt adlı qardaşları da olub.

Teymən (leytenant) Nuru 1909-cu ildə Quru Qoşunları Məktəbini bitirərək Üçüncü Ordu komandanlığında zabit kimi xidmətə başlayıb, 1910-cu ilin yanvarından birbaşa padşaha tabe olan piyada bölüyünə keçirilib. 1911-ci ildə Hərbi Akademiyanı bitirərək yenidən döyüşən ordu sıralarına göndərilib. Həmin dövrlər Osmanlı dövləti olüm-qalım savaşı aparırdı. Gənc zabit ən ağır döyüşlərin getdiyi Şimali Afrika cəbhəsinə göndərilir. Yəni Qafqazlardan əvvəl Avropa və Afrikadakı savaşlarda döyüşçü, partizan, igid komandir kimi ad-san qazanmışdı. Osmanlıya daxil Liviyanın çağdaş günlərimizdə ( fevral-mart 2011 ) savaş meydanına çevrilən Benqazi şəhəri uğrunda döyüşlərdə mahir nişançı zabit Nuru bəy şəxsən 100 italyan əsgərini məhv etmişdi, partizan hərəkatı yaratmışdı. İtalyanlara qarşı göstərdiyi rəşadətli igidliklərə görə 1916-cı ildə minbaşı rütbəsi alır, həm də "Altun ləyaqət", Almaniyanın "Dəmir xaç" medalı ilə təltif olunur. 1917-ci ildə Avstriya-Macarıstan dövlətinin üçüncü dərəcəli fərqlənmə nişanına, Türkiyənin "Altun-imtiyaz" medalına layiq görülür. Mudros müqaviləsindən sonra ingilis-fransız qüvvələri onu dərhal tapılıb öldürülməli olan 7 "milliyətçi-residivist"in siyahısına salmışdılar. Balkanlar, İraq, Misirdə də ən çətin savaşların öndə gedəni Osmanlı zabiti Nuru idi, onun igidliyi dillər əzbəriydi, əfsanələşmişdi.

Nuru Paşanın ən böyük mücadiləsi Qafqaz, Azərbaycan uğrunda savaşıdır, məhz buna görə də Nuru Paşa Bakının qurtuluşundan sonra isə həm də ingilis, rus-erməni kəşfiyyatının hədəfinə çevrilir. 1919-cu ildə ingilislər tərəfindən tutulsa da, AXC rəhbərliyinin təlimatı üzrə xüsusi xidmət orqanlarının olduqca cəsarətli əməliyyatı ilə başarılı şəkildə Batumdakı cəza evindən qurtulub Bakıya gətirilir. Azərbaycan xalqının fədakar oğullarının sayəsində Nuru Paşa-Osmanlı ordusu qarşısında mənəvi borcundan, qismən də olsa, çıxa bilir, Xilaskarlıq missiyasını şərəflə yerinə yetirən sərkərdənin düşmən əlində o zaman ölməsinə vaxtsız imkan verilmir. Mudros müqaviləsinə uyğun olaraq Osmanlı əsgərlərinin Azərbaycanı tərk etməsinə baxmayaraq, Nuru Paşa 1920-ci ilədək Azərbaycanda qalır, əsgərlərinə də Azərbaycan vətəndaşlığını qəbul etməyi və burda qalıb bolşeviklərlə

savaşmağı əmr edir, Qızıl Orduya, həm də daşnak tör-töküntülərinə qarşı Qarabağ üsyanını, partizan mübarizəsini təşkil edir.

Nuru Paşa Azərbaycanın tamamən rus işğalına keçməsindən sonra Qafqazdan geri dönüb bir müddət Türkiyədə yaşayır, bir sıra hərbi əməliyyatlarda iştirak edir, Sarıkamışın ruslardan geri alınmasında fədakarlıq göstərir, ancaq 1923-cü il ilin oktyabrından Türkiyədə hərbi-siyasi vəziyyətin dəyişməsi ilə bağlı təqaüdə çıxır və bundan sonra artıq hərbçi kimi yox, iş adamı kimi fəaliyyət göstərir, Almaniyaya köçür, 1938-ci ildə yenidən Türkiyəyə dönür, ancaq həyat amalından- Turan idealından heç zaman geri dönmür.

1941-ci ildə Nuru Killigil Ankaradakı Alman Böyükelçisi Franz von Papen ilə görüşür və Türkiyədə turançı hərəkata gizli və güclü dəstək verərək Almanların müttəfiqliyini qazanır. Nuru Paşanın görüşləri Alman Xarici İşlər Nazirliyində də izlənir və ona lazımi dəstək verilir. Çünki Nuru Paşanın ideyası qismən də olsa, Almaniyanın marağına uyğun idi: Sovetlər Birliyində yaşayan çoxmilyonlu türk əhalisini ruslar əleyhinə qaldırmaq, əsir müsəlman türklərdən Turançılıq Masasının və SS Doğu Türküstan Alayının qurulmasına, özgür türk respublikalarının yaranmasına yardım etmək Almaniyanın siyasətinə cavab verirdi. Bu məqsədlə Nuru Killigil Berlinə çağırılır, Məmməd Əmin Rəsulzadə, Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski ilə birlikdə Almaniyada SS-in Türküstan alayının qurulmasına rəhbərlik edir. Ən başlıcası bu idi ki, belə bir missiyanın reallaşmasının uzaq perspektivi təpədən dırnağa türkçü, turançı olan Nuru Paşanın da həyat amalıydı.

Nuru Paşa digər türk xalqlarının Türkiyə ilə bütünləşəcəyinə ürəkdən inanırdı, bu sırada ilk olaraq Türkiyə sınırlarına yaxın yaşayan Azərbaycan türklərini və türkmənləri görürdü, bunlardan sonra isə Tatarıstana qədər uzanan bölgədəki digər türkdilli xalqların bütünləşib birləşəcəyini düşünürdü. Bunun üçün isə Türkiyə Almaniya ilə birlikdə Sovetlər Birliyinə qarşı savaşmalı, Almanlar da Türk əsilli Sovet əsirlərindən ordu qurub bunu Türkiyənin əmrinə verməliydi. Alman tərəfinin bu görüşlərə dəstək verməsi üçün şübhələrinə qarşı Nuru Paşa onları inandırmışdı ki, Türkiyə hökumətində, orduda bu görüşmələrdən xəbərdar xeyli insan vardır, xalq da bu fikirləri tezliklə mənimsəyəcəkdir. Eyni zamanda Qafqazlarda və Orta Asiya xalqları arasında, eləcə də sovet ordusu içərisində də Rusiya əsarətindən qurtulmaq istəyən, bu fikri bölüşən və mübarizəyə qalxmaq istəyən, fürsət gözləyən insanlar vardır. Ancaq Nuru Paşanın bu "yol xəritəsi" Almaniyanın SSRİ tərəfindən məğlubiyyəti ilə yarımçıq qaldı, ancaq faydası da çox oldu, on minlərlə müsəlman-türkün alman əsirliyindən sağ-salamat qurtulmasına da yol açdı.

Türkiyənin tanınmış araşdırmaçısı Reha Oğuz Türkan N.Killigil ilə almanlar arasında son məqamda fikir ayrılığı yaranmasının səbəbini belə izah edir: “SSRİ-nin dərinliklərinə irəliləyən almanlar Qızıl Ordudan milyonlarla əsir götürmüşdülər. Bunların arasında on minlərlə azərbaycanlı, özbək, qazax, qırğız, tatar, türkmən və digər türk xalqlarının nümayəndələri var idi. N.Paşa Almaniyanın müdafiə naziri Alferd Rozenberqlə görüşdə türkdilli xalqların nümayəndələrindən alaylar təşkil edərək ruslara qarşı döyüşlərdə istifadə etmək təklifini irəli sürmüşdü. Hitler tərəfindən bəyənilən bu təklifə əsasən SSRİ türklərindən ibarət olan bu qoşunlara komandan olaraq Nuru Paşa düşünülürdü. Paşa almanlardan SSRİ-dəki türk yurdlarının Almaniya müstəmləkəsi olmayacağına, müstəqilliklərinə hörmət göstəriləcəyinə dair zəmanət verilməsini və bunun dünyaya elan edilməsini istəsə də Hitler sovetlərdən azad ediləcək türk xalqlarına müstəqillik təminatı vermir. Rozenberq və daha sonra görüşdüyü Ribbentrop “indi yeri deyil, hələ işə girişin, sovetlər məğlub olsun, o zaman düşünərik ” dedikdə Nuru Paşa danışıqları dayandırıb, Türkiyəyə qayıdır”.



***Paşa Qüdüsdə müsəlmanlar və yəhudilər tərəfindən müqəddəs sayılan “Kubbetüs Sahra”nı ziyarət edərkən (1916)***




Balkanlardan Anadoluya köç, İstanbul, 1912.



**Bakıdakı bolşevik - daşnak qüvvələrini top atəşinə tutan türk əsgərləri**



## Nuru Paşaya qarşı sui-qəsd: silah fabrikində terror

1944-cü ildə 2-ci Dünya Savaşında Almaniya və müttəfiqlərinin uduzduğu məlum olanda, Turan yaratma cəhdlərinin də artıq puça çıxdığını görəndə, minlərlə türk müsəlmanın həyatını xilas etmək yolunda bacardığını, mümkün olan hər şeyi edəndən sonra Nuru Paşa birdəfəlik Türkiyəyə dönür. Zeytunburnunda kömür satan bir şirkəti satın alıb buranı bir mədəni əşya fabriki edir. Bu fabrikdə tapança, mərmi və sair silahlar istehsal etməyə başlayır. Avropada öyrəndikləri və özü ilə gətirdiyi mütəxəssislərin yardımı

ilə İstanbulun Sütlücə məhəlləsində ilk silah və partlayıcı fabrikini qurur, hava mərmiləri buraxdırır, öz zəkasının məhsulu olan "Nuri Killigil" adlanan tapançanın istehsalına başlayır. Türkiyənin demək olar bütün silah-sursat təchizatını xaricdən aldığını Nuru Paşa heç cür məqbul saymırdı, bu asılılığın acı nəticələr verəcəyini də gözəl bilirdi, lakin daha çox əcnəbilərin istəyi ilə idarə edilən Türkiyə hökuməti buna qarşı çıxmaq iqtidarında deyildi. Fabrik gizli işlədilməyə çalışılırdı.

1948-ci ildə Ərəb-İsrail savaşı başlarkən Nuru Paşa silah satışı anlaşması üçün İsraillə savaşda olan Misirə gedir. Misirdən külli miqdarda silah və digər döyüş sursatı, hətta minamyotların satışına dair sifarişi alır. 2-ci Dünya Savaşından qalib çıxan İngiltərə və ABŞ bu silah fabrikinin bağlanması barədə İnönü (CXP) hökumətinə qəti təpgilər göstərsə də, silah istehsalı gizli şəkildə davam edir. Nuru Paşa ilk böyük anlaşmanın icrası üçün həvəslə fabrikində işə başlayır. Bir gün fabrikə girdikdən qısa bir vaxt keçmiş fabrikdə bir-birindən qorxunc dalbadal 3 partlama baş verir. Türkiyə Cümhuriyyətinin bu ilk silah və cəbhə fabriki havaya uçur, parlayış o qədər güclü olur ki, yaxınlıqdakı onlarla bina da zərər görür, bir neçə gün barıt, mərmi, sursat iyi, toz dumanı çəkilmək bilmir. Nuru Paşa da daxil olmaqla fabrikdəki bütün 35 işçinin hamısı həyatını itirir, cəsədləri paramparça olur. Azərbaycan fatehi kimi tanınan Nuru Paşanın da nəşi tapılmır. Bu qanlı tarix: 2 mart 1949-cu il, saat 17.10 idi.

Ən şübhəli və ipucu verən məqam odur ki, həmin gün burda çalışan ermənilərdən heç biri işə gəlməmişdi, həyatını itirən 35 nəfərin hamısı türk, çoxu da əski savaşçılar idi. Onların hamısı boş tabutlarda, rəmzi cənazələrdə dəfn edilirlər. Partlayışın kimlər tərəfindən gerçəkləşdirildiyi məchul qalsa da, olayın siyasi bir terror, sabotaj, Nuru paşaya qarşı hazırlanmış qəsd, ya da Türkiyənin müstəqil şəkildə silah istehsalına başlamasına qarşı böyük güclərin planladığı akt olduğu aydın idi. Məhz bu olayla bağlı Məclisdə qapalı dinləmələr aparılarkən, bir qəza hadisəsi kimi dəyərləndirilərkən bir çox deputatlar hadisənin açıq-aydın hədəfdən yayındırıldığını, ört-basdır edilməyə çalışıldığını dedilər. 23 martda Baş nazir hökumət adından Məclisdə açıqlamalar versə də, sonralar sirr pərdəsi açılmadı, açıqlanmadı, qapalı (?) qaldı.

Olaydan əvvəl və sonra dalbadal Türkiyəni şoka salan eyni səpgili diversiyalar baş verdi. Adanadakı "Köy İnstitutu"nda, Gözəl Sənətlər Akademiyası, Amasyadakı əsgəri un fabriki, Çatalcanın Dağ Yenicəsindəki cəbhanəlik, İslahiyə Əsgərlik Şöbəsi, Hərb Akademiyası, Milli Təhsil Nazirliyinin nəşriyyat evi, Tekirdağ Hökumət Dairəsi və digər yerlərdə də belə partlayışlar törədildi.

Nuru Paşanın Bakıda, Dərbənddə nə qədər rus-erməni yadelli işğalçını öldürdüyü də yaddaşlarda idi, uğradıqları məğlubiyyəti də unuda

biməzdilər. Heç şübhəsiz, həmin Nuru Paşa fabrikindəki partlayışın sonu əvvəldən bəlli olan səbəbini də ya o illərdə dünyanın müxtəlif ölkələrində ardıcıl davam edən erməni terrorçularında axtarmaq lazım idi. Ya da ki digər bir səbəb ərəb dünyasına qarşı savaşa başlayan İsrailin Misirə silah satmaq fikrinə düşmüş Nuru Paşaya qəzəbinin nəticəsi olmalı idi.







Nuru Paşa Killigil tərəfindən hazırlanıb istehsal edilmiş  9 mm çapında yarı avtomatik "Nuri Killigil" tapançaları zamanında şöhrət qazanmışdı. Həmin tapançalardan mükəmməl saxlanmış bir neçə nümunə indi də İstanbul Hərbi Əsgəri Müzeyində durur.



Ankaradan gələn İçişləri bakanı partlayışdan sonra Nuru Paşanın fabrikində olmuşdu



Nuru Paşanın Sütlücədəki silah fabriki partlayışdan sonra

***

## Xilaskar Nuru Paşa

İlk növbədə Hərbi nazir Ənvər Paşanın təkidi ilə Qafqaza ordu göndərmək qərarı verilir və öz qardaşı Nuruya diviziya generalı, ardınca da Paşa rütbəsi verib qısa zamanda Qafqaz İslam Ordusu yaratmağı tapşırır.

25 May- Nuru Paşa komandanlığında Osmanlı ordusunun Gəncəyə qədəm qoyduğu gündür. M.Ə.Rəsulzadə yazırdı: "Gəncə Nuru Paşanı göydən enmiş mələk kimi qəbul etmişdi. Xalqın ona göstərdiyi istiqlal Gəncə tarixində görünməmişdi."

Qafqaz İslam Ordusu yerli birliklərlə daha da gücləndirildi, ərzaq, at, yem tədarükü görüldü, qısa və sürətli hərbi hazırlıqdan sonra Gəncədən hərəkətə başlandı, 3-cü Ordu komandanı Vəhib Paşanın Tiflis-Qazax səmtindən göndərdiyi batalyon da yardım üçün yola düzəldi. İyunun 28-də ilk cəsarətli hücumla Qaraməryəm, Göyçay, ardınca da Ağsu, Kürdəmir quduzlaşmış erməni-rus hərbi birliklərindən təmizləndi. İyulun 31-də Qafqaz İslam Ordusunun ilk hissələri artıq Bakı həndəvərindəki "Qurd qapısı"nda dayanmışdı.

Gəncədən üzübəri qarşısına keçən təpədən dırnağadək silahlanmış seçmə rus-erməni birliklərini darmadağın edərək coşqun əhval-ruhiyyə ilə Bakıya çatan Qafqaz İslam Ordusu burada öz qanlı hakimiyyətini qurmuş bolşevik-daşnak hökumətini həm qorxudur, daha da vəhşiləşdirir, həm də müdafiə tədbirlərini artırmağa vadar edirdi. Üstəlik, bu zaman Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak hökumətini sevindirən hadisə də baş verdi: general Denstervillin komandanlığı ilə 1500 əsgərdən ibarət 39-cu ingilis briqadası 4-7 avqust 1918-ci ildə Ənzəlidən gəmi ilə Bakıya gəlib çatdı. İşğalçı qüvvələr bununla xeyli güclənmiş oldu. Türk Ordusunun birinci Bakı hücumu ərəfəsində qüvvələr nisbəti işğalçı yadellilərin xeyrinə idi. Üstəlik Bakı uğrunda başlayan həlledici döyüşlər I Dünya müharibəsinin də ən ağır, həlledici dövrünə təsadüf edirdi, hərbi-siyasi vəziyyət Bakının tez bir zamanda işğaldan azad olunmasını zəruri edirdi. Düşmənə təzədən cəmləşmək, yeni qüvvə, güc toplamağa imkan vermək olmazdı.

Şiddətli top atəşinin köməyi ilə avqustun 5-də saat 04:25-də başlayan hücum qarşısında erməni, rus və ingilislər çox güclü müqavimət göstərdilər. Ancaq türk qoşunlarının getdikcə şiddətlənən hücumu bu müqaviməti qırmağa başladı və düşmən birlikləri hissə-hissə geri çəkilməyə məcbur oldu. Düşmənin bir müdafiə xətti pozulmuş, ikinci müdafiə xəttinə yanaşılmış və Bakının qurtulmasına lap az qalmışdı. Lakin Türk qoşunları əvvəlcədən davamlı hücum üçün kifayət qədər top mərmisi hazırlamadığına görə irəliləyən piyadalara açılan atəşlər getdikcə azalmağa başladı və düşmənin əks-hücumla türk birləşmələrini Bakıdan 4 kilometr məsafədə yerləşən Bibiheybət - Biləcəri dəmir yolunun qərbinə doğru çəkilməyə məcbur etdi. 5 avqust döyüşündə düşmənin ölü və yaralı sayı 2 min oldu. Nuru Paşanın 139 əsgəri, 9 zabiti şəhidlik mərtəbəsinə ucaldı, 444 əsgər, 19 zabit yaralandı. Hazırlığı gücləndirmək, arxadan gələn qüvvələri gözləmək üçün geri çəkilmək qərarı verildi. Hücumun dəf edilməsi düşmən cəbhəsində ruh yüksəkliyinə səbəb oldu. 6 avqustdan etibarən Bakıda əli silah tutan 15-65 yaş arasında olan kişilər əsgəri xidmətə çağırılaraq məcburən silahlandırıldı. Əsgər getmək istəməyənlərdən 600 nəfərdən çoxunu erməni qaniçənləri yerindəcə güllələndi.

Azərbaycan aydınları, elm, ədəbiyyat, sənət adamları, din xadimləri Bakının alınması işinin uzanmasından, dinc əhaliyə qarşı davam edən qırğınlardan ciddi narahat olaraq, Türk əsgərlərinin ruh yüksəkliyini qaldırmaq və onları daha da cəsarətləndirmək üçün avqustun 10-da şəhərin müsəlman türk əhalisi adından Türk əsgərlərinə müraciət hazırladılar.

***"Neft və milyon səltənəti adlanan Bakının qapıları önündə neçə gündür qələbə quşunun qanadlarını tutmaq istəyən türk ordusuna.***

***Bu gözəl şəhəri zəbt edə bilməsəniz, türkün və onun ordusunun şərəfini indi dayandığınız xəndəklərin içində basdırmış olacaqsınız. Əgər siz bu sərvət və qızıl şəhərini zəbt edə bilməsəniz, Qafqaz türkləri və Türküstan müsəlmanlarının ürəyinə sancılmış xəncərin üzərinə "Heyif ki, Türk bizə köməyə gəlmədi" cümləsi yazılacaq. Qafqaz fəryad edəcək, Türküstan ağlayacaq. Əgər siz bu böyük İslam şəhərini zəbt edə bilməsəniz, Allah deyənləri ortadan qaldırmaq istəyən düşmənlər qabaqdan və arxadan sizi əhatə edəcək və qıcanmış dişlər yeni zülmlər üçün alovlanmış olacaqdır. Əgər siz dəmir quyulardan dünyaya sərvət axıdan bu hərb şəhərini zəbt edə bilməsəniz, tarix qarşısında utanaraq yerə baxacaqsınız. Və bütün dost-düşmən ölkələrdə ən kiçik evdə, ən işsiz adamların belə dillərinin əzbəri olan Bakı şəhəri uğrunda savaşın pərişanlığı Türklərin pərişanlığı ilə sona çatacaqdır. Düşmənlər böyük və çox böyük bir zəfərin açarını ələ keçirdiklərini bəlkə də bir az haqlı olaraq elan edəcəklər. Dostlar isə belə bir itki üçün peşmanlıqlarını gizlətməyəcəklər və bizi kədərləri ilə məhv edəcəklər.***

***Ey Türk əsgəri! Əgər sən bu şəhəri almazsan, Bakıda sənin üçün hazırlanan süfrələr qonaqsız qalacaq, sənin üçün tikilən geyimi düşmənin geyinəcək. Sənin üçün verilən qurbanlar qəbul edilməyəcək, sənin üçün kəsilən qurbanlar düşmənə qalacaqdır. Əgər sən bu şəhəri ala bilməsən, İslam gəlinlərinin duvaqlarını kafirlər yırtacaq, yenə mübarək İslam qanı qırmızı şərablar kimi vəhşi işgəncələrin yolunda axacaqdır. Sənin zəfərin üçün dua edən əlləri zalımlar kəsəcəkdir. Əgər sən bu şəhəri ala bilməsən, qadınlar saçlarını yolacaq, ağlını itirəcəkdir. İndiyə qədər axan qanlar boş yerə axmış olacaq, sən də bu toz-torpaqlı yerlərdə pərişan və səfil olacaqsan. Türkün gözlərini çıxarıb iplərə düzən düşmənləri şənləndirəcəksən. Fəqət sən, ey Türk əsgəri! İngilislərin gücünü öz gücünlə Çanaqqalada darmadağın etdin. Ən böyük döyüş gəmilərinin böyük mərmilərinə sinə gərdin. Quttuləmmarədə 14000 əsir götürdün. Qarsendəki düşmənin çoxunu, erməniləri bəlkə Azərbaycandan, Qarsdan bəri qabağına qataraq bu şəhərə qədər sıxışdırdın. Türk adını yüksəldən Çanaqqala, Quttuləmmarə, Qalisiya, Rumıniyadan sonra Qafqaz gələcək və Bakı şəhəri də igidlik tacının bir almaz qaşı olacaqdır. Al Bakını! Vətənə bir almaz ərməğan et!"***

Azərbaycan türkünün bu hayqırtıları cavabsız qala bilməzdi. 8 minlik Osmanlı qüvvələrinə 6 min nəfərlik Azərbaycan hərbi birliklərinin də qatıldığı ikinci hücum 14 sentyabr 1918-ci il tarixində saat 02:00-da başladı. Birinci müdafiə xətti 03:00-da, ikinci müdafiə xətti saat 06:00-da ələ keçirildi. Salxana və Salyan kazarmalarından hücuma keçməyə hazırlaşan düşmən top atəşi ilə darmadağın olundu. 15 sentyabr günü saat 15:00-a qədər davam edən əməliyyat nəticəsində Bakıda müdafiə olunan erməni və rusların müqaviməti tamamilə qırıldı. Zatən 14 sentyabr axşamı şəhərin sabahı gün tutulacağı aydın olmuş, buna görə də Bakını müdafiə edən birlik komandirlərinin çoxu gəmilərə birinci minib qaça bilmək üçün öz birliklərini başsız qoyub qaçmışdılar.

Bakının müdafiəsində böyük ümidlər bağlanan 39-cu ingilis briqadası da 14 sentyabr axşamı hər şeyin nəticəsiz olduğunu görərək limana çəkilmiş və saat 22:00-da gəmilərə minərək Ənzəliyə getmək üçün şəhərdən qaçmışdı. Məqsədinə nail olmayan 39-cu ingilis briqadasının komandanı general-leytenant Denstervill vəzifəsindən azad edilmiş, yerinə general Tomson təyin olunmuşdu. 36 saat davam edən ikinci Bakı hücumunu gerçəkləşdirən 5-ci Qafqaz diviziyası və 15-ci piyada diviziyasının ümumi itkisi 1000 əsgər idi. Azərbaycan birlikləri isə 11 şəhid və 44 yaralı itki vermişdi.

Bakı uğrunda döyüşlərin nə qədər ağır, gərgin keçdiyini, Türk əsgərlərinin şücaət və Allah, Din, İman, Vətən, Türk, Azərbaycan məhəbbətinin siqlətini qiymətləndirmək baxımından bu sənədlər çox önəmlidir.

... 26 avqustda gedən Yanardağ və Biləcəri döyüşlərində ingilislərin cəbhədəki komandirinin Deustervilə yazdığı raportda belə deyilirdi: *"Türklərin hücumu, 26 avqust 1918-ci il. Yanardağ sahəsi Stanford alayının D bölüyü tərəfindən müdafiə olunurdu. Yanar dağın cənub-qərbində düşmənin hərəkətləri başlandı. Türklər sol cinahdan süvari ordusu ilə dörd düz xətli zəncir şəklində hücuma keçmişdi. Sayı təxminən min nəfər olan düşmən, topçu atəşi ilə müşayiət olunurdu. Zəncir şəklində hücum edən Türk orduları, bizim pulemyot və piyada atəşləri qarşısında dayanmaq məcburiyyətində qaldılar. Cəbhə xəttinin lap başlanğıcında, birinci müdafiə xəttində olan əsgərlərimizə beş dəfə hücum etdilər. Birliklərimiz beşinci hücumdan sonra səngərləri tərk edərək, geri çəkilmək məcburiyyətində qaldılar. Düşmən günorta saatlarından etibarən 12.30 radələrində Yanardağın sağ tərəfinə çıxmağa müvəffəq olaraq, orada pulemyotlar yerləşdirdi. Buradan ikinci və üçüncü müdafiə xəttimizi atəşə tutdular. Bu arada türklərin bizə sol tərəfdən başladığı hücumun qarşısını almağa başladıq. Lakin 13.30 radələrində ikinci və üçüncü müdafiə xətlərimiz də düşmənin əlinə keçdi. Buradan yalnız 6 əsgərimiz xilas ola bildi. Zabit və*

*sıravilərdən ümumilikdə 80 adam itirdik. Müdafiə xəttində bu döyüşlər gedərkən, saat 13.30-da yük maşınları ilə Bakıdan göndərilən 130 nəfərlik əlavə qüvvə cəbhə xəttinə çatmaqda gecikdi. Vəziyyəti düzəltmək mümkün olmadı. 9-cu Vourçester alayından göndərilən əlavə kömək isə 15.30 radələrində cəbhəyə çatdı. Düşmən, Binəqədi kəndinin şimalındakı yüksək təpələrə qarşı hücuma keçmişdi. Bu təpələr erməni batalyonu tərəfindən qorunurdu. Yanardağa edilən həmlə əsnasında bir bölük əsgər, oradakı erməni diviziyasına kömək məqsədilə Binəqədiyə göndərildi. Oraya saat 12.15-də çatan birliklərimiz erməni birliklərindən heç birini tapa bilmədi. Sonra dağa çıxdılar, dağın şimal istiqamətindən təxminən 250 nəfərlik bir Türk ordusunun irəlilədiyi göründü. Təpəni və buradakı səngərləri ələ keçirən birliklərimiz, piyada tüfəngləri və pulemyotlarla atəş açdı. Düşmən ağır itkilər verərək geri çəkildi".*

(General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 234)

General Deustervil Bakıdakı birləşmiş hərbi qüvvələrin Türk Qafqaz İslam Ordusu qarşısında dayana bilməyəcəkləri barədə açıq yazırdı:
***"Yer üzündə heç bir qüvvə, Bakını türklərdən qoruya bilməz****. Şəhərin müdafiəsinin davam etdirilməsi, təslim gününü uzatmaqdan başqa bir şeyə yaramır. İndiyə qədər yalnız ingilis əsgərləri döyüşdü. Mənim əsgərlərimin qəhrəmancasına döyüşməsinə baxmayaraq, türklər hər hücumda qalib gəldilər. Yerli hərbi birliklər bizimkilərə kömək etmədi. Mən adamlarımın boş yerə həlak olmasına razı ola bilmərəm. Biz türklərə qarşı vuruşmaq üçün sizin əsgərlərinizə köməyə gəlmişdik. Ancaq sizin əsgərlərinizin yerinə biz vuruşuruq. Sizlərə, Bakının təslim edilməsi barədə danışıqlara başlamaq üçün türklərə bir nümayəndə göndərməyi tövsiyə edirəm. Qadın və uşaqların şəhərdən çıxarılmasına imkan verəcək uyğun şərtlərin əldə edilməsi, sizin üçün çətin olmayacaq. Sizlər bununla da türklərin şəhəri silah gücünə ələ keçirməsindənsə, hadisələrin gedişinə daha yaxşı istiqamət verə bilərsiniz".*

(General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 247).

Birinci dünya savaşının gedişi və almanların Bakıya girmək istəməsi Ənvər paşanı Bakını tez bir zamanda ələ keçirmək barədə fikirləşməyə vadar edirdi. Türk Qafqaz İslam Ordusu komandanlığı, 3-cü Ordu komandanlığına bir raport yazaraq, vəziyyəti bildirməyi lazım bildi. Nuru paşa əsir alınan ingilis zabitlərindən öyrənmişdi ki, Ənzəlidən Bakıya 4 min nəfərlik güclü bir qoşun göndərilməsinə hazırlıq görülür. Nuru paşa raportunda yazırdı:
*"Düşmən Bakıda əli silah tutan və hər millətdən olan kişiləri silahlandırmaqdadır. Bakıdakı düşmən qüvvəsinin 10 min nəfər olduğu təxmin edilməklə bərabər, əlavə qüvvə aldıqları da casuslar vasitəsilə öyrənilmişdir. Bakının zəbti üçün aşağıdakı gücə və cəbbəxanaya ehtiyac vardır:*

*1. Beş min yeni qüvvə,*
*2. İki səhra batareyası və düşmənin döyüş gəmilərinin Ələt-Puta dəmir yolu xəttindən və Bakı limanından uzaqlaşdırılması üçün 4 ağır batareya,*
*3. Bir təyyarə bölüyü,*
*4. Bir teleqraf bölüyü (telefon və teleqraf xətlərinin işləməsini təmin etmək üçün)*
*5. Buradakı toplar üçün 10 min qüdrətli top, 8 min şnayder, 4 min Rus dağ, 6 min Rus səhra topu mərmisi ilə min qutu piyada mauzer və 500 Rus piyada tüfəngi cəbbəxanası,*
*6. Təxminən iyirmi ədəd nəqliyyat vasitəsi."*

Bunların əksəriyyəti yetişməsə də, türk əsgərlərinin rəşadəti hər şeyi həll etməyə qadir oldu. Bir nümunə.

5-ci Qafqaz piyada diviziyasının rəhbəri podpolkovnik (yarbay) Rüştü bəy, hücumun başlanmasını bu cümlələrlə ifadə edirdi:

*"Bu gün 5 avqust tarixinin üzərindən 39 gün keçir. 5-ci Qafqaz firqəsi heç ana vətəndəki döyüşlərdə belə, Azərbaycanda olduğu qədər çətin, qanlı itkilərə uğramamışdı. Həm din, həm də irqini qurtarmaq üçün, mənsub olduğu ordunun qəhrəmanlıq dastanını yerə salmamaq üçün əsgər və zabit heyəti səylə çalışmış, qan axıtmış və canlarını fəda etmişdilər. İstiqlalına vurğun Anadolu türkü, nəhayət, qonşu və qardaş millətin istiqlalını da çətin mübarizələr ilə təmin və azərbaycanlılara təhvil verirdi. Sentyabrın 13-dən 14-nə keçən gecə bütün firqə heç yatmamışdı. 5 avqustdakı məğlubiyyətin acısını çıxarmaq və intiqam almaq üçün hər kəs hücum vaxtının gəlməsini səbirsizliklə gözləyirdi. Axır ki, gözlənilən o saat gəlmiş və kontingent gecənin dərin qaranlıqları içində gündüzdən bələdlənmiş Heybət-Bakı dəmir yoluna doğru axmağa başlamışdı. Bu dəfə Bakının ələ keçiriləcəyinə hamıda inam var idi. Ruh yüksəkliyi hökm sürürdü. İlk qumbara səsləri düşmənin ilk mövqelərinə çatıldığından xəbər verirdi".*

( Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 202-203)

Xəlil paşa Bakıya edilən hücumun ilk günü döyüş meydanında gördüklərini və yaşadıqlarını bu cümlələrlə ifadə edir: "Hava təzə işıqlanmağa başlamışdı ki, piyadanın özünə məxsus qışqırıqları (Allah, Allah) ilə qumbara və süngü hücumuna başlanıldı. Hücum qoluna sağdan və soldan həmlə edən düşmən ehtiyat qoşunları, "qəmə" şəklində irəliləyən türk birliklərinin sağa-sola açdığı yaylım atəşləri ilə geri oturdulurdu.

*"Qəmə"nin önündəki birliklər düşmən cəbhəsini yarmış, şəhərin mərkəzinə doğru irəliləyirdi. Düşmən fasilələrlə əks-hücuma keçir, lakin yenə də olduqları yerə qayıtmaq məcburiyyətində qalırdılar... Bakı qarşımızdaydı... Düşmən ehtiyat qüvvələri şəhərin mərkəzinə doğru çəkilməyə məcbur olmuşdular... Bakı möhkəmləndirilmiş mövqeyinin sol tərəfində, yəni mövqenin şimal tərəfində ingilis qüvvələri yerləşmişdi. Bunu batareyaların*

*ataşindən təxmin etmişdik. Sübhdən başlayan döyüş axşama qədər davam etdi. Bu döyüşdə, ara-sıra özümü əlimdə mauzer ön xətlərin arasında gördüyüm anlar da oldu... Bir həmlə zamanı bir sıravinin yalvara-yalvara yanıma soxulduğunu gördüm: "Komandan Paşam, mən səninlə hələ Ərəbistan ellərindən bir yerdə idim. Bax, yenə özünü qorumursan!... Güllə dəyəcək, komandan paşam, az da olsa, başını qorusana?..." Qucaqlayıb, dodaqlarımı, yaşı qırxı keçmiş bu dəliqanlının alnına dayadım. Çiyinlərini buraxanda əlimdə qan izləri gördüm... "Yaralısan, oğlum!..." Əlini çiyninə apardı... Sıxdı, bir ara ağrıdan üzünü turşutdu... "Unutmuşam, komandan paşam!..." dedi, sıçrayışla irəli yüyürdü. Bir ucdan mauzerindəki güllələri doldururdu... Və imperiya dastanı davam edirdi... Yanımdan gənc bir zabitin parçalanmış bədənini keçirdilər. Pulemyot bədəninin bir hissəsini aparmıdı..."*

(Sorgun, Xəlil paşa, İttihad və Tərəqqidən Cümhuriyyətə bitməyən savaş, s. 225-226)

İkinci Bakı hücumunun birinci günündə türk əsgərinin düşmənin müdafiə xətlərini surətlə ələ keçirməsi, general Deustervili heyrətə gətirmişdi.

Xatirələrində yazır:

*"İnanmaq mümkün deyil. Cəbhəmizin ən güclü xətti türklər tərəfindən ələ keçirilmişdi. Həm də türklərin hücuma keçəcəyinin bütün birliklərə xəbər verilməsinə baxmayaraq, işğal edildi. İnanmaq çətin olsa da, mövcud vəziyyət belə idi. Cəbhədəki bütün üstünlüklərin bizim tərəfimizdə olmasına baxmayaraq, hücumun ilk anlarında darmadağın olan hərbi qüvvələrimizin artıq nəsə edə biləcəyinə ümid qalmamışdı. Bu vəziyyətdə üzərimizə düşən əsl vəzifə, geri çəkilmək və düşmənin hərəkət sürətini azaldaraq, hərbi birləşmələri yenidən nizamlamaq idi".*

(General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 263)

Bakı çağırılmamış qonaqlardan qurtulandan sonra da Nuru Paşa başqanlığında Türk əsəgərlərinin işi asan olmamışdır. Nuru paşa Baş Komandan Vəkili Ənvər paşaya 22 sentyabr 1918-ci il tarixində göndərdiyi bir raportda bunları bildirirdi: *"Bakının zəbti günü bir qisim islamlar, bir qisim ermənilər ilə bir neçə rusu öldürmüş və qarət etmişsə də, bu hal ermənilərin keçən 31 martda müsəlmanlara qarşı törətdikləri qətliamın yüzdə birini təşkil etməz. Bu dəfəki qarətləri törədənlərin əksəriyyəti iranlı fəhlələr olmuşdur. Ordu tərəfindən verilən əmrə görə, qarətçilərdən 100-dən çoxunun tutulub edam edilməsi qarətin qarşısını dərhal almışdır. Bu gün Bakıda asayiş tam nəzarət altındadır".*



Bakı sakinləri xilaskar Türk əsgərlərini qarşılayır



**AXC əsgərləri**



Nuru paşa (sağda) yavəri ilə birgə Bakıda (1918)

**15 sentyabr şərəfli tarixdi, bu tarixin dərsi yaşadılmalıdır!**



Yolçu! Bu məzarda uyuyan şəhid,
Qardaşın qardaşa əmanətidir.
Odlar diyarının istiqlalına
Qoca Türkiyənin zəmanətidir!

Hər il sentyabrın 15-də Bakıdakı Türkiyə Böyükelçiliyinin türk Şəhidliyindəki anım mərasimində iştirak etməyi özümə borc bilirəm və burada möhtəşəm izdiham yaşanmamasından məyusluq duyuram. Diktorlarımızın ifasında səslənən yuxarıdakı bu müraciəti dinlədikcə o günlərin sarsıntılı həyəcanları da, üzüntülü kədəri, sevinci də gözlərim önünə gəlir. Yuxarıdakı bu sətirləri yazan insanların keçirdiyi hissləri mən də yaşamışam: 1993-ün son həftəsində AzərTAc-ın cəbhə bölgələri üzrə müxbiri olaraq Füzuli, Cəbrayıl, Qubadlı, ardınca Zəngilanın işğalı günlərində telefonla Bakıya diqtə etdiyim, vəziyyətin nə dərəcədə kritik, faciəli durumda olduğunu çatdırdığım informasiyalarımın ağırlığı beynimi yenə də sıxır, göz-görəti xəyanətlərin labüd məğlubiyyətə, ölçüsü, miqyası sözə sığmayan fəlakətlərimizə aparıb çıxaran hadisələr gözlərim önünə gəlir. Və bir də Rusiyanın hərbi-siyasi yardımı ilə Ermənistanın Azərbaycana qalib gəlməsinin, torpaqlarımızın böyük bir hissəsinin əsrin əvvəlində və sonunda qopara bilməsinin ibrət almadığımız dərslərindən biri də budur: bir millət və dövlət olaraq bizim bu Göy Qübbəsi altında yeganə arxamız, dayağımız, yardımını umduğumuz və gördüyümüz yalnız Türkiyə olub. Ən ağır günlərdə, top-avtomat atəşləri altında Anadoludan gələn türk könüllüləri 92, 93-də də səngərlərdə bizimlə bir yerdə idi-mən bunun canlı şahidlərindənəm.

Bakını və həm də Azərbaycanı əsarət və daha qanlı qırğınlardan xilas etmiş, millətimə azadlıq, istiqlaliyyət, müstəqil dövlətdə yaşamaq qürurunu qazandırmış türk mehmetciyinə həsr edilmiş onlarla şeir oxumuşam, ancaq fikrimcə heç biri Abdulla Şaiqin "Neçin böylə gecikdin?" şeiri ilə müqayisə olunmaz. Düşünürəm ki, Bakı camaatı adından yazılan o müraciətin müəllifi, yaxud müəlliflərindən biri elə Abdulla Şaiqdir. Burda təbii səmimiyyət, içdən gələn sevgi ruhu ilə birlikdə səbirsiz bir ittiham da var, ərk də, darda qalmış kiçik, yavru qardaşın böyük qardaşdan umacağı, bəkləntiləri, incikliyi də var. İnsan belədir; ən əzablı, sonun çatdığını gördüyü anlarda gözü doğma qardaşını, əsil dostunu axtarır, ya da sevgili ata-anasının qoynuna sığınmaq istəyir, uzaqdadırsa onu harayına çağırır, ağrısını, iztirabını onunla bölüşmək istəyir. 18-ci ilin ortaları adı dünya xəritəsinə siyasi-coğrafi anlamda ilk dəfə yazılan Azərbaycan bu vəziyyətdə idi.

Neçin böylə gecikdin?

Sənsiz qəlbim qırıq, sönük, çiynənmiş, xırpalanmış
Ömür şüşəm daşa dəymiş, həyatım parçalanmış,
Qırıq bir saz kimi sızlar qanlı, yorğun telləri.
Yıxılıb yandırar bütün qayğı vurmuş əlləri

Bu vətənin öksüzləri, gəlinləri, dulları,
Göz yaşıyla sulanmış hər keçdiyimiz yolları.
Yolunuzu gözləməkdən bənizləri sararmış,
Heç gəlmədin. O şən gülən ürəkləri qəm almış.

Sən gəlməsən, dolumsanmış ürəklər
Sən gəlməsən, xarabaya dönən qəlb abad olmaz.
Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz
Dodaqlarım gülməz, sönmüş bəxtimə nur saçılmaz

Başqasını istəməm də, ey Türk, tez ol sən gəl, sən
Gözləməkdən yoruldum, ah, axı gecikdin nədən?
Yollarına daşmı düzülmüş? Ya azğın qullarmı?
Buraxmır? Daş, dəmir ya polad olsa da onlar.

Ürəyində şəlalədən ən mətin, qızıl atəşlə
Yandır onları, ərit, söndür, çeynə, boğ, əz, xırpala,
Xain alçaq düşmənlərə qol gücünü göstər.
Aç yolları, tez gəl ki qəlbim səni çox istər.

Ötən əsrin əvvəlində də, sonunda da Azərbaycan dara düşəndə Türkiyəni yanında görüb. Qəribədi, həm də yüz ildən artıq sürən rus-fars işğalı belə Qafqaz türklərinin Anadolu türkünə sevgisini azaltmamışdır. Rusiya ilə İran arasında pay-püş edilərək milli mənliyi tapdalanmış, ağıla sığmayacaq insani və milli faciələr yaşamış ata-babalarımızın könlündən qopan hayqırtılar bu müraciətdə olduqca təsirli ifadə olunub.

## AZƏRBAYCANIN TÜRKİYƏYƏ ƏBƏDİLİK VƏFA BORCU VAR

Bakının işğaldan azad edilməsi ilə 100 ildən artıq müstəqilliyindən məhrum qalmış AzərbaycanCümhuriyyəti 15 sentyabrda öz paytaxtına qovuşmuş oldu. Dünya güclərinin, hətta bir blokda hərbi-siyasi müttəfiq olduqları Almaniyanın da bütün təzyiqlərinə baxmayaraq, Anadolu Mehmetciyi ilə Azərbaycan əsgəri çiyin-çiyinə verərək bu torpaqları xilas etmiş və Azərbaycan türklərini azadlığa qovuşdurmuşdu. Türk ordusu Azərbaycana heç bir mənfəət güdmədən, doğmaca qardaş köməyinə gəlmişdi. Allahın qədər-qisməti, lütfü və bir də Türk əsgərinin Azərbaycan sevgisinin, cəsarət və qəhrəmanlığının nəticəsi idi ki, sərhədlərinin dördbir yanında dünyanın az qala bütün gücləri ilə savaşda ağır məğlubiyyətlərə düçar olan

Osmanlı Azərbaycanda çox böyük zəfər qazandı. Türkiyə Qafqazlarda ikinci türk-müsəlman dövlətinin yaradılmasında çox maraqlıydı, həm də Orta Asiyadakı türk qövmünə ulaşmaq üçün bu çox gərəkli idi. Bir unudulmaz müqəddəs məqam da onda idi ki, Bakının azad olunması mübarək bir günə - Qurban bayramına təsadüf etmişdi. Bəli, Bakının işğaldan azad edilməsi üçün tökülən qanlar Azərbaycan və Anadolu Türkünün müştərək tarixinə şərəfli əbədi qardaşlıq səhifəsi olaraq yazılıb. Və onu nə siyasətçilərin nadanlığı, nə insanların cəhaləti, nə də düşmənlərin məkri unutdura bilər.

Azərbaycanın hər bir ləyaqətli ovladı Azərbaycan Cümhuriyyətinin baş naziri Fətəlixan Xoylunun 1918-ci il 19 sentyabr tarixli müraciətinə imza atmağa hazırdırlar: **"Qafqaz İslam Ordusunun Komandanı Səadətli Nuru Paşa cənablarına! Komandanlığınız altındakı cəsur Türk əsgərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşməndən təmizlənməsi münasibəti ilə millətim şəxsinizə və dünyanın ən cəsur və soylu əsgəri olan Türkün oğullarına minnətdar olduğunu ərz etməklə iftixar duyuram".**

Ondan sonrakı baş nazir və təhsil naziri Nəsib bəy Yusifbəyli də həmin fikri təkrar edir: “...**üç kəlmədən ibarət bu cümləni Azərbaycan durduqca hər bir azərbaycanlı türk qəlbində yaşadacaq və təkrar edəcəkdir:**

**Millət Sizə minnətdardır.**”

Gəlin unutmayaq: Osmanlı Ordusunun şücaəti, general-leytenant Nuru Paşanın yüksək döyüş qabiliyyəti və sərkərdəlik bacarığı olmasaydı, yəqin ki, neft Bakısı indi Rusiyanın bir quberniyası idi. Məhəmməd Əmin Rəsulzadə bunu bilərək yazırdı: **“Bakısız Azərbaycan-başsız bədəndir...Bakı, Türklüyün şahbarı üzərində olan, sönməz atəşlərlə yanan bir əməl məşəlidir.”, “1918-ci mayın 28-də Azərbaycanın istiqlalını sözlə elan etdiksə, sentyabrın 15-də biz onu əməllə həyata keçirdik.”**
**"Ey türk xalqı!…Azərbaycan istiqlalını bir dəfə qurdun, bir daha da qurmaq bacarığına maliksən!"**

Əli bəy Hüseynzadə yazır: **"1918-də Azərbaycanı xilas etməklə Anadolu həm də özünü xilas etmiş oldu!".**

Bu isə Azərbaycan Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun 23 mart 1921-ci il tarixdə Atatürkə yazdığı məktubundandır: **"Paşam, 1918-ci ildə siz bizi mütləq bir ölümdən qurtardınız!"** Bu sözləri yazan N.Nərimanov yəqin ondan da xəbərdar olmamış deyildi ki, Rusiya və dünya kommunist bolşeviklərinin rəhbəri Lenin Bakı Sovetinin başçısı Şaumyana məxfi teleqramla təlimat vermişdi ki, əgər Bakı rus bolşeviklərinin əlindən çıxıb Türk qoşunlarının əlinə keçərsə, onda Bakının bütün müsəlman

əhalisi ilə birlikdə tamamilə məhv olmaq planını hazırla. Şaumyanın cavabı da özünü çox ləngitməmişdi: "Bakının məhv olmaq planı hazırdır."

AXC parlamentinin üzvü Rəhim bəy Vəkilov yazırdı: "**Bu vaxta qədər türklərə məhəbbət bəsləyən münəvvər gənclərlə Osmanlı qardaşlarımız arasında olan əlaqələrə rus çinovniklərinin qapısında baş əyən qara qəlbli, xəbis adamlar daima mane olmuşlar".**

Hüseyn Baykara "Azərbaycan İstiqlal mübarizəsi tarixi" kitabında yazır:: **"Erməniləri türklərə qarşı təhrik edən rus idarəsinin yüksək vəzifəli məmurları aradan götürüləcəkdi. Bu, "Difai" Partiyasının qərarı idi..."** "Difai" belə də etmişdi, xeyli xainə layiq olduğu cəzanı verdi və az sonra rusların buyruğu ilə ermənilər "Difai" liderləri ilə əlaqəyə girib, düşmənçiliyə son verdiklərini bildirdilər. Savaşda açıq ya gizlin fərqi yoxdur, qana qanla cavab verməlisən, əks halda uduzmağa, məğlubiyyətə məhkumsan.

Cümhuriyyətimizin qurucularından olan baş nazir Nəsib bəy Yusifbəyli demişdi: **"Azərbaycanın istiqlalını qurduq, ancaq saxlaya bilmədik. Əbədi düşmənimiz olan ruslar güc ilə vətənimizi işğal etdilər və istiqlalımıza son qoydular. Müqəddəs ölkəmiz rusların istilası altına keçdi".**

Elə bil bu gün üçün deyilib bu sözlər-dövlət müstəqilliyimizin yenidən bərpasının 20-ci ilində də Rusiya hələ də qara əllərini Azərbaycandan çəkmir.

Bunu da unutmayaq: Türk qoşunları Bakıya Güney Azərbaycanın ermənilərin bir gündə 10 min günahsız adamı tarixdə misli görünməmiş amansızlıqla qırdıqları Urmiya, Xoy, Təbrizi ingilis işğalçılarından tamam təmizləyib gəlmişdi! Dağıstan müsəlmanlarının çağırışları ilə 13 oktyabr 1918-ci ildə Qafqaz İslam Ordusu Komandanı Nuru Paşa, Quzey Qafqaz Cümhuriyyəti Ordusu Komandanı Yusuf İzzət Paşa və Quzey Qafqaz Cümhurbaşqanı Abdülməcid Çermoy Dərbənddə bir araya gəlib şəhərin bürclərinə Quzey Qafqaz Cümhuriyyətinin yeddi ulduzlu bayrağını ucaltdılar. Türk əsgəri Bakıdan sonra həm də Dərbəndi azad edərək Qafqazda rus işğalına qarşı ən böyük mücadiləni vermiş Şeyx Şamilin də arzu-istəyini yerinə yetirmiş oldular. Bakıda, Təbrizdə, Dərbənddə Türkə yenilən həm də bir ovuc ermənini silahlandırıb qızışdırıb əliyalın müsəlman türk əhalisinin üstünə saldıran Rusiya, Böyük Britaniya, Avtraliya, Kanada, Yeni Zelandiya... idi. Xislətində həmişə xainlik, məkr gizlənən erməni tarix boyu rus, ingilis, fransızın əlində alət, zopa olub-həm özlərinə, həm də Türkə saysız bəlalar gətiriblər.

Osmanlı ordusunun Qafqazda başladığı möhtəşəm hərbi, siyasi, milli dövlət quruculuğu işlərini İstanbuldan gələn acı bir xəbər bütün planları ilə birlikdə alt-üst etdi: Qafqaz İslam Ordusu "Devlet-i Aliyə"nin imzaladığı

“Mondros Mütarekesi” nin tələbi ilə geri çağırıldı. Qəhrəman Nuru Paşa bir müddət daha Qarabağda qalıb rus qırmızı bolşevik ordusuna qarşı üsyanlar təşkil etdi, lakin sonucda çarəsizcəsinə Anadoluya döndü. Geridə əziz xatirələri əbədi olaraq yaddaşlarda qaldı. Qafqaz müsəlmanları hər zaman bir qurtuluş simvolu olan Nuru Paşanı və əlbəttə, bu Qurtuluşun ideya rəhbəri olan Ənvər Paşanı rəhmətlə anmaqda davam edəcəklər.
Məhəbbət qarşılıqlı olanda əsil xoşbəxtlik və səadətə apara bilir. Azərbaycanın başbilənləri nə qədər ağır günlərdə olsa da, həmin dövrlərdə ölüm-qalam savaşı aparan Osmanlıya, Anadoluya öz əsgəri və maddi yardım əlini uzatmışdı. Zəngəzur qartalı Sultan bəy Sultanov və qardaşı-AXC-nin ilk hərbi naziri Xosrov bəyin təşəbbüsü ilə bir süvari dəstəsi düzəldilərək Laçın, Zəngəzur, Naxçıvan dağlarından keçməklə Qarsa yola salınmışdı. Hacı Zeynalabdin Tağıyev o illərdə Türkiyənin nicatı bizim nicatımızdır, məhvi bizim məhvimizdir, düşüncəsi ilə Anadoluya yardım üçün "Qardaşlıq köməyi" adlı bir yardım kampaniyası başlatmış, çox gərəkli, sanballı yardım düzənləmişdi.

Və bir də heyf ki, bizim övladlarımız məktəblərdə, dərsliklərimizdə Hüseyn Cavidin "Türk əsirləri", Salman Mümtazın "Ənvəriyyə", "Öyün, millət", Ümmügülsümün “Yolunu gözlədim”, Məhəmməd Hadinin "Şüheda-yı hürriyetimizin ervahına ithaf", "Kahraman türk askerlerine", Əhməd Cavadın "Şəhidlərə", Nazim Hikmətin "Şəhidlər" və sair kimi şeirlərindən, tariximizin qanlı-qadalı səhifələrindən xəbərsiz, içlərində türk sevgisi olmadan böyüyürlər. “Nuru Paşa” adı Bakıdakı Türkiyə səfirliyinin binasındakı salonda əbədiləşib hələ ki.

Və həmin 15 Sentyabr günü milli bayramlarımız sırasında öz layiqli yerini tutmayıb hələ.

Və bir də Bakıda hələ də Ənvər Paşanın, Nuru Paşanın adına bir küçə, xiyaban, abidə yoxdur, təəssüflər...

## Türk Şəhidlərinə Xalq Məhəbbətinin İfadəsi

*Azadlıq! Öylə nazlı afət ki, qan tökülməyincə üzə gülməz o işvəkar!*
*Hüseyn Cavid*

Qafqaz Universiteti, Türk Dili və Ədəbiyyatı Kafedrasının müəllimi  Erdal Karamanın "Azərbaycanda Bir Türk Məzarı" adlı məqaləsindən bir hissəni burada həm Türk Mehmetciyinin, Türk Şəhidinin, həm də Nuru Paşanın obrazı, Azərbaycan sevgisi olduğu üçün bu başlıq altında verməyi borc və gərəki sayıram. Sadə, təbii, təsirli olmaqla yanaşı, həm də  real tarixi fakta söykənən mənbələrdən olduğu üçün (forum.azeri.net/azerbaycanda-bir-turk-mezari).

"Türk ordusu, Bakı və digər bölgələrdəki döyüşlərdə yüzlərlə şəhid verdi. Bu cəbhələrdən birisi də Şamaxıdır. Şamaxı yaxınlarında şəhid olan bir Türk zabitinin yaralanmasından şəhid olmasına qədər keçən müddət zərfində müxtəlif duyğulu anlar yaşandı. Şamaxı ətrafında gedən döyüşlərdə şəhid olan, bu əsgərin adı bəzi qaynaqlarda İzzət, bəzi qaynaqlarda da Qadir kimi bilinir. Əsgərin dastanı dövrümüzə qədər söylənilir. Rütbəsi mayor olan əsgərin şəhid olmasını Əlfayim Əziz, "Azadlıq naminə" adlı kitabında belə yazır:

İzzət Bəy, Aşot adındakı bir düşmənin atəş açması nəticəsində yerə yıxılır. Ağır yaralanan mayorun köməyinə ətrafda yaşayan insanlar gəlirlər. Əsgərimiz yaralananda orada olan Gülsabah adlı bir qadın, hadisəyə əvvəlindən bəri şahid olur. Başörtüsünü çıxarıb əsgərin yarasını bağlamaq istəyir.

İzzət Bəy:

“Bacım qolumdan möhkəm tut, mən mərmini çıxardım” deyir. Mərmini çıxardır. İzzət bəy, Gülsabahdan cibindəki dəsmalı çıxartmağı istəyir. Gülsabah dəsmalı İzzət bəyə verir. Mərmini dəsmalın içinə qoyduqdan sonra, İzzət Bəy: “Hər şey qaydasındadır, yaramı bağlamağa ehtiyac yoxdur. Qanım bu torpağa axsın.” deyir.

Halsız halda yerdə uzanan İzzət bəy, silah səslərinə ayılır. Türk ordusu gəlib çıxır. Əsgərlər İzzət bəyi vuran əsgəri həmin döyüşdə vururlar. Ordunun gəlməsinə İzzət bəy çox sevinir. Qarşısında Nuri Paşanı görüb həyəcanlanır. Nuri Paşa İzzət bəyin yanına yaxınlaşır, İzzət bəyin başını dizlərinə qoyur. Artıq İzzət bəy son anlarını yaşayır. Nuri Paşaya: “Paşam bir Türk paşasının dizləri üstündə can vermək mənim üçün böyük bir şərəfdir.” deyir.

Nuru Paşa: (onu təsəlli etmək üçün) “Sən yaşayacaqsan, daha çox zəfər qazanacaqsan” cavabını verir.

Ancaq, İzzət bəy son anlarını yaşadığını hiss edir. Əldən düşmüş halda uzanan mayorun ətrafında hər kəs diz çökür, Şeyx Muhsin Quran oxumağa başlayır. İzzət Bəy vətənindən minlərlə kilometr uzaqda ölüm-qalım savaşı verən soydaşlarına kömək etməyin hüzurunu yaşadığı anlarda sakit bir halda oxunan Quranı dinləyir. Orada olan insanlar bu səhnə qarşısında duyğularına hakim ola bilməyib gözyaşları axıtdıqlarına şahid olunur. İzzət Bəy, bir an doğrulur və yanındakılardan haqlarını halal etməsini istəyir. Cibindəki dəsmalı çıxarıb Nuru Paşaya:

-Paşam! Atam, Anadoluda torpaqlarımızı qorumaq üçün vuruşurdu və ağır yaralandı. Vücuduna dəymiş mərmini güclə çıxardıqdan sonra, yanındakı silahdaşlarına, “Bu mərmini oğluma verin, mən vətənim üçün qəhrəman kimi vuruşdum, ölkəm üçün canımı verirəm. Ona deyin məni yaralayan bu mərmini yanında gəzdirsin və bunu iki etsin” deyir və vücudundan çıxan mərmi ilə ekiz qardaşlar kimi görünən şəhadət nişanlarını göstərərək: -“Paşam! Atamın vəsiyyətini yerinə yetirdim. Onun söylədiyi kimi mərmini iki etdim. Hələ mərminin üzərindəki qanım qurumadı. Siz də bu mərmini alın oğluma verin, ona atasının da qəhrəman kimi vuruşduğunu sonra şəhid olduğunu deyin, bu mərmiləri üç etməsini söyləyin.” deyir. Son sözlərini söyləyən İzzət Bəy vurulduğu yerdə dünyaya gözlərini yumur.

Yerli camaat və türk əsgərləri İzzət Bəy yaralananda onu Şamaxıya aparmaq istəyir, ancaq o həmən yerdəcə dəfn edilməsini vəsiyyət edir. Onun vəsiyyətindən sonra öz vətəni olaraq gördüyü torpaqlara, Şamaxı yaxınlığındakı Acıdərədə dəfn edilir. O gündən bu günə qəbrin adı “Türk məzarı” kimi yad edilir.

Türk məzarı ilə əlaqədar araşdırmalarımızda qarşımıza Bəxtiyar İsmaili (Türkcanlı) çıxmaqdadır. Bu şəhid məzarı ilə Dr. İsmailinin adı sanki eyniləşmişdir. Onun söylədiklərinə görə sonradan işğalçılar məzarı bir neçə

dəfə ləğv etmək istəyirlər. Buna çalışanlar hökumət nəzdində hərəkət etsələr də istəklərinə nail ola bilmirlər. Dəfələrlə müxtəlif təhriflərə uğrasa da xalq tərəfindən təmir edilir. Qəbir daşı ilk dəfə Şamaxı qəsəbəsi yerli hökumət nümayəndəsi tərəfindən tikdirilir. Bu xeyirxah insan 1928-ci ildə həmən xeyirxahlığına görə öldürülür. Qəbrə xalqın sahib çıxması ilə yanaşı şairlər də şerləri ilə öz vəfa borclarını yerinə yetirmişlərdi. O dövrdə rejimin təzyiqinə görə şəhid əsgərə kifayət qədər diqqət yetirmədiklərini, bu duyğularını qəlblərində saxladıqlarını Azərbaycanlı şair Qabil bu misralarla dilə gətirir:

Türkün qəbri

Qədim Şirvan yollarının
Üstündədir.
Azərbaycan torpağının,
Altında yox,
Sinəsində,
Köksündədir,
Qollarının üstündədir.
Mən bu qəbrin dövründə
Yetmiş bir il lal olmuşam,
Kar olmuşam,
Yetmiş bir il
Bu kiçik bir zaman deyil
Bu qəribin
Muzdaribin
Bu əsgərin
Bu yavərin
Şəhid ruhu,
Şanlı ruhu hüzurunda
Xəcalətdən xar olmuşam.
Türk sözünü,
Türk adını
Dilimizə gətirmək də cinayətdi.
Türkün qəbri
Həsrət qaldı.
Anaların bacıların
İsti gözyaşına
Gözyaşını bulud sıxdı
Yağış yağdır başdaşına
Türkün qəbri həsrət qaldı
Anaların bacıların

Ağısına.
Buna rəva görmərəm heç
Düşmənimin də düşməninə.
Türkün qəbri həsrət qaldı
Anaların bacıların qara matəm libasına.

Sonrakı dövrdə qərib qalan qəbrə xalqın diqqəti davam etmiş, ətrafını Şamaxılı, Məhəmməd adlı bir sürücü düzəltmişdir. Daha sonra eyni şəkildə Şamaxılı Babaxan Rzaxanov adlı başqa bir sürücü də məzarın ətrafına dəmir düzəltdirmişdir. Babaxan 1964-cü ildə tutulur, dindirildikdən sonra altı gün saxlanılır, o dövrdə Türkiyə ilə Sovet İttifaqı arasındakı əlaqələrin yumşalması nəticəsində Babaxan azadlığa buraxılır. Sonrakı dövrlərdə Bəxtiyar İsmailinin (Türkcanlı) oğlu Atilla tərəfindən təmir edilən qəbrə Türk bayrağı da həkk olunur.

*Məzarın başına bu misralar yazılır:*

Bir Türk qəhrəmanındır bu məzar,
Gör necə yer ilə yeksan eləyibdir haqzar,
Qafqaz İslam yolunda eyləyib zinhar canın
Ərsəni hərb içrə bir aslanındır bu məzar.

Xalq tərəfindən məzar, tez-tez ziyarət edilir.
Bəxtiyar Vahabzadə “Tənha məzar” şerindən bir neçə misranın yazıldığı lövhə ilə birlikdə yolçuların yanından keçəndə görə biləcəkləri yerə asdırması ilə yanaşı məzarın ətrafını da düzəltdirir. Vahabzadənin yolçulara səsləndiyi şeir belədir:

Yolun kənarında tənha bir məzar
Üstündə nə adı var nə soyadı.
Ey yolçu, maşını saxla bu yerdə
Soruş kimdir yatan tənha yerində.

O bir Türk zabiti qəhrəman, mətin
Doğma qardaşına yardıma gəldi.
Qırğına tutulan millətimizin
Haqlı savaşına yardıma gəldi.

Uzaqdan hay verib sənin səsinə
Gəldi, gəldi dönmədi öz ölkəsinə.
Düşmən səflərini, o soldan sağa
Biçib dəstəsi ilə cəbhəni yardı.

Torpağın uğrunda düşüb torpağa
Sənin torpağını sənə qaytardı.
Özü qoruduğu, həm can verdiyi
Yolun kənarında dəfn edildi o.

Uğrunda canını qurban verdiyi
Torpağı özünə vətən bildi o,
Yolçu maşını bu yerdə saxla.
O məzar önündə sən təzim eylə
Hörmət et, dua ver onun ruhuna,
Ayaq basdığın yer borcludur ona.

**Anadolu insanı, türk əsgəri 1918-ci ildə qardaş Azərbaycanın istiqlal savaşına ya Qazi, ya Şəhid olmaq üçün gəlmişdi, həm Qazi oldu, həm Şəhid verdi və torpaqlarımıza öz qanını axıdaraq, cismini torpaqlarımıza qataraq əbədi məskən saldı, xalqımızın ürəyində özünə taxt qurdu, ruhunda yaşadı, yaşayır və yaşayacaqdır.**

Qafqaz İslam Ordusunun başında Gəncəyə gəlmiş komandan Nuru Paşa Şeyxzamanlıların evində məskunlaşmışdı. Bu da təsadüfü deyildi. Gəncə Milli Komitəsinin üzvü Nağı Şeyxzamanlı Osmanlı hərbi qüvvələrinin Azərbaycana gəlişinin təmin edilməsi məqsədilə İstanbulda olarkən Ənvər və Nuru paşalarla yaxından tanış olmuş, Gəncədəki fəaliyyətin detallarını da müzakirə etmişdilər.

Şeyxzamanlıların bacısı Münəvvər xanımın yeniyetmə oğlu, ara-sıra şeirlər yazan 16 yaşlı Səlman dayılarının evində Nuru Paşanın qarşısında özünün ona həsr etdiyi şeirini oxuyur. Sonralar bu şeirə bəstəkar-tarzən Məşədi Cəmil Əmirov musiqi yazmışdı.

Gəncədə çalındı azadlıq suru,
Qovdu ürəklərdən zülməti, qoru,
Dağıt düşmən quran məkrli toru,
İrəli, irəli ər Paşam Nuru!

Çanaqqala - nurlu şəhidlik yolu,
Türk aslanlarının bükülməz qolu,
Allahım, sən özün onları qoru,
İrəli, irəli ər Paşam Nuru!

İstanbuldan gəldin Gəncəyə doğru,

Haydı, gavurlara anlat bu zoru,
Gəncədən Bakıya zəfərdir yolu,
İrəli, irəli ər paşam Nuru!

Ər paşam Nuru,
Ər paşam Nuru,
Turanın Aslanı,
Nər Paşam Nuru!

Nuru Paşanın Azərbaycana gəlişini, Azərbaycan sevgisini, xalqımızın da Nuru Paşa məhəbbətini sözsüz ki, bədii ədəbiyyatımızda ən əhatəli, bitkin, gözəl ifadə edən Nəriman Həsənzadənin "Nuru Paşa" poemasıdır.

Nuru Paşa at belində
Türkiyədən - Qarsdan gəlir.
"Azərbaycan" deyə-deyə,
Yaralanmış aslan gəlir.
Azərbaycan! Səndən ötrü
gör neçə min şəhid gəlir!
Türkdən doğulan türk gəlir,
Kərbəladan Kərkük gəlir,
İzmirdən, Sivasdan gəlir.
Bakı döyüş meydanıdı
Hələbdən - savaşdan gəlir.
...Annəm! Annəm!, - deyib gəlir.
Anasını Türkiyədə qoyub gəlir -
Azərbaycan anasının köməyinə.
Var ol səni, arxam mənim,
Arxalı səs-sədam mənim.
Fatehlərin varisidir,
Turanlı şahzadəm mənim.
Türküm mənim, irqim mənim.
Türk can qoydu bu torpaqda
"Azərbaycan"deyə-deyə,
Tarix! Səni oxuyuram
Mən türkə "can" deyə-deyə.

## Nuru Paşa Portretinə Ştrixlər

Nuru Paşa Bakıda qısa zamanda baş alıb gedən özbaşınalıq, oğurluq, hərbi və mülki intizamsızlıq, möhtəkirlik, səliqəsizliyə qarşı elə bir mücadilə başladı ki, bu gün də yaşlı adamlar həmin hadisələri yaxşı xatırlayır, Nuru Paşa kimi hökmlü vuran ələ ehtiyac olduğun zərbi-məsəl kimi dilə gətirirlər. Gənc yaşda bir zabitin belə ciddiliyi uzun illərdən bəri Bakı və ətraf kəndlərdə at oynadıb meydan sulayan bəyləri, qoçuları da vəlvələyə salır, qorxudur, müsbət mənada qaydalara əməl etməyə məcbur edirdi. O ipə-sapa yatmaq istəməyən bir neçə qoçunu camaatın gözü qabağında, ictimai yerlərdə şallaqlama cəzasına da məhkum etmişdi. Xüsusi qəbul günləri vardı ki, hər kəs gəlib burda dərdini, şikayətini ona deyə bilirdi.

Onun məğrur, güzəşt bilməyən qətiyyəti və qartal baxışları ilə birlikdə həm də təmiz, kövrək ürəyi olub, bəzən içdən gələn bir sözdən, ya həyatın nemətlərini dadmadan dünyadan köçən bir Şəhidin qapanmaqda olan gözlərini gördüyü zaman üzünü camaatdan gizlədərək məndilini çıxarıb gözlərini sildiyi anlar da çox olub.

Nuru Paşa Bakıda 19 yaşlı Cəfər Cabbarlının evinə qonaq gəlib, səmimi görüşləri, mehriban söhbətləri olub, onu darısqal evdən geniş mənzillərə köçürmək istəsə də, gənc ədib bundan imtina edib. Bu gün də ədibin ev muzeyində saxlanan hədiyyələri bağışlayıb, bu səhnə də Nuru Paşanın xarakterinə güzgü tutan maraqlı detaldır. Böyük dramaturq Nuru Paşanın Bakını işğaldan azad etməsinə həsr edilmiş “Bakı müharibəsi” adlı bir pyes də yazmış və uğurla tamaşaya qoyulmuşdu. (Asif Rüstəmli, “Cəfər Cabbarlının həyat və mühiti” kitabından). Manaf Süleymanovun "Eşitdiklərim, Oxuduqlarım, Gördüklərim" kitabında da Nuru Paşa xarakterinə güzgü tutan detallar var. Nuru Paşanın Hacı Zeynalabdin Tağıyevin ailəsində də çox sevildiyi barədə çox maraqlı informasiyalar vardır.

Bizi isə ən çox onun Azərbaycan üçün gördüyü işlər maraqlandırır. Yəni Nuru Paşanın başsız bədən kimi qalmış Azərbaycanı öz başına-paytaxtına qovuşdurması ilə tariximizə adını əbədi yazdırması əlahəzrət faktdır. **“M.Ə.Rəsulzadə: “Bakının Azərbaycan üçün sadə bir paytaxt, “can şüşəsi” olduğunu nəzərə alırıqsa, həqiqi istiqlal gününün sentyabrın 15-də olduğunu qəbul etməliyik”).**

Bütün həyatları boyu türk-islam gələnəkləri ilə yaşayan, Turan sevdalısı Killigil ailəsinin başçısı Əhməd Paşa da Qafqaz türklərinə sevgi, sayqı göstərib, Türk şəhidlərinin qanları axan Azərbaycan torpaqlarını ziyarət edib. 1918-ci ilin noyabrında hərbi məktəbin ilk buraxılışında Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Baş nazir və təhsili naziri Nəsib

bəy Yusifbəyov çıxış edərək, bu təntənədə iştirak edən Nuru Paşanın atası Hacı Əhməd Paşaya demişdir: "Zati ailələri, sizin şanlı oğullarınız Ənvər Paşa və Nuru Paşanın adları nəinki təkcə Azərbaycanın, eyni zamanda bütün türk xalqlarının yaddaşında həmişəlik qalacaqdır. ("Azərbaycan" qəzeti, 8 noyabr 1918-ci il).

"Yerli bəylər Nuru Paşanın Azərbaycana, Gəncəyə gələcəyini və yolüstü Yevlaxda olacağı xəbərini çoxdan alsalar da onun nə vaxt burada olacağını təxmin edə bilmirdilər. Yalnız Nuru Paşa Naxçıvana gəldikdən sonra onun mayın 24-də Yevlağa yetişəcəyi dəqiqləşdirilmişdi. Səhər o başdan ikibir-üçbir hamı Nuru Paşanı qarşılamaq üçün Yevlax vağzalına axışırdı. Vağzal bayramsayağı bəzədilmiş, yerə onlarla gəbə, kilim və xalı döşənmişdi. Fəruq Nuru Paşa oynaq yerişli boz kəhər atın belində, onunla yanaşı at belində 6-cı ordunun zabiti Lazım Paşa gəlirdi. Sonrakı cərgələrdə hər sırada üç nəfər atlı olmaqla iyirmiyə yaxın hərbi geyimli zabit, arxada isə osmanlı aynalısı, üçatılan və beşatılanla silahlanmış, tüfənglərini yəhərin üstündə yanpörtü tutmuş on-on beş nəfərdən ibarət süvari mühafizə dəstəsi, bir də Naxçıvandan Kəlbalı xan və Qarabağdan Sultan bəy tərəfindən qoşulmuş bələdçilər gəlirdi.

Nuru Paşanın qarşılanmasında iştirak etmiş, o hadisələrin canlı şahidi olan Yevlaxlı 102 yaşlı Məhəmməd Hacıyevin xatırlaması: "Nuru Paşanın necə adam olmasına hamı maraq edirdi. Bu qara camaat onu ahıl, ərgən bir adam bilirdik. Nuru Paşa isə şux qamətli, iti baxışlı, lakin dərin və kədərli gözləri olan ucaboy bir gənc idi. Şəvə bığları, tala bulud kimi çənəsinə qonmuş qara saqqalı onun ciddi və zəhmli olmasından xəbər verirdi. Qıvraq bədəninə biçilmiş türk zabitinə məxsus hərbi geyimi ona çox yaraşırdı". Nuru Paşa hələ atın üstündə ikən, əlini havada yellədərək - mərhaba, mərhaba arkadaşlar-deyə, hərbçiyə məxsus gur və məğrur səslə izdihamı salamladı. Hər yerdən alqış səsləri, xoş gəlmişsiniz, gələn ayağınız var olsun, rəhbəriniz sizi qorusun, siz bizim xilaskarımızsınız, -nidaları yüksəlirdi. Bu nidalar sevincdən gözlərdəki yaşlarda da görünürdü." ( Ayselim uzaysel.com, 02-13-2010)

Üzeyir bəy Hacıəyli 1918-ci il 10 noyabrında Bakıdakı Yay klubunda Nuru Paşa ilə şəhər sakinlərinin görüşü barədə "Azərbaycan" qəzetinin 1918-ci il 37-ci nömrəsində məqalə verib. Fətəli xan Xoyski, Məmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağayevdən sonra Bakı xilaskarı danışır. "Bu qədər nitq və alqışlara cavab olaraq Nuru Paşa həzrətləri gözəl İstanbul şivəsiylə ruhumuza ləzzət verən və məzmunca qəlbimizi bir çox əndişələrdən təmiz etməklə bəlağətli və səlis nitqilə məclis əhlini şərəfyab və minnətdar etdi. Bu nitqin təsiri ilə ki, hər kəsdə gələcəyə artıq əndişəsi nəzər əmələ gəlib özündə böyük bir ümid, yüksək bir inam hiss edərək, xoşbəxt və xoşvaxt bir hal ilə bir-birini təbrik edib məclisə xitam verdilər."

# ƏZİZ YADİGAR. AZƏRBAYCANIN XİLASKARI NURU PAŞA VƏ BABAM HACI FƏTƏLİ ƏFƏNDİ

Ağlım kəsəndən evimizdə az qala pıçıltıyla qulağımıza deyilən bu sözlər beynimə həkk edilmişdi: ana babalarımız Türkiyəyə köçüb getdilər, burda qala bilmədilər, qalsaydılar hamısın ya güllələyəcəkdilər, ya da sürgünə göndərəcəkdilər. Artıq heç nə öyrənə bilmirdim. Evimizin üstü qamişla örtülü idi, altında gizlədilmiş taxta yeşiklərin içi Hacı Fətəli babamdan qalma Quran, əlyazma, Türkiyə və Ərəbistandan gətirmə nəfis cildli kitablarla dolu idi, ildə bir neçə dəfə atam, anam xəlvətcə çıxıb yeşik, bağlamaların üstün açıb kitabları havaya verir, nəmin, tozun alıb yenə də yerinə düzüb üstün örtürdülər. Sovet KQB-sinin qorxusu cana, qana işləmişdi. Ancaq Allaha, Ulu Yaradana inam, iman bundan daha üstün idi; yaxın, uzaq kəndlərdən, qonşu rayonlardan cümə günləri gəlib məhləmizdəki məscidin daş-divarını öpə-öpə, dəstamaz alıb Quran götürüb namaz qılması, üz-gözlərindən yağan mutluluq uşaq yaddaşımda, hafizəmdə əbədi həkk olub. Yaşlılardan dəfələrcə eşitmişdim; Nuru Paşa bax orda atdan düşdü, Hacı babanı sinəsinə sıxdı, bir yerdə gəlib taxtın üstünə çıxdılar, yaxın kəndlərdən axın-axın gələn insanları salamladı, sonra dəstamaz alıb namaza durdular. Ağdaşın Qumlax kəndində yaşayan anamın doğmaca dayısı, 89-cu il mayın 4-də 90-ı bir xeyli keçib dünyadan köçən ağzı dualı, namaz-oruclu Veysəl babamdan dəfələrcə eşitmişdim bu söhbəti: baban Hacı Fətəli Əfəndi qızıl-gümüş nəyi vardısa Nuru Paşaya verdi, ağzı bağlı toxuma bəzəkli torbasıynan bir yerdə. Həm azuqə, həm də silah-sursat almaqdan ötəri, bu gözlərimnən gördüm, onlara mən qulluq edirdim, aftafa-ləyən gətirdim, namazdan sonra eyvandakı taxtımızın üstündə yanaşı oturmuşdular, çay-çörək yeyib içdilər, gedəndə də hamının gözünün qabağında başından qotazlı qırmızı fəsin çıxardıb qoydu Hacafəndinin başına, indiki kimi gözümün qabağındadı. Evinizdə durur həmən o fəs. Hacı Əfəndi (Hacafəndi) 2 dəfə Həcc ziyarətində olub-şura hökuməti gələnə qədər və sonra. Birinci gedib-gəlməyi uzun çəkmişdi - ordan gəlib bir müddət də Türkiyədə ali dini təhsil alıb, gəlib həmin vaxtlar tək Şirvan mahalında yox, bütün Azərbaycanda məşhur olan Ağdaşın Zeynəddin mədrəsəsində, bir müddət də Ağdam, Bərdədə imamlıq-əfəndilik edib, yaşlı adamlardan Babandan dərs, izin alanlardan sağ qalanlar var, bura da gəlib gedirlər hələ də. Burda və ətraf bölgələrdə onun yolunda hər cür əzab-əziyyətə qatlaşmağa hazır olan yetirmələri çox olub. Mən biləni Baban Nuru Paşa ilə İstanbuldan tanış idilər, çünki çox mehriban görüşdülər, həm də başının dəstəsi ilə birbaşa bizə gəlmişdi. Kommunistlərə, sovet hökumətinə qarşı Cihad Bəyannaməsini də o vaxt Qazı Bəhlul Behcətlə Hacı Fətəli bir

yerdə bizim məsciddə yazmışdı, Hacı baban Zəngəzur, Qarabağdan üzübəri ta bu Şirvan torpaqlarına qədər çox iş görmüşdü Allah yolunda, adamlar gecələr əl-ayaq yığışandan sonra xəlvət gəlirdilər cümə namazlarına-Hacı imam dururdu, Türkiyədə də bilirdilər ki, belə bir adamları var burda...

Nuru Paşa adı o zamandan həkk olmuşdu yaddaşıma. Çox təsirli, ibrətlidi ki, yaşı 93-ü keçən o qotazlı fəs bizim evdə babamın Məkkədən gətirdiyi, Quran, torpaq, qara uzun təsbeh kimi hər zaman ən əziz, müqəddəs tutya kimi saxlanıb, başı ağrıyan, ağlı, gözü, dili çaşan, məscidimizin daimi sakinləri, diləyə gələnlər Qurani-Kərimlə bərabər mütləq o qırmızı fəsi də öpər, ya da yastığının altına qoyub şəfa tapardılar. İndi də o fəsi əziz yadigar kimi 19 ildir dünyanın ən ağır qaçqınlıq əzabını yaşayan dədəm Hacı Nəriman bağlı sandığında saxlayır. Bu da tez-tez 83 yaşlı dədəm Hacı Nərimanın dilindən çıxan sözlərdir: -"Allah Türkü qorusun, nə yaxşı ki, Türkiyə var!"- deyir. Bu mövzu barədə “Qubadlısız 16 il” kitabımın (“Nurlan”, 2009) “Mənim Türk sevgim, Türkiyə sevgim” adlı fəslində geniş yazmışam.

**Nuru Paşanın idealı: Azərbaycanda Türk məktəbləri**



1918-ci ildə Bakını rus, ingilis və erməni işğalından qurtaran ordudakı öyrətmən-müəllim əsgərlərin ilk işi məktəb açmaq olmuşdu.

Dünyanın 100-ü keçən ölkəsində Türkiyə adına barış körpüləri quran Türk liseylərinin orqanizə etdiyi Türkçə Olimpiya finallarının Azərbaycan üçün başqa bir anlamı var. Çünki Türk liseyləri 1990-cı illərin başında ilk dəfə Azərbaycanda açılmış və dünyaya buradan yayılmışdı. Ayrıca bu liseylər 1920-ci illərdə yarımçıq qalan bir istiqbal mücadiləsinin parlaq ünsürü oldu.

Türkçə yarışması üçün Bakıdayıq, ancaq yolumuz öncə ölkənin ilk başkəndi Gəncəyə düşür. İslam coğrafiyasında ilk parlamento burada qurulmuş və ilk demokratik məclis burada açılmışdı. Məclisin girişində ilk parlamentoda görev alan Milli Hökumətin lideri Məmməd Əmin Rəsulzadə və hökumət üzvlərinin fotolarının yanı sıra müəllim və şagirdlərin məzun xatirəsi olan  böyük bir foto diqqət çəkir. Türk Okulları-məktəblərinin və təhsil sahəsində önəminin fərq edilmə hekayəsi burada başlayır.

Çoxumuz bilməsək də, Türklərin ən az Çanakkala dastanı və İstiklal Savaşı qədər önəmli bir zəfəri daha var. Bu zəfər ingilis, rus və onların təhriki ilə hərəkət edən ermənilərə qarşı 1918-ci ildə Bakıda qazanıldı. Zəfərin qəhrəmanlarından Qafqaz İslam Orduları Komutanı Nuru Paşa 20 mindən artıq insanın qətl edildiyi Bakıdan yüksələn fəryadlara əl uzatdığında hələ 27 yaşındaydı. Osmanlının son dönəmləri... Bir tərəfdən vətənin müdafiəsi aparılır, qurtuluş mücadiləsi verilir, bir tərəfdən də Osmanlının külləri üzərində yeni bir dövlət qurulurdu. Ancaq Azərbaycandakı zülümlərə türk səssiz qala bilməzdi.

1918-ci ildə Azərbaycanı işğaldan qurtaran Nuru Paşanın hekayəsi belədi: Bakı işğal edilib minlərcə azəri qətl edilincə Azərbaycan hökuməti Osmanlıdan əsgəri yardım istədi. Türkiyənin müttəfiqi Almanların etirazlarına rəğmən Türkiyədə Qafqaz İslam Ordusu quruldu və bu ordu yardım üçün səfərə çıxdı. Türk əsgəri Azərbaycanda qurbanlar kəsilərək qarşılandı. Gəncənin hər tərəfinə Osmanlı və Azərbaycan bayraqları yan-yana asıldı. Xalqın bu sevinci Azərbaycan milli şairi Əhməd Cavada aid “Salam Türkün Bayrağına” şeirində əksini tapdı. Türkiyədə bu şeir “Çırpınırdı Qara dəniz” adıyla bilinir. Türk insanının silahlı mücadiləsi Gəncədə başladı. İlk şəhid burada verildi. Bu gün Çanakkalada Bakı doğumlu 18 yaşında şəhid düşən Hasanoğlu İbrahimin nəşi yatırsa, Bakıda da Aksaray doğumlu Abdullah oğlu ər İsanın cismi yatır. Türk ordusu Azərbaycanda 1130 şəhid verdi; 30 saatlıq çatışmalar sonunda Bakı işğaldan qurtuldu. Azərbaycan bağımsızlığa qovuşdu.

Nuru Paşa Azərbaycanın istiqlal mücadiləsində önəmli rol oynadı; amma Azərbaycanın ilk məclisindəki o foto sadəcə istiqlal deyil, eyni zamanda istiqbal mücadiləsinin simvoluydu. Qafqaz İslam Ordusunda Bakı səfərinə qatılan əsgərlər arasında müəllimlər də vardı. Bu öyrətmənlər Bakı

işğaldan qurtulan kimi Gəncədə okul-məktəb açdı və Azərbaycan gəncliyinin təhsil təliminə başladı. Qafqaz Üniversitetinin müəllimi Mehmet Rıhtım bu fotoda bir məzunluq xatirəsinin əks edildiyini və Nuru Paşanın ordusuyla gələn öyrətmən-müəllimlərin ən önəmli fəaliyyətlərinin təhsil sahəsində olduğunu ifadə edir. Rıhtım təhsil fəaliyyətlərinin 1920-ci ildə rus işğalından sonra yenidən kəsildiyini və o dönəmə aid bütün bəlgə və sənədlərin yox edildiyini qeyd edir.

Azərbaycan Sovetlər dağıldıqdan sonra 1991-ci ildə yenidən bağımsızlığını elan etdiyində müstəqilliyini ilk tanıyan Türkiyə oldu. Ancaq bağımsızlıq elan edilmədən bir il öncə 20 yanvar 1990-cı ildə Bakıda yaşanan qətliamı xatırlamaq gərəkdir. Azəri vətəndaşlar tank tırtılları altında əzilərkən bunun əks-sədası Türkiyədə bir başqa oldu. İzmirin Şadırvan Camisində 20 yanvar qətliamını anladırkən kürsüdə bayılan Fəthullah Gülən Hocaəfəndi arkadaşlarına, dinləyənlərinə, "Gedin! Qardaşlarınıza yardım edin"- mesajı verdi.

O gün Türk insanı Azəri qardaşına maddi–mənəvi yardıma keçdi. Təhsil könüllüləri isə cəhalət ilə savaş adına bir mücadiləyə başladı. Azərbaycanın Təhsil naziri Misir Mərdanovun "mənim bu günə qədər təhsil adına etdiyim ən böyük icraatım Türk liseyləridir" deyir. İlk liseylər Azərbaycanda açıldı, ardından dünyaya yayıldı. Bu gün Azərbaycanda Çağ Öyrətim Şirkətinə bağlı 12 lisey, 11 universitetə hazırlıq kursu və 1 universitet açılmışdır. 5 minə yaxın şagirdin oxuduğu məktəblər Azərbaycanın ən populyar məktəbləridir. Məzunları önəmli dövlət qurumlarında görev alır. Özünün müəllimlərini yetişdirən Türk Okullarında artıq yüzdə 70 faiz Azəri öyrətmənlər görev alıb.



Bu okulların açılmasında böyük əməyi olan Azərbaycan Cümhurbaşqanı mərhum Heydər Əliyev:- “mən bu liseyləri hər zaman dəstəklədim, yardım etdim. Çünki bu liseylər Azərbaycanın təhsil sistemində yeniliklər həyata keçirdilər”- demişdi. Təhsil naziri Misir Mərdanov isə “bu liseylər iki ölkə arasında elə güclü bir körpü oldu ki artıq bu körpünü kimsə yıxa bilməz”- dedi.

Ölkənin yüksək ballarla ən yaxşı universitetlərinə girən şagirdlər bu liseylərdə yetişir. Nuru Paşanın 1918-ci ildə Azərbaycanın istiqlal mücadiləsini indi Azərbaycanın müstəqilliyi ilə yaşıd Türk Okulları yerinə yetirir.

http://tanimsiz www.tarihimiz.net

**Adları Xalqın Yaddaşına Yazılmış Qardaşlar**

1937-ci ilin sovet-KQB zindanlarında işgəncələrdən sonra güllələnmiş tanınmış şair, folklorşünas alim, tədqiqatçı Salman Mümtaz (Salman Məşədi Məhəmməd Əmin oğlu Əsgərzadə, 1884-1937) Ənvər və Nuru Paşalar haqqındakı şeirləri Gəncədə yazmış, “Azərbaycan” qəzetinin 1918-ci ildə 30 oktyabr tarixli sayında çıxmış və çoxaldılaraq Qafqaz İslam Ordusu

əsgərlərinə paylanmışdır. "Ənvəriyyə" şeiri Nuru Paşa vasitəsi ilə Ənvər Paşaya göndərilmişdir.
Nuru Paşaya ithaf etdiyi "Öyün, millət" şeirini şair Şəkiyə daxil olarkən Paşanı qarşılanma mərasimində söyləmiş, şeiri çox bəyənən Nuru Paşa şairə Türkiyə nişanı təqdim etmişdir.

Enveriyye

Yaşa, ey gazi-yi azam, yaşa, ey muhteşem Enver!
Seninle fahr edir şimdi büyük sultan, ulu kayser
Ki, sensen dahi-yi devran, sensen fatih-i kişver,
Sana şayestedir elhakk tila ovrengü zer efser .
Doğar mı mader-i giyti senin tek bir de bir ner er
Hayali ay kimi aydın, meramı gün kimi Enver?!

Sehab-i küfrü ten böldün, kılınç darbıyla etdin şakk,
Çıkartdın milleti yekser ışıklı günlere elhakk,
Ayıltdın Türkleri, verdin demadem Türküğe revnak
Sana bu işde yardımcı yakin oldu cenab-ı Hakk,
Sen oldun Hazret-i Hakkın sefa-yı lutfuna mazhar
Yaşa, ey gazi-yi azam, yaşa, ey muhteşem Enver!

Müselman gayretin çekdin, gözetdin Türkün namusun,
Dağıtdın haver-i İslamdan küffar kabusun.
Mesacidden dilerdi Rus asa öz nehs nakusun ,
Güneşden parlak amalın olup Şark ehline ezher,
Yaşa, ey gazi-yi azam, yaşa, ey muhteşem Enver!

Munzam ordunu birden ser-i adüvvane saldırdın,
"Kıral"lar rişesin kırdın, "karol"lar tacın aldırdın,
Edip mağlup küffarı, neva-yı suru çaldırdın,
"Hilal-i arşa yükseltdin", "gün"ü eflake kaldırdın.
Nihal-i maksad-ı fikrin getirdi tatlı bir nevber,
Yaşa, ey gazi-yi azam, yaşa, ey muhteşem Enver!

Ziya-yı fikrin ile ziyasızdık, ziyalandık,
Cefa vü cevr çekmişdik, fütuhunla sefalandık,
Liva-yı nusretin ile , bihamdillah, livalandık,
Hakir ü pest olmuşduk, ucaldık, itilalandık.
Tamamen Kafkas'ın ehli gönüldendir sana asker
Yaşa, ey gazi-yi azam, yaşa, ey muhteşem Enver!

Saadet devri, söz yok kim, yetirmiş şanlı cahidler,
İğitler, kahraman erler, şücaetli mücahidler,
Buna tarihde vardır dahi binlerce şahidler,
Dikipdir onlara şahlar neçe yerde müşahidler.
Yapar millet sana layık tiladan heykel-i ekber.
Yaşa, ey gazi-yi azam, yaşa, ey muhteşem Enver!

Semada yıldırım tek parlayan dem tiğinin berki
Işıklandırdı şemsasa seraser alem-i Şarkı,
Nisar-ı hak-i payınçün düzüldü bin güzel şarkı ;
Benim naçiz şiirimle veli var onların farkı
Mübarek vechini görcek tapar eşarımız ziver,
Yaşa, ey gazi-yi azam, yaşa, ey muhteşem Enver!

Öyün, millet

O gün millet ki eltafı olup şevketli sultanın,
Hilalin halesi kılsın ihata Türk evtanın .

Tefahur eyle, ey millet, muradın hasıl olmuşdur,
Daha eflake yükselmez enin-i ah ü efganın.

Ziyasız Rus zulmünden o yüksek ruhun ölmüşdü,
Dökürdü şişeye her dem şerabi nab tek kanın.

Kızılgül tek açıl, gül, gör ki Türkün şanlı ordusu
Revak-ı arşa nasbetmiş büyük Osmanlı unvanın.

Semaya doğru tuğrul tek sen, ey Türk oğlu, uç, yüksel
Ki, sensen şanlı evladı şerefli eski Turanın.

Bulut altında kalmışdı eğerçi kevkeb-i bahtın ,
Gör imdi necm-i zahir tek hilalın, necm-i tabanın .

Gerek tak-ı mukarnasdan asılsın Türkün tuğrası
Melekler zib-i duş etsin livasın Al-i Osmanın.

Bütün, Mümtaz, ellerden olar Türk milleti mümtaz ,
Sürer bundan sonra Türklük şerefli-şanlı devranın.
***

**Turançılığın ideoloqları: İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Ziya Göyalp, Əhməd bəy Ağaoğlu, Yusif Akçura**

Ey Türk Oğuz bəyləri! Türk xalqı, eşidin!
Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə, bil ki, Türk ulusu, Türk yurdu, Türk dövləti, Türk törəsi pozulmaz. Su kimi axıtdığın qanına, dağlar kimi yığdığın sümüklərinə layiq ol! Ey ölümsüz Türk ulusu, özünə dön!
Bilgə Kağan (684-734)

Məmməd Əmin Rəsulzadə:

Bütün Türklər öz aralarında böyük dünya federasiyasına qədəm olmaq üzrə bir federasiya qurmalıdırlar.Yeni Turan, mədəni birlik üzərində təsis edilib, ancaq gələcək birər Türk hökumətlərinin federasiyası şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin bir həlqəsidir.

**HEYDƏR ƏLİYEV:**
Azərbaycanla Turkiyə bir millətin iki dovlətidir.

**Qeyd: Oxucuların diqqətinə təqdim edilən kitabdakı materialların bir hissəsi Türkiyənin internet saytlarından alınıb, bilərəkdən çevirməsiz təqdim olunur, eyni dili danışan, anlaşan insanlar üçün çevirməyə zatən ehtiyac da yox. Həm də Anadolu və Qafqaz türkləri bir-birilərini çevirməsiz oxumağı və anlamağı öyrənməlidirlər.**



Türkiyə Baş naziri Rəcəb Tayyib Ərdoğan: “İngilis, fransız, ispan, ərəb dilində danışan ölkələr öz aralarında bir araya gəliblər, bizlər də əlaqəli şəkildə buna nail olmalıyıq. Gözəl dilimizi danışan türkdilli dövlətlər topluluğu beynəlxalq səviyyədə xalqlarımızın mənafelərini daha yaxşı qorumağımıza imkan verəcək, ona görə bu yöndə calışmaları da artırmalıyıq. Ortaq tariximizin yenidən yazılması və bu müştərək tarixin dərslik kimi oxudulması uzərində dayanılmasının bir movzu olduğunu təkrar xatırlatmaq istəyirəm. Türk cümhuriyyətləri arasında hər cur əməkdaşlığın daha planlı və əlaqəli olmasının, başqa sozlə təsisatlı hala gəlməsinin vaxtı gəlmişdir. Bu məqsədlə mən turkdilli olkələrin dövlət başcıları zirvəsinin daimi bir katibliyinin yaradılmasını bu qurultayda təklif edirəm. Bu daimi katiblik nə etdik, nə edirik, nə edəcəyik - bunu daim izləməli və təşkil etməlidir.Bunu kecmişdə bacardıq, indi də bacara bilərik. Ortaq tariximizdə olduğu kimi, bundan sonra seyr edən və ya izləyən deyil, öndə gedən, təyin edən olmalıyıq, olacağıq. Başqa carəsi yoxdur. Yəni bu topluluqlar gundəliyi müəyyən edilən yox, gündəliyi müəyyən edən topluluqlar olmalıdır. Çünki lider ölkələr və ya

lider ölkə olmağın yolu buradan kecər. İnşallah bizlər də həsəd aparılan ölkələr olacağıq. Bunu burada iştirak edən və ya burada olmasa da könlu, ruhu və vicdanı bizlərlə olan bütün qardaşlarımız edəcəklər. Bu yöndə qətiyyətli addımlar atdığımız təqdirdə bugünkündən daha gözəl günləri birlikdə yaşayacağıq."

*Bakıda keçirilən türk dövlət və cəmiyyətlərinin 11-ci dostluq, qardaşlıq, əməkdaşlıq qurultayında nitqindən*

## Rəcəb Tayyib Ərdoğan Bakıda "Rəcəb Tayyib Ərdoğan"nın müəllifi ilə görüşmüşdür



Bakı, 28 iyul (AzərTAc). Türkiyənin Baş naziri iyulun 27-də Bakıya səfəri zamanı ölkəsinin səfirliyində "Rəcəb Tayyib Ərdoğan" kitabının müəllifi jurnalist Hacı Nərimanoğlu ilə görüşmüşdür.

Baş nazir dost və qardaş Azərbaycanda onun ömür yolundan, siyasi fəaliyyətindən, bütün sahələrdə genişlənməkdə olan Türkiyə-Azərbaycan əlaqələrindən bəhs edən nəfis tərtibatlı kitabın nəşrindən məmnunluğunu söyləmiş, müəllifə təşəkkürünü bildirmişdir.

H.Nərimanoğlu yurdsuzluq ağrı-acılarının ifadəsi olan "Qubadlısız 16 il" kitabını da Baş nazirə təqdim etmiş,

Azərbaycan xalqının Qarabağ münaqişəsinin həllində Türkiyə Cümhuriyyətindən daha böyük dəstək gözlədiyini vurğulamışdır. Baş nazir Rəcəb Tayyib Ərdoğan müəllifin hədiyyə etdiyi kitabları oxuyacağını, şəxsi kitabxanasında əziz xatirə kimi saxlayacağını bildirmişdir. Yurd-yuvasından ayrı düşmüş insanların ağrı-acılarını yaxşı anladığını deyən Baş nazir vurğulamışdır ki, Türkiyə bundan sonra da hər zaman Azərbaycanın yanında olacaqdır.
Rəcəb Tayyib Ərdoğan hər ailədə 3 uşaq görmək istəyinin eynilə Azərbaycana da aid olduğunu vurğulamış, bu öyüdünün ailə həyatı quran gənclərə çatdırılmasını istəmişdir. O, H.Nərimanoğlunu şəxsi qonağı kimi Türkiyəyə dəvət etmişdir. "Rəcəb Tayyib Ərdoğan" kitabının nüsxələri Türkiyə nümayəndə heyətinin üzvlərinə də təqdim olunmuşdur.
Qeyd edək ki, Hacı Nərimanoğlu 15 ildən çox rəsmi dövlət xəbər agentliyi AzərTAc-da çalışıb, hazırda "Zəngəzur" Cəmiyyətləri Birliyi İdarə Heyətinin sədridir.



